ULDUZ

№08 (627)

WWW.AZYB.AZ
WWW.AYB.AZ

AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ AVQUST 2021

Nargis: özüylə söhbəti və esseləri
Nizami Gəncəvi və çağdaş ədəbi gənclik
Əli Əmirli: Ustad dərsləri
Səlim Babullaoğlunun "Yazı masası"
Aşıq Ələsgər - 200
Zərdüşt Şəfi: Ədəbi fraqmentlər
Təbriz eli
Dərgidə kitab

BU SAYIMIZDA

3
NARGİS
özüylə söhbəti
və esseləri



6
Nizami Gəncəvi
və çağdaş ədəbi
gənclik

12
Xalid MAHMUD
Ağrı üçün elegiya

yazı masası 15

21
Simran QƏDİM
Pilləkən



24
Sabir YUSİFOĞLU
Mən sevənlər
dəbdən düşüb

27
Əli ƏMİRLİ
Ustad dərsləri

31
Xatirə RƏHİMBƏYLİ
Bilirsən niyə
susdum?

33
Nurəddin MUQƏDDƏM
Təbriz eli

35
Arzu HÜSEYN
Səni xatırlamaq
istədim bu gün

38 İradə AYTEL
Çiyələk qadından mələk qadına

43 Günay ÜMİD
Çəkmə günəşin önünə gecəni

Aşıq Ələsgər - 200
46

Süleyman ABDULLA
Dolu döyən uşaqlar 51

53 Elnarə AKİMOVA
tənqid

İlham QƏHRƏMAN
bayatılar 58

Bilal ALARLI
tribuna 61

69 Aləmzər SADIQQIZI
Payız gözlərimdə yazım utanar

72 Nizami TAĞISOY
Abay yaradıcılığı...

77 Orxan YAŞAR
Rəssamın Müşfiqə cavabı

79 Gülnar SƏMA
Aysel Xanlarqızının "Darıxan şeirlər"i

81 Nazilə GÜLTAC
Ürəyimin səmasında

83 Zərdüşt Şəfi:
Ədəbi fraqmentlər

86 Mütalib TAHİROĞLU
Keçmişdən gələn adam

88 dərgidə kitab

Təsisçilər:
Azərbaycan Yazıçılar Birliyi və "Ulduz" jurnalının kollektivi

Baş redaktor
Qulu Ağsəs

Redaksiya heyəti
Təranə Vahid
(Baş redaktor müavini)
Hicran Hüseynova
(şöbə redaktoru)
Dayandur Sevgin
(şöbə redaktoru)
Taleh Mansur
(şöbə redaktoru)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər Əhməd
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Cavid Zeynallı
Məshəti Musa
Elşən Əzim
Nargis
Şəfa Vəli
Şahanə Müşfiq
Allahşükür Ağa
Türkan Turan
Ulucay Akif
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Moskva)
Günay Səma Şirvan
(Voronej)

Bədii redaktor
Ədalət Həsən

Ünvanı: AZ1000, Bakı, Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
www.ayb.az
Telefon: 498-72-43
Çapa imzalanıb: 12.08.2021
"Ulduz" jurnalı redaksiyasında yığılıb, səhifələnib.
"ASPOLİQRAF LTD" MMC-də çap olunub.
Sifariş №250, Tiraj: 300
Qiyməti: 2 man.
1967-ci ildən çıxır.
Şəhadətnamə № 238

"AZƏRMƏTBUATYAYIMI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

"**Ulduz**" jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "Mətbuatyayımı" şöbələrinə müraciət etməyiniz kifayətdir.

"QAYA" MƏTBUAT YAYIMI

"**Ulduz**" jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "QAYA" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

"KİTABEVİM.AZ"

"**Ulduz**" jurnalını burdan əldə edə bilərsiniz.

Jurnalın

1 aylıq abunə qiyməti – 2.00 man.

6 aylıq abunə qiyməti – 12.00 man.

Bakı şəhərində abunə yazılmaq istəyənlər:

441-19-91 **440-16-26**	**566-77-80**	**498 – 79 – 89**

nömrəli telefonlara zəng edə bilərlər.

ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN

Özrüylə söhbəti...

NARGİS

– Sevgi və qadağan olunmuş eşqdən çox yazırsınız. Hansı həyatınızda daha böyük rola sahibdir?

– Sevgi ümumi anlayışdır. Ancaq bir dəfə İskəndər Palanın "Kitabi-aşk" əsərində oxumuşdum ki, eşq dediyin patalojik, platonik, anormal, qadağan olunmuş olmalı"...

Fikrimcə, bu, eşqi həm də qalıcı edir... Əbədi edir... Soyuq, həm də qalıcı... Aysberqlər kimi, ulduzlar kimi...

Toni Morrison deyirdi: "Əsl yazarın ilhamının qaynağı müvəqqəti duyğular deyil, soyuq düşüncələrdir".

Dünya ədəbiyyatında da belə mövzular çoxluq təşkil edir. "Fransız leytenantın qadını", "Dahi", "Aeroport", "Ev və dünya" və s. kimi nümunələrdə bunu görürük.Gördündüyü kimi, son dərəcə aktual mövzudur. Azərbaycan ədəbiyyatında sevgi, çox təəssüf ki, poeziyanın bağçasında bitən güldür. Bəlkə də, poeziya ilə məşğul olanlar daha romantikdirlər. Ancaq nəsr yazanlar daha sapioseksualist olurlar. Sevgi hər zaman vacibdir. Təəssüf ki, nəsrdə inandırıcı sevgi motivləri artıq yaranmır...

Hər qadın, eyni zamanda hər yazar həyatında dəli kimi sevilməyi arzulayır.

Ancaq daha çox sayqıya etibar edirəm, nəinki sevgiyə.

– Yeri gəlmişkən, bizdə belə bir təəssürat var ki, gənc yazar tanınmaq üçün, əsasən, ya özündən əvvəlki nəsli inkar edir, ya da pornoqrafik elementlərə əl atır...

– Bu barədə "18+lar bizə nə verdi, bizdən nə aldı..." yazımda geniş şəkildə bəhs etmişəm. Mən lazımsız və aşırı dərəcədə açıq-saçıq yazmağa meyil göstərənləri başa düşmürəm. Hər şeyin bir həddi var. Gəlin görək bizlər nə dərəcədə bu həddi gözləyirik. Cəmiyyətimizin gələcəyi olan gənc beyinlər düşünmək istəyirlər axı. Niyə onlara nəfslərini qorumağı deyil, bunun lazımsız bir şey olduğunu sübut etməyə çalışırıq. Belə əsərlərlə gündəmə gəlmək olar, hətta uzun müddət gündəmdə qalmaq da... Ancaq əsas məsələ axı ədəbiyyatda qalmaqdır...

– Bəs sizə uğurlu qadın demək olarmı?

– Bilmirəm, ancaq kifayət qədər uğurlarım var. Həm də tədqiqatçı olduğum üçün ədəbiyyata romantik kontekst xaricində tamamilə başqa yöndən baxmaq imkanım var. Tədqiqatçı kimliyim mənə imkan verir ki, dünya ədəbiyyatında gedən prosesləri yaxından, professional mövqedən

izləyim, təhlil edim. Öz doğma ədəbiyyatımıza nəyin gərəkli olduğunu seçə bilim.

Bundan başqa sosial mediada çox aktivəm. Yazdığım statuslar insanlara motivasiya verir. Fərdi inkişaflarına kömək edir. Bu aspektdən kifayət qədər elektron məktublar alıram. "Qardələn" kitabım da sırf bu baxımdan daha çox sevilir.

– İkinci dəfə dünyaya gəlsəydiniz, yenə Nargis olardınızmı? Siz öz orijinal cavabınızla bu suala yeni bir nəfəs verə bilərsinizmi?

– Özümü sevirəm, fərqli olduğuma, fərqlilik bəxş etdiyimə inanıram. Ancaq son illərdə yaşananlar sübut etdi ki, artıq dünya dəyişib. Koroğlu tüfəngə görə silahı yerə qoymuşdu. Biz texnologiya əsrinin cocuqlaryıq. Qələmi klaviaturaya görə yerə qoymadıq. Ancaq nə yalan deyim, arada Elon Musk olmaq keçir könlümdən. Bəlkə də, bu mənim texnologiyaya olan sevgimdən və bilgimdən irəli gəlir. Onun gözlərində müvəffəqiyyət əldə etdiyi texnologiya testlərində tanrılaşdığına inamın işartılarını görürəm.

Bu, insanın qalibiyyətidir. İnsanın qələbəsidir.

– Uşaq vaxtı yazıçı olmaq istəmisiniz?

– Xeyr, politoloq olmaq istəmişəm. Ancaq arada kiçik janrlara müraciət edərək nələrsə yazmışam.

– Hansısa əsərinizdə öz prototipiniz var?

– Bütün əsərlərimdə prototipim var. Həyatda daima dəyişən biriyəm. Bu, sadəcə, görkəmcə olmur, ruh baxımından da dəyişirəm. Hətta bir gündə iki dəfədən çox dəyişirəm. Əsərlərim də fərqli-fərqlidir. Bir-birinə oxşamır. Mənim mənlərim kimi fərqli...

– Keçmişə gedə bilsəydiniz, hansı zamana gedərdiniz?

– Ailə üzvlərimin sağ olduğu zamana...

Ustadın dediyi kimi...

Bir səhər yuxudan durub
Özünü uşaq görəsən.
Görəsən hamı evdədi,
Ölənləri sağ görəsən.

...və esseləri

RUHUMDAKI BOŞLUQLAR ADAM UDUR!

Bəzən elə hiss edirəm, artıq mənim qəlbim Misir Tarix Muzeyində saxlanılan tanrıçaların qırıq-sökük heykəllərinə bənzəyir. O heykəllər kimi paslı dəmirlərlə zorla daxildən birləşdirilib ki, öz funksiyasını icra etsin. Və hər nəfəs alanda hiss edirəm ki, sol tərəfimdə ağırlıq daşıyıram. Ürəyimi, deyəsən, çox yükləmişəm. Hiss edirəm ki, ürəyim bumbuzdu. Bombozdu. Bu, ruhumu üşüdür. Uzun müddətdi ki, ürəyimlə hesablaşmıram... bu məni ürküdür. Artıq bir çox mənalar mənasızlaşıb. Təxminlər isə reallaşıb... Bir çox qavramlar siluetdən vücuda bürünüb. Artıq kölgələrin ekzotikası məni valeh etmir. Nağıllar artıq mənə qorxulu gəlir. Bütün hekayələr ayrılıqla bitir beynimdə. Mən daha heç bir hekayəyə xoşbəxt son yaza bilmirəm. İnana bilmirəm kimsəyə. Özümü artıq aldada bilmirəm. Mən, mən, deyəsən, böyüyürəm... Axı mən heç vaxt böyümək istəməmişdim. 17 yaşımdakı ağlım üçün niyə darıxmağa başlamışam? Niyə cəmiyyət mənə kitablardan daha maraqsız gəlir? Nə üçün ruhumu tikanlarımla qorumağa çalışıram? Niyə maskalayıram ürəyimi, niyə etiraf edə bilmirəm darıxmaqlarımı? Niyə çəkinirəm ürəyimdən? Niyə? Artıq bütün suallar yarımçıqdı, bütün cavablar bezikmiş. Bütün bəhanələr çılpaqdı artıq, bütün xoşbəxtliklər tükənib... Ətrafımız adamla dolu, ruhumuz adamsız... Ruhumuzdakı boşluqlar adam udur. Adamsızlaşırıq... Məncə, sən ən düzünü edib getmisən. Bu gediş bizim bütün hisslərimizi yarımçıq sonlanmağa məcbur etdi... Qalsaydın belə, dəyərsizliklə qəlbimdə daha uzun yaşamayacaqdın, dəyərsizim. Artıq bilirəm ki, mən səni daha uzun müddət sevəcəyəm... Ruhumdakı boşluqlar artıq adam udur...

101 İL SONRA YENİDƏN QƏHQƏHƏLƏRLƏ GÜLÜR İBLİS

Ruhumdan qaranquşlar uçur heç tanımadığım diyarlara...
Aparırlar sevgilərimi, ağrılarımı, təəssüflərimi...
Yad şəhərlərə yayılır ağrılarım,
Qəlbimdə artıq şəhər qurmur "insanlar"...
Cırıq kartonlar üstündə mürgüləyir bomjlar
– Bütün küçələrimdə zülmət, bütün sokaklarımda tənhalıq var...
Bütün aynalarımda çatlar, məğlublaşıram.
Əzizim, bilirəm, sən sevmirsən məğlubları,
Səni maraqlandırmır anasının qucağında dilənənlər...
Sənin üçün fərqi yoxdu Çernobılın,
Xirosimanın...
Sən doluxsunmursan unudulan kukla görəndə.
Gilənar yeyərkən boğazında qalmır keçmişin.
Sənin ovuclarında Hermesin qoxusu,
Mənim ruhumda mürəkkəb ləkələri...
Sən Elon Muskvari baxarkən dünyaya
mən təkrar-təkrar Cavid oxuyuram.
Belə, belə, belə...
Yenə səni maraqlandırmır mövzularım...
Yenə gülürsən dərdlərimə, bilirəm...
Bilirsən, xərçəngə yoluxub dünyanın ağ ciyərləri,
Mifləşir Amazon qadınlarının qəhrəmanlığı,
Heç bir qadın uşağına zümzümə etmir laylaları,
Oxşamaların yerini alıb qarğışlar,
Körpələri həyəcanlandırmır nağıllar.
Getdikcə yadlaşırıq, qloballaşırıq,
Radioktiv tullantılar çeynəyir ruhumuzu.
Dünyəvi atılmışlıqlarla dolur beyinlərimiz.
Məni hər gün tənqid edərkən kəmağıllar
Urmiyadan bircə kəlmə danışmır, susurlar.
Yaşıl mahiyyətini itirir getdikcə...
Dənizlərin rəngi qırmızılaşır.
Azadlığa heykəl qoyulur,
sülh göyərçini yüz çeşid yemək olur, çərəz olur.
Mənim ruhum əlindəki qəhvətək tüstüləyərkən
Sən səliqəli-səliqəli gülümsəyirsən...
Sənin cümhuriyyətində mənim dərdlərim gülməli görünür,
Bilirəm, sənə çox insan ölməli görünür.
Ruhum boyutlar arasında başıboş dolaşdıqca
Qəhərimdən təəssüf yağır,
Eşidirəm Afətin nalələrini, sənin ovuclarında
Hermesin qoxusu,
Mənim ruhumda mürəkkəb ləkələri...
Sən Elon Muskvari baxarkən dünyaya
mən təkrar-təkrar Cavid oxuyuram.
Sənin gözlərinə endikcə ağır pərdələr, ruhunu bürüdükcə qlobal sis
101 il sonra yenidən qəhqəhələrlə gülür iblis!

Nizami Gəncəvi
VƏ ÇAĞDAŞ ƏDƏBİ GƏNCLİK

Nizami haqqında danışacağıq bu gün. Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2021-ci il "Nizami Gəncəvi ili" elan edilib. Və biz bir yandan pandemiyanın, bir yandan istilərin, dünyanı bürüyən "yeni dalğa" xofunun fonunda Nizaminin "gözəl həyat" və "mükəmməl insanlıq" axtarışlarının xəritəsinin iziylə getməkdə, xeyirin qələbəsinə olan inamımıza sarılmaqda haqlıyıq. Necə ki, ötən il 44 gün davam edən "Vətən müharibəsi"ndə haqlı tərəf biz idik və haqq zəfər çaldı, yəni, Nizaminin təbirincə, şərlə üz-üzə dayanan xeyir aydın sabah üçün mübarizədə qalib oldu. Həmin sabah üçün bundan gözəl inam, ümid ola bilərdimi?! Əlbəttə ki, yox! Zəfər ilinin ardınca Nizami ilinə qədəm qoyduq... Bütün həyati problemlərin insanın mənəvi yüksəlişindəki əngəllərə nisbətən "bir içim su" kimi göründüyünü anlatmağa çalışan Nizaminin oğluna elədiyi nəsihətlə böyüyən oğullar idi Şuşada bayrağımızı ucaldan...Vətən torpağının azadlığı uğrunda canından keçən... Və mən əminəm ki, bu oğullara da dastanlar, poemalar, hekayələr, romanlar həsr olunacaq, gələcək nəsillər onların da hünərini, yenilməzliyini ədəbi nümunələrdən oxuyacaqlar. Bu əminliklə yarı elədik "Nizami ili"ni. Nizami bütün dövrlərin şairidir, bunu müzakirə etməyəcəyik. Maraqlıdır, elə bu 2021-ci ilin arxada qoyduğumuz yeddi ayında müasir ədəbi gənclik Nizami irsinə yetərincə bələd olduğunu göstərə bildimi? Bəs sadiqliyini necə? Hansı məqalələr, esselər yazıldı, hansı ədəbi nümunələr dərc edildi?

Şahanə Müşfiq (AYB-nin üzvü, Prezident təqaüdçüsü, AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun dissertantı, yazıçı, jurnalist):

– Düzünü deyim ki, qələm yoldaşlarımızın bədii yaradıcılığında bu mövzuya hələ ki, rast

gəlməmişəm. Ümumiyyətlə, yazıçı və şairlərimiz özlərinin bədii yaradıcılıqlarında bu cür xüsusi mövzulardan uzaqdırlar və məncə, elə uzaq da olmalıdırlar. İl Nəsiminin, Nizaminin və ya bir başqa dahi şairimizin adına adlanıb deyə, özünü məcbur edib nəsə yazmaq heç də xoşagələn hal olmazdı bədii yaradıcılıqla məşğul olan insan üçün.

Şəfa Vəli: – Bəs kimdən gözləyək?

Şahanə Müşfiq: – Bunu bəstəkarlar, rəssamlar, rejissorlar edə bilər. Məsələn, Nizaminin hansısa şeirinə, poemasından bir parçaya musiqi bəstələyər, kətan üzərində əks etdirər, ya da tamaşa hazırlayar. Şair və ya yazıçı Nizami yaradıcılığını və ya ümumən, bu mövzunu necə əks etdirsin ki öz yaradıcılığında?!

Aytac Sahəd (gənc yazıçı, jurnalist): – Düzünü desəm, son dövrlərdə Nizami Gəncəvi ilə bağlı maraqlı esse, məqalə oxuduğumu xatırlamıram. Ümumiyyətlə, düşünürəm ki, arxada qoyduğumuz bu yeddi ay müddətində Nizami ilini andıran xüsusi nələr isə edildiyinin şahidi olmamışıq. Məsələn, Nəsimi ilində Nəsimi ilə bağlı daha çox tədbirlər keçirilir, müsabiqələr təşkil edilirdi. Məncə, burada Nizami ilinin pandemiya dövrünə təsadüf etməsinin böyük rolu var. Pandemiya dövründə toplaşma sayındakı məhdudiyyətlər, tədbirlərin, ədəbi diskussiyaların azalması ümumi prosesə təsirsiz ötüşmür.

Şahanə Müşfiq: – Razıyam bir məqamla: Nizami ilinin pandemiya dövrünə düşməsi müəyyən durğunluq yaratdı. Amma görülən işləri də qeyd eləmək lazımdır. Sevindirici haldır ki, AMEA N.Gəncəvi adına ədəbiyyat İnstitutunun direktoru, hörmətli akademikimiz İsa Həbibbəyli başda olmaqla, institutun əməkdaşları bu mövzuya xüsusi olaraq diqqət göstərirlər. İnstitut və ölkə daxilində görülən işlər, yazılan məqalələrlə yanaşı, İsa Həbibbəylinin təşəbbüsüylə Türkiyənin "Kardeş kalemler" dərgisinin may ayındakı xüsusi buraxılışı bütünlüklə "Nizami Gəncəvi ili"nə həsr olundu. Orda bir-birindən dəyərli ədəbiyyatşünaslarımız Nizami Gəncəvi yaradıcılığının, həyatının müxtəlif istiqamətlərini araşdıraraq, sanballı məqalələr təqdim etdilər. Eyni zamanda, müşahidələrimə əsasən deyə bilərəm ki, bu dövrdə dahi şairin həyat və yaradıcılığıyla bağlı bir sıra monoqrafiyalar da hazırlanır, nəşr olunur. Yəqin ki, ilin ikinci yarısında daha çox ədəbi işlərin şahidi olacağıq.

Şəfa Vəli: – Aytac bir oxucu səmimiyyəti, Şahanə isə bir elm adamı kimi həssaslıq göstərdi... Sualımızı Hədəf Nəşrlərinin direktoru, yazıçı, tərcüməçi Səbuhi Şahmursoya da ünvanlayaq, görək, bu yarım ildə onun təəssüratları necə olub. Səbuhi bəy, "Nizami ili"ndə ədəbi gənclikdə nələri müşahidə etdiniz?

Səbuhi Şahmursoy (Hədəf Nəşrlərinin direktoru, yazıçı, tərcüməçi): –Açığı, sırf bu mövzuda gənclərin xüsusi fəallığına hələ rast gəlməmişəm. İlin başlanğıcından ta bu günə kimi Nizami Gəncəvinin adı keçən bir-iki müsahibə və məqalə görmüşəm, onların da mövzuya yarımyapalaq aidiyyəti olub. Bircə Dalğa Xatınoğlunun bir ədəbiyyat saytına verdiyi müsahibənin dolğunluğunu qeyd edə bilərəm. Tanıdığım bir neçə gənc toplaşıb Nizami Gəncəvinin bir qəzəlinə klip çəkmək fikrinə düşmüşdü, o iş də maliyyə çatışmazlığı ucbatından hələ gözləmə rejimindədir. Yəni, bir-iki istisnanı nəzərə almasaq, ədəbiyyat və sənət mühitində bu ilin "Nizami ili" olduğunu demək olmaz. Biz isə "Hədəf Nəşrləri" olaraq bu

ilin şərəfinə üç layihə işlədik. Bunlardan biri "Sözlü boyama" silsiləsinə aid etdiyimiz "Nizaminin qadın qəhrəmanları" adlı uşaqlar üçün boyama kitabıdır. Rəssam Aynur Sultanlının rəsm işləri əsasında hazırlanan bu kitab həm öyrədici, həm də tanıdıcı xarakterdədir. İkinci layihə "Xəmsə"nin sadələşdirilmiş nəsr versiyasında hazırladığımız kitabdır. Kitab üzərində böyük bir komanda işləyib, nəfis tərtibatla da nəşr olunub. Düşünürük ki, yeniyetmə və gənclər üçün Nizamini tanıtmaq baxımından bundan gözəl hədiyyə az tapılar. N.Gəncəviyə həsr etdiyimiz üçüncü kitab layihəsi M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" əsəridir. Kitab tanınmış ədəbiyyatçı Əvəz Qurbanlının elmi redaktəsi ilə nəşrə hazırlanıb. Ümid edirik, bu kitab da oxucular tərəfindən layiqli qarşılanacaq.

Şəfa Vəli: – "Nizami ili" başlayandan şəxsən mənim gözüm Fərid Hüseynin qələmindədir, doğrusu, simvolika kimi "qələm" sözünü işlətməsəm, klaviaturasında, paylaşımlarındadır. Bilirəm ki, o, boş durmur: yazır, yaradır, axtarır, axtarıb tapdıqlarını da həm ədəbi mühitin gəncliyiylə, həm də oxucularıyla fədakarlıqla bölüşür. Fərid, Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının sədri kimi necə düşünürsünüz: bu ilin arxada qoyduğumuz yeddi ayı ərzində ədəbi gənclik dahi ədibin bədii irsinə yetərincə bələd olduğunu sübut edə bilibmi?

Fərid Hüseyn (Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının sədri, şair): – Nə xoş ki, Cənab Prezidentin sərəncamları ilə 2019-cu il "İmadəddin Nəsimi ili", 2021-ci il isə "Nizami Gəncəvi ili" élan edildi. Bu illər həm də Ədəbiyyat ili deməkdir. Gələk sizin sualınıza, düzü, başqalarının işinə, fəaliyyətinə qiymət vermək istəmirəm. Kim nə bacarıbsa, onu da edib. Azərbaycan ədəbiyyatının, mənəviyyatının xeyrinə ləyaqətlə xidmət edən hər kəsə minnətdaram. Heç kəs öz xislətini sirrə çevirə bilməz. Görülən işlər o işə qol qoyanların xislətinin ifadəçisidir. Kim Nizami Gəncəvi yaradıcılığına hansı niyyətlə yanaşırsa, onunla bağlı o mahiyyətdə də işlər görür. "Qurani-Kərim"də deyildiyi kimi: "Hər kəs öz əməlinin girovudur". Bəs mən hansı işləri gördüm? "Nizami Gəncəvinin əsərlərindəki qadın surətləri", "Nizami Gəncəvinin əsərlərinin el variantları", "Uşaqların Nizami Gəncəvi dünyası" və "Nizami söhbətləri" adlı kitabları çapa hazırlamışam. Əlavə iki kitab isə reallaşma ərəfəsindədir. Məndən bu qədər.

Şəfa Vəli: – Bəli, düşününcə "Azərbaycan ədəbiyyatının, mənəviyyatının xeyrinə layaqətlə xidmət edən hər kəsə minnətdar" olmağa bir az da borcluyuq. Biz hamımız müasir ədəbi mühitin içindəyik. Bir növ, eyni kitabın vərəqləriyik. Bəs fikrən bu kitabın içindəkilər yox, oxucusu olduğumuzu düşünsək, müasir ədəbi gəncliyin yaradıcılığında Nizaminin izlərini görə bilərikmi? Ümumiyyətlə, bu izləri axtarmağa dəyərmi?

Aytac Sahəd: – Düşünürəm ki, heç kimin yaradıcılığında iz, cığır axtarmağa lüzum yoxdur. Hər kəs öz yolunu özü yaratmalıdır. Ona görə də mən heç kimin yaradıcılığında hansısa bənzətmələr gəzmirəm. Kiminsə yaradıcılığından bəhrələnməyin ən yaxşı forması həmin yaradıcı adamdan ilk növbədə oxucu kimi faydalanmaq, daha sonra ondan oxucu kimi götürdüyünü ümumi dünyagörüşünün fonunda yazıya köçürməkdir. Kiminsə yaradıcılığının izi ilə getmək əvvəl-axır imitasiyaya gətirib çıxarır.

Şahanə Müşfiq: – Mən də hardasa nəsə axtarmağa ehtiyac görmürəm. Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, biz gözümüzü, belə demək olarsa, onun əsərləriylə, qəzəlləriylə açmışıq. Orta məktəbdə tədris olunan ədəbiyyatımızın başlanğıc nöqtələrindən biridir Nizami. Təbii ki, hansımızsa az, hansımızsa çox dərəcədə bu yaradıcılıqdan bəhrələnmişik şüurlu və ya şüursuz şəkildə. Əgər xırdalamağa, tək-tək analiz etməyə başlasaq, şübhəsiz, o izlərdən nələrsə tapacağıq. Amma məncə, axtarmağa dəyməz. Çünki Nizami dövründən nə az, nə çox, düz doqquz əsr keçib. Hisslərdən başqa, demək olar ki, heç nə eyni deyil. Heç axı bizim çoxumuz Nizamini orijinaldan da oxumuruq. Ona görə də tapacağımız o izlərin nə qədərinin Nizamiyə aid olacağı da başqa bir müzakirə mövzusu açacaq.

Şəfa Vəli: – Fərid, siz necə düşünürsünüz: müasir ədəbi gəncliyin əsərlərində Nizami Gəncəvi yaradıcılığının izləri varmı?

Fərid Hüseyn: – Məncə, ümumi mənada Nizami Gəncəvinin yaradıcılığının çağdaş ədəbi əsərlərə təsiri zəifdir. Xüsusən, poeziyada. Nəsrdə isə Fəxri Uğurlunun hekayələrində, Şərif Ağayarın "Kərpickəsən kişin dastanı" povestində və

başqalarının yaradıcılığında o izlərə bu və ya digər şəkildə yaradıcı münasibət var. Mən "Səmərqənd divanı" poemamı Xaqani Şirvaninin "Mədain xərabələri"nə baxan gözləri ilə görüb Nizami Gəncəvinin Bəhram obrazının yeddi hekayətini dinləyəndən sonra dünyanın aqibətini anlayan təfəkkürü ilə modernləşdirərək qələmə almışam.

Səlim Babullaoğlunun "9-cu hissə" poeması, əslində, İsgəndərin dirilik suyundan sonrakı dövrünün başqa planda təcəssümüdür. İsgəndər bütün ordusu ilə birgə təkdir. İnsan da bütün əhatəsi, yaşantıları ilə. O əsərdə sanki İsgəndər Bakı küçələrindədir, tənhadır və artıq yalnız öz dövrünə deyil, bütün bəşəriyyətin mənəvi durumuna şahiddir.

Musa Yaqubun "İlahi, mən bu daşı götürüm, götürməyim" misrası da İsgəndərin əsgərlərinin götürdüyü peşmanlıq daşlarıdır. Nizami Gəncəvi yaradıcılığına bizim yaradıcı bağlılığımızdan çox, mənəvi baxımdan ehtiyacımız var. Yəni Nizami ilə üzdən yox, dərin qatda səsləşən əsərlər yaranmalıdır.

Səbuhi Şahmursoy: – Mən də o fikirdəyəm ki, Nizami kimi dühanın ədəbi-bədii ruhunu biz hər dövrdə yaşatmalıyıq. Dünyada Nizami kimi şəxsiyyətlərin maddi-mənəvi vətəni olan az xalq var. Bu "əqli-fəzilət" də bizim kimliyimizə ölçülüb, onu bizdən savayı kim layiqli yaşadacaq ki?! İndi digər sənətlərdə olduğu kimi, ədəbiyyatda da dekonstruksiya dövrüdür. Meydan Nizamini dekonstruksiya etmək cəsarəti olanlarındır. Az da olsa, bu cür gənclərə rast gəlmək olur. Məsələn, bu yaxınlarda gənc ədəbiyyatçı Nizami Hüseynovun "Yeddi gözəl" poemasını dekonstruksiya edərək bir roman yazdığını öyrəndim. Sözügedən əsər hələ redaktə mərhələsindədir. Əgər bu gənc müəllif ideyasının öhdəsindən yaxşı gəlibsə, deməli, hələ yaxşı şeylər olacağına ümid bəsləmək olar.

Şəfa Vəli: – Ümidimiz böyükdür... Əlişir Nəvai "Sirlər xəzinəsi"nə cavab olaraq yazdığı "Heyrətül-əbrar" poemasında Nizamini "Gəncə günəşi" adlandıraraq yazırdı: "Fələklər ona tərəzi gözü, Yer kürəsi çəki daşı olsa, ağıl xəzinədarı yüz qərn çəksə, onun çoxundan bir azını çəkə bilməz". Professor Xəlil Yusifli isə yazır: "Nizami birinci növbədə, əlçatmaz bir sənət adamıdır, şairdir". Bu əlçatmazlığı şairə qazandıran nə idi? Bəzən uzun-uzadı bunu düşünürəm... Məsələn, bir məqam var, məhz bu yöndə fikirləriniz maraqlıdır. Nizaminin əsərləri real tarixi şəxsiyyətlərin təqdimatı baxımından da qiymətli mənbələr sayılır. Real tarixi şəxsiyyətləri, hadisələri nəzmə çəkmək onun müəllif kimi cəsarətindən xəbər verir. Müasir ədəbi mühitin gəncliyi bu cəsarətdən nəyi miras alıb?

Səbuhi Şahmursoy: – N.Gəncəvi bir çox mövzularda etalondur, qeyd edilən məsələ də bura aiddir. Tarixi həqiqətlərin əksini tapması baxımından nəzm hər dövrdə aktual üsul olub. Hətta nəsrin Azərbaycanda geniş yayılmağa başladığı XX-XXI əsrdə də nəzm bu prioritetini əldən verməyib. Elə indi də bu cəsarət nəsrdən çox, nəzmdə duyulur.

Şahanə Müşfiq: – Müasir ədəbi gəncliyimizin özündə çox böyük boşluqlar və problemlər var. Daha doğrusu, burda ədəbi sözünü silib, elə müasir gəncliyimiz də deyə bilərik. Çox təəssüf ki, gənclik "cəsarət" anlayışını başqa xoş olmayan bir sıra anlayışlarla qarışdırıb. Müasir ədəbi mühitin gəncliyi real şəxsləri, hadisələri tənqid etmək və ya el dilində desək, "dilinə dolamaq"da pərgardır. Amma bu sizin sual verdiyiniz tərzdə, o cəsarətdə deyil. Fikrimcə, bu yöndə Nizamidən heç nə əxz etməmişik.

Şəfa Vəli: – Yəni bu gün olduğumuz bir cəmiyyətdə sabah gələnlər üçün mükəmməl ədəbi cəsarət nümunəsi göstərə bilməyəcəyik? Qəribə bir təəssüf bürüdü ruhumu...

Aytac Sahəd: – Təsəlli cümlələri söyləyə bilərəm... Bu, cəsarətdən daha çox savadın diktəsi ilə olan bir şeydir. Cəsarət o vaxt olur ki, sən haqqında danışdığın real şəxsiyyətlə eyni dövrdə yaşayırsan, yaxud sən qələminin mürəkkəbi ilə ona daş atsan, sənə daş atan olmayacaq. Ancaq özündən beş-altı əsr öncə yaşamış bir tarixi şəxsiyyətdən yazmağı cəsarət hesab etmirəm. Məhz Nizami yaradıcılığında bu məqama gəldikdə isə onu deyə bilərəm ki, Nizami real şəxsiyyətləri ədəbiyyata gətirəndə həmin qəhrəmanlarla bağlı məsələlərin yüksək səviyyədə bədii həllini verə bilirdi. Nizami müxtəlif dövrlərdə yaşamış iki şəxsiyyəti: Nüşabə və Makedoniyalı İsgəndəri görüşdürəndə belə bu, bir çox oxucuya təxəyyül məhsulu kimi görünmür. Çünki Nizami bu iki şəxsiyyəti qarşılaşdırmaqla önəmli mesajlar verir. Az öncə qeyd etdiyim kimi, real tarixi şəxsiyyətləri ədəbiyyata qonaq çağırmaq asan məsələ deyil.

Gərək qələm adamı yazdığı real şəxsiyyət haqqında hərtərəfli biliyə malik olsun. Tarixin vurduğu damğalar, təbliğat maşınlarının formalaşdırdığı fiqur onları aldatmasın. Ona görə də düşünürəm ki, bugünkü gənc nəslin onlar haqqında nabələd şəkildə yazmağındansa, yazmamağı daha yaxşıdır.

Fərid Hüseyn: – Məsələyə başqa yöndən də yanaşa bilərik. Məsələn, N.Gəncəvinin əsərlərində sizin dediyiniz məqamları cəsarətə yox, mənəvi kamilliyə bağlaya bilərik, alt qata enə bilərik. Kiminsə adını çəkib cəsarətli görünmək adi insanlara xas əlamətdir. Nizami yaradıcılığında əlamətlər yox, mahiyyətlər axtarmağın vaxtıdır. Müasirlərdən heç kimi onunla ümumi şəkildə müqayisə etmək olmaz. O, şeyx idi, onun alın yazısı doğulub ölməklə tamamlanmırdı, onun nəfəsi canında yox, ruhunda idi.

Şəfa Vəli: – Dediyiniz o kamilliyi, kamil insanı Nizami bir şair kimi bütün yaradıcılığı boyu axtarıb... Bəs indi müasir gənc şair, gənc yazıçı da bu axtarışı davam etdirirmi? Hansı obrazı, hansı əsəri misal çəkə bilərik? Yoxsa XXI əsr dəyərləri elə deyildiyi kimi –"qüsurlarıyla sev" fəlsəfəsində azdırır bizi? Və bunu düşünəndə, sizcə, Nizami kamil insan arzusunun fonunda kamil olmayan insanı sevərək təqdim edirdi, yoxsa mərhəmət hissiylə?

Səbuhi Şahmursoy: – Bu mövzu mənim üçün hələ həll olunmayıb. Müasir yazıçının ədəbi-bədii dərdi arasında kamil insan obrazının mərkəz nöqtədə dayandığına inanmıram. Əksinə, bunun izlərinə müasir ədəbiyyatımızda çox az rast gəlinir. "Müasir etalon" olaraq İsa Muğannanı götürə bilərik, hərçənd, bu, tamamilə mübahisəli mövzudur, çünki Muğannanın kamil insanı bizə hədsiz nisbi görünən dəyərlər üzərində qurulub. Ümumiyyətlə, "kamil insan" fenomeninin fəlsəfi ölçüsü nisbilik bəlasından qurtula bilmir. Biz Nizaminin kamil insanını tamamilə dərk etsəydik, müasir dövrdə sosioloji mənzərə çox fərqli görünərdi. Mənə elə gəlir, çağdaş insanın kamillik kriteriyalarından da məhrumuq. Nizami hər şeydən qabaq ideoloqdur – bir xalqın, bir etnosun, bir mədəniyyətin ideoloji konturlarını dəyərə çevirən ideoloq. Yəni bir mənada o düha özünü belə aşır: iki bayquşun və ya kərpickəsənlə cavanın söhbətində qapalı anlayış fonunda bəşəri dəyərlər yaradır. Nizaminin kamil insanı dünyada hər kəsin anlayacağı dildə danışır. İndi müasir ədəbi mühitə baxıb özünüz qərar verin: bizə Nizaminin kamil insanından nə qalıb?

Aytac Sahəd: - Kamil insanı adiləşdirmək insanın fitrətinə xəyanətidir. İnsanın ruhunda xeyir qədər şər var, bəşəriyyətin mayasında şər var. Addımbaşı gördüyümüz, küçədə, işdə rastlaşdığımız hər insan kamil insan ola bilməz. Kamillik bir mərhələdir. O mərhələdə olan adama, elə həyatdakı kimi, ədəbiyyatda da az-az rast gəlinir. Bu günün insanı insana məhrəm deyil. Bu naməhrəmlik insanı insana olduğu kimi-yaxşı və pis, sizin təbirinizcə desək, qüsurları ilə tanıdır. Buna görə də düşünürəm ki, bu günün şairləri yaxşı edib kamil insan obrazından qaçırlar. Kamillik dövrümün insanına ögeydir artıq. Nizaminin dövrü üçün bu obraz belə olmalı idi. Nizami başqa cür yaza da bilməzdi. Biz Nizamini də elə buna görə sevirik.

Şahanə Müşfiq: – Nizami kamil olmayan insanı dəyişə bilmək ümidi və inamıyla təqdim edirdi. Nizamidə, ümumən, bütün insanlara sevgi vardı. O, sevginin gücüylə hər bir insanın dəyişə biləcəyinə inanırdı. Bunu yaradıcılığının sonlarına doğru Xosrovun timsalında daha yaxşı əks etdirə bildi. İndi isə dövr o dövr deyil. İndi içi özüm qarışıq, heç kimə kamil insan obrazı lazım deyil. Çünki insanlar "ideal insan yoxdur" fəlsəfəsini daha rahat qəbul edirlər. Nizami kamil insan axtarsa da, yaratmaq istəsə də, insanları, dediyiniz kimi, "qüsurlarıyla sevirdi". İndi insanları qüsurlarıyla sevmirlər, sadəcə, qüsurlarına ya göz yumur, ya da elə sərtcə, nifrət dolu tənqid edirlər ki, o qüsur düzəlmək əvəzinə, qarşı tərəfdə yaranan kin vasitəsiylə başqa qüsurlar ortaya çıxır. Nə həyatımızda, nə də ədəbi nümunələrimizdə kamil insan obrazı var, ola da bilməz.

Fərid Hüseyn: – Gəlin birinci sualı belə qoyaq: Kamil insan kimdir? Kamil insan günahsız Adəm və Həvvaddır. Kamil insan "ağıllı insan" demək deyil, çünki ağıldan şər də törəyə bilir. Nizami kamil insana can atır, yəni özündən əvvəlkinə, pak olana – Allahın öz nəfəsini üfürdüyü bəndəyə. Biz isə robotlaşma dövrünə sürətlə keçid etməkdəyik. Ona görə zaman gələcək ki, biz sadə, adi, təbii insana can atacağıq. Bu isə bizim ilkinlikdən, cənnətdən nə qədər uzaq düşdüyümüzün göstəricisidir.

Şəfa Vəli: – Nizaminin bizə nisbətən ilkinliyə yaxınlığıdır, bəlkə də, onu oxuyanların, araşdıranların, haqqında yazanlarının hamısının "Nizaminin bir beytini belə ondan qeyri kimsə deyəmməzdi!" – əminliyi... Heyrətamizdir ki, bu əminlik, Nizaminin özündə də olub. O, "Yeddi gözəl"də deyir: "Bir misrası dürdür, bir misrası zər, Mənayla doludur bütün beytlər". Bu, bir Azərbaycan şairinin özgüvəni, yazdıqlarına olan inamıdır. Nizami ucalığıyla qürurlanan bir xalqın nümayəndəsi, hətta bu ucalığın işığından payını almış bir yazı adamı kimi, "mətnə güvənmək" anlayışını necə izah edərdiniz?

Aytac Sahəd: – Bu həyatda hamı nədən bəxti gətiribsə, onunla öyünür. Varlı olan varı ilə, gözəlliyi olan gözəlliyi ilə, savadı olan savadı ilə. Ona görə də gözəl mətni olanın mətni ilə öyünməsi mənə çox normal gəlir. Niyə də öyünməsin? Məgər yaxşı mətn yazmaq az işdirmi? Təki bu gün yaxşı mətnlər yazılsın, biz onları yazanın təkəbbürünə dözərik. Təki ədəbiyyat qazansın...

Səbuhi Şahmursoy: – Ədəbiyyat anlayışım formalaşandan bu əminliyim var ki, müəllif öz yaratdığına inanmırsa, onda öz əsərinə heç kimi inandıra bilməz. İstənilən müəllif yaratdığına cavabdeh olmalıdır. Bu məsələ dünya sənət tarixində çoxdan həll olunub. Hələ modernizmin ilk dövrlərində analoji suallar çox çevrələrdə səslənirdi: "Bəs müəllif özü bu həngaməyə bir anlam verə bilərmi?", "Əsərlə şəxsiyyət arasında nə qədər məsafə var?", "Oxucu şəxsiyyətə inanmalıdır, yoxsa əsərə?", "İndividuallığın sərhədi hara kimidir?", "Həyata alternativ ideyalarda doğruluq payı nə qədərdir?" və s. Şübhəsiz, yüz il qabaq Qərbin verdiyi bu cür sualları müasir yerli ədəbi mühitə baxanda kimə ünvanlayacağını da bilmirsən. Hərə öz qınında xoşbəxtdir. Ədəbi mühit aktiv olarsa, əsərlərin dəyərləndirilməsində lokal intellektual kriteriyalar yaranarsa, bu problematikaları yüz il sonra da olsa, qabardar və yerimizdən tərpənməyə çalışarıq. Elə mühitə pazl-pazl baxsaq da, öz əsərinin intellektual çəkisinə, poetik fəzilətinə inanan müəlliflərə nadirən rast gəlirəm. Sanki əksər müəllif "Oxu, gör necədir?" prinsipi ilə yazır. Məşhur fransız post-strukturalist Rolan Bart deyirdi ki, əsərin doğuluşu müəllifin ölümü ilə başlayır. Məncə, ədəbiyyat tarixində yalnız müəllifinin inandığı əsərlər yaşayır.

Şəfa Vəli: – Yəni Nizaminin bu beytini bir Azərbaycan şairinin özgüvəni, yazdıqlarına olan inamı saymamaq şansına da sahibik? O zaman Nizami niyə belə deyirdi?

Fərid Hüseyn: – Belə məqamlar orta əsrin fəxriyyələrində çoxdur. Çünki o dövrdə ədəbi tənqidçilər, mətnlərə resenziyalar yazanlar indiki qədər çox deyildi. Şair gərək öz yaradıcılıq cövhərindən özü xəbərdar olaydı. İndi əksər şairdən onun şeirinin özəlliyi barədə fikir soruşsanız, cavab verə bilməyəcək, çünki əksəriyyət qiyməti başqalarından umur deyə, öz yaradıcı kimliyini tanımır. Çox şairlər özünü başqası vasitəsi ilə tanımağa üstünlük verir. Məcnun adi sevgini Leyli vasitəsi ilə tanıdı, Allaha olan eşqi isə ürəyindəki sevgi – yəni özü vasitəsi ilə. Şairin həqiqi kimlik bələdçisi özü olmalıdır.

Şahanə Müşfiq: – Məncə də, mətnə deyil, insan öz hisslərinə və səmimiliyinə güvənməlidir. Mən nə qədər yazdığımam, ya da yazdığım nə qədər məndir? Bu suala dürüst cavab verə, ya da özünə etiraf edə bildiyin yerdə özünə də, mətninə də güvənəcəksən. Mətn yazıçıdan kənarda deyil, onun içindədir. O içə güvənməlidir öncə yazıçı...

Şəfa Vəli: – Bir sözlə, Nizamini olduğu ucalıqda sevirik, o ucalığa uzatdığımız əllərimiz boş qayıtsa da, o ucalığa həmişə aşağıdan yuxarı baxmağa məhkum olsaq da, başımızın üstündəki bu şeir ucalığı xoşbəxtliyimizdir. Bu xoşbəxtliyə olan sevgimiz əbədidir...Nizamini olduğu kimi anlamasaq da, olduğu kimi sevməyi bacarırıq ha, bu belə gözəldir. Müzakirəmiz bu gözəlliyə olan inamımı bir az da artırdı. Çox sağ olun "Ulduz"un dəvətini qəbul edib müzakirəyə qatıldığınız, fikirlərinizi "Ulduz" oxucuları ilə bölüşdüyünüz üçün.

Müzakirəni apardı:
Şəfa VƏLİ
(AYB Gənclər Şurasının üzvü, Prezident təqaüdçüsü, yazıçı)

Xalid MAHMUD

ALLAHA MƏKTUB

Müharibədə əllərini itirmiş
əsgərin arzuları

Payızın tənhalığı, soyuğu var canımda,
Bircə köynək ümid yox geyinəsən, İlahi!
Heç əllərim də yoxdu, çıxıb gedib yanımdan...
Bəlkə, bu ömrümü də soyunasan, İlahi!

Daha şirinliyindən üzmüşəm əllərimi,
Bir əyinlik canım var, al, bu da sənin olsun...
Həyat da ölüm kimi, ölüm də həyat kimi...
Nəyim var bu dünyada, götür, Vətənin olsun.

Arzu-arzu böyüdüm, ümid-ümid ölürəm,
Əllərim də yoxdu ki, üstümə torpaq atam.
Ətəyini uzat, ver,
Sənə sarı gəlirəm,
Qoy beləcə dincəlim, beləcə rahat yatım...

Bir canla heç nə olmaz, "Təki Vətən sağ olsun",
Bir güllələk adamam, tətiyi çək, İlahi!
Məzarımın üstünə gəlməzsə kimsə, olsun,
Sən özün göndər hər gün bircə çiçək, İlahi!

Əllərimi vermişəm bir ovuc torpaq üçün,
Xışlanmış, yağmalanmış köksümdə dən olmağa.
Zəfər küləklərilə əsən bir yarpaq üçün
Durmuşam ayaq üstə bu gün Vətən olmağa...

VƏTƏN

Bir ağac olmaqdı,
yarpaq olmaqdı
bir ağacın budaqlarında...
Bir dəstə çiçək olmaqdı
bir şəhid məzarının üstündə.
Bir şəhid məzarı olmaqdı
Vətən...

Bir körpənin
bələkdən sıyrılan ümid çığırtısı,
bir ananın qucağındakı arzu yolu,
bir şəhid atasının
məğrur baxışlarındakı
oğul həsrətidir,
bir atanın başını ucaldan
oğul olmaqdı
Vətən...

Bir yetim uşağın gözlərində
bir çimdik təbəssüm ola bilməkdi,
bir ixtiyar qocanın
ümidsiz gözlərində
ümid ola bilməkdi,
bir isti qucaq olmaqdı
Vətən...

Bir yol olmaqdı,
yolçu olmaqdı,
dara düşəndə əyninə kəfən geyinib
addımlaya bilməkdi ölümün üstünə...
Təkcə uğrunda ölmək deyil,
ölümü öldürə bilməkdi
Vətən...

GEDƏK

Dünya çox böyük olsa da,
Mənə bir bucaqdı, tindi...
Sonunda ölüm, ayrılıq –
Belə yaşamaq çətindi...

Ümid bir köhlən at kimi,
Əl uzatma ətəyinə...
Kimsə tab gətirməz, sanma,
Dünyanın qəm kötəyinə...

Bir ayrılıq havası çal,
Son dəfə qol açıb gedək...
Bir baxışdan düşək yola,
Bir ürəkdən uçub gedək...

KİÇİKLƏRİN MARŞI

Bizim nə işimiz "böyüklər"iynən,
Biz ki bapbalaca kətdən çıxmışıq.

Hələ daş atmışıq gölməçələrə,
Hələ oynamışıq qurbağalarnan...
Bütün arzuları yığıb bir yerə
Ev də ucaltmışıq çay daşlarınnan...

Bax, sənə deyirəm,
Heç kim bilməsin,
Şəhərə gələnnən böyümüşük də,
Böyüyüb-böyüyüb öyünmüşük də,
Ürəklər döymüşük,
döyünmüşük də.
Lap elə bir az da xətdən çıxmışıq...
Biz ki bapbalaca kətdən çıxmışıq...

Bizim nə işimiz "böyüklər"iynən…

AĞRI ÜÇÜN ELEGİYA

Bütün ağrılar eyni olur, –
güllə yerinin ağrısı,
söz yerinin ağrısı,
ən doğma adamını itirəndə
əlini sıxıb ayrılan ölümün ağrısı...
Bir də var ümidsizlik ağrısı,
yəni inandığın şeylərin
ölümünü seyr etmək...

İndi ürəyim vətənin bağrı kimidi...
Hardan başlayıb
harda bitirmək də sənin əlində deyil
əlin çatmayan şeyləri...
Və hərəsi bir ağrı kimidi –
deyə bildiklərin də,
bilmədiklərin də...

Susmaq da ən yaxşı vasitə deyil daha...
Bir az da
zəmanə uşağı olmaq lazımdı
zamanın nəbzini tutmaq üçün...

Bir söz də deyim, –
pis başa düşməyin, mən ölüm...
İt ilində doğulmuşam,
it günündə yaşayıram yavaş-yavaş
bu qarma-qarışıq ömrün içində...
Gəl sən də uzat əllərini,
birlikdə ağrıyaq bu gecəni də...

ÖMÜR MƏSAFƏSİ

...Quduz it kimi sürünəcək arxanca
vaxtın kölgəsi,
hürəcək üstünə ümidlərin də...
Yollar dağılacaq addımlarına,
sonra tər damcılanacaq ümidlərindən...

Kirpiklərini çırpacaq bir-birinə arzuların,
palçığa batacaq sükutun ayaqları.
Və sən ən yaxın məsafəndə
hesablaya bilməyəcəksən ayrılıqları...

Əcəl də gələndə xəbərsiz gəlir...
Üşüdər adamı, soyuq olar nəfəsi...
Dörd divar kimi sıxacaq səni içindəki çırpıntılar,
yırtmaq istəyəcəksən bu dar qəfəsi...

Dizləri yırtılmış şalvar kimidi dünya,
geyinəcəksən,
üşüyəcəksən...
Ömür də belədi, əslində,
nə uzağı var, nə yaxını...
Və sən
heç kimə danışa bilməyəcəksən bu yuxunu...

YAĞIŞDAN SONRA...

İndi bütün dünyanı
yuyur qara buludlar...
Sən də yorğun dolaşan ruh kimisən...
Addımlarınla sürüyür
arxanca düşən zamanı ayaqların...

Vaxt dilənçi ovcuna bənzəyir,
hər gün bir ümid atırsan içinə.
Sonra da bu boyda dünyada
yer tapa bilmirsən
bir məzarın başında oturub
hönkürə bilmək üçün...
Vaxtın olmur, əslində,
dönüb arxaya baxmağa...

İndi bütün dünyanı
yuyur qara buludlar,
Sən də axıb gedirsən
buludların içində...

Bir də məzar yeri kimi qaralır
torpağın üstündə arzuların
yağışdan sonra...

BAŞ AÇMADI...

Dodaqdı, dildi, sirr deyil,
Adamdı, hamı bir deyil...
Bir qara daşdı, pir deyil,
Özünə bel bağlama heç...

Bu dünyanın işi çoxdu,
Yaxşı-pis vərdişi çoxdu...
İnanma ki, kişi çoxdu,
Düzünə bel bağlama heç...

Bəxtim bir su çıxmaz quyu,
Nə səsi var, nə də duyur...
Əriyib, tökülüb suyu,
Üzünə bel bağlama heç...

Ha əyil-qalx, axtar savab,
Bu suala yoxdur cavab...
Dünya bir içi dolu qab,
Duzuna bel bağlama heç...

Baş açmadı başı əyri,
Qələm çəkib naşı əyri...
Tərəzinin daşı əyri,
Gözünə bel bağlama heç...

ALLAHA MƏKTUB YAZDIM…

Redaksiyamız Yazıçılar Birliyinin dördüncü mərtəbəsində yerləşir… Şair, tərcüməçi, esseist Səlim Babullaoğlunun yeni iş otağı isə ikinci mərtəbədə. Bu üzdən elə də uzağa getmək lazım gəlmirdi müsahibə üçün. Fəqət söhbətimizin çox uzaq yaxınlara gedib çıxacağına adım kimi əmin idim. Cəmi iki mərtəbə aşağı düşməliydim, şeirə və şairə xatir, dərin mətləblərə varıb sözün şanını ucaltmaq üçün. Ütülü deyildi, səliqəli və ölçülü idi suallarım. Şübhəm yox idi, müsahibimin zəkası mənim suallarımın üzərində mübhəm və aşkar bir söhbət quracaqdı. Müsahibəyə qədərki girişi daha geniş nəzərdə tutmuşdum ilk başda. Fəqət söhbətimizin məcrası o qədər geniş və əhatəli oldu ki, buna bir o qədər də ehtiyac duymadım. Həm də, məncə, iki söz adamının söhbətindən yaranan batini auranın köksünün ortasında zərrə qədər də olsa, həqiqət qığılcımı işıldayırsa, o söhbət alınmış, düşünülmüş, anlaşılmış və sözün yaxşı mənasında, danışılmış hesab edilməlidi. Hər kəlməsindən Tanrının hikməti boy göstərən müsahibimlə sözün həqiqətini, sözün canını arayıb tapmaq elə də çətin olmadı. Bəlkə, buna görəydi ki, bir çox hallarda hisslərini və düşüncələrini ustalıqla gizlədən Səlim Babullaoğlunun ürəyindəki insani mərhəməti kəşf etmək həqiqəti tapmaq qədər asan oldu mənimçün.

O, bütün şairlər kimidir, bütün şairlərdən fərqlidi. Ruhu şeirin və ədəbiyyatın məsud əsirinə çevrilsə də, həyatını özü müəyyənləşdirdiyi sərt qanunların diktəsində yaşamaqdadı. Bu qanunları arabir pozmağa bir tək mərhəmətli şair ürəyinin səlahiyyəti çatır. Və mənə elə gəlir ki, o bu qanunları Tanrı bəxş edən mərhəmətli şair ürəyiylə insani şəkildə pozanda yazır öz şeirlərini. Az duymur, az yaşamır, az düşünmür, fəqət az yazır. Əslində, çoxluğun içində, çoxların içində az yazmaq da insanlıqdı. Şair gərək insan kimi qalmağı bacarsın. İndi dünyamız o qədər qarışıb ki, bir tək şairdən təkidlə insan olaraq qalmaq tələb edə bilər vicdan adlı ilahi ədalət kürsüsü…

– **Səlim müəllim, öncə sizi Azərbaycan Yazıçılar Birliyinə katib təyin edilməyinizdən dolayı təbrik edirəm. Yanılmıramsa, yeni iş**

otağınızda ilk müsahibə almaq şansını biz qazanmışıq. Elə ilk sualımı da məslək, görəv üzərində qurmaq istəyirəm. Belə bir fikir var ki, vəzifə sahibi olmaq, hər hansı bir işə görəvlənmək şairin, yazıçının yazıb-yaratmaq üçün zaman və enerjisini oğurlayır. Heç təsadüfi deyil ki, həyatınız boyu işlər, layihələr və görəvlərlə daim yüklənmisiniz. Maraqlıdır, sadaladığım işlər, layihələr, görəvlər yazı masanızdan nələri oğurlayıb? Və ya əksinə, nələri qazandırıb?

– Əziz Taleh, əvvəla, müsahibə təşəbbüsünə görə Qulu Ağsəsə, sizə və ümumilikdə "Ulduz" jurnalının kollektivinə təşəkkür edirəm. Qaldı sadaladığınız şeylərin yazı masamdan nəyi alıb, nəyi qazandırdığına, bilirisinizmi, burda nadir bir məqam var, keçmişə baxıb baş vermiş hadisələri saf-çürük edəndə demək olmaz ki, nəyisə alıb, nəyisə verib. Bu mənada deyə bilərəm ki, nə olmalıydısa, o da baş verdi. Mən nə yazmalıydımsa, onları yazmışam. Yaxud nə yaza bilərdimsə, onları yazmışam. Başqa bir şey deyim, insanlar hardasa işləməlidirlər. Ədəbiyyat adamı olsalar da, olmasalar da. Məsələn, səhv eləmirəmsə,Vilyams Karlos Vilyams həkim olub, Fazil Hüsnü Dağlarca aptek işlədib, Brodski ölüxanada həkim işləyib. Yəni bizim gördüyümüz işlər, layihələr mahiyyət etibarı ilə elə həmin işlərdi. Biz yaşamaq üçün çalışırıq. Bu da qanunauyğunluqdu. Məni düz başa düşün, ədəbiyyat, xüsusilə poeziya pul qazandıran sahəyə çevriləndə o artıq başqa xarakter alır. Bu mənada taleyimdən razıyam ki, heç olmasa mənə ədəbi işlə məşğul olmaq həvalə olunub. Ola bilərdi ki, iqtisadçı, hüquqşünas olardım. Bəlkə də, o sahələrdə işləmək mənə daha çox mane ola bilərdi. Bu mənada bir az da özümü bəxti gətirmiş hesab edirəm.

– **Biz sizi şair, esseist, tərcüməçi kimi tanımışıq. Daha çox dünya ədəbiyyatına istiqamətləndiyinizə görə elə suallarımı da dünya ədəbiyyatından örnəklərlə qurmaq istəyirəm. Az öncə rus şairi, esseisti, tərcüməçisi Brodskini xatırlatdınız. Yəqin, bilirsiniz, Brodskiyə 1987-ci ildə Nobel mükafatı təqdim ediləndə ona kimliyi haqqında sual ünvanlanır, o da qısaca belə cavab verir: "Mən yəhudiyəm, rus şairiyəm, ingilis tənqidçisiyəm". Eyni sualı şair, esseist, tərcüməçi Səlim Babullaoğluna ünvanlasaq, hansı cavabı verərdi?**

– Allah bəndəsiyəm, azərbaycanlı türkəm və ən nahayət, yazılanlaram – şair, tərcüməçi və esseistəm... Belə...

– **Yaxşı bir məqama gəldiniz, Allahı xatırladınız... Bilmirəm, bəlkə də, ciddi bir ədəbiyyat adamına, həm də belə bir ədəbiyyat söhbətinin bu məqamında bu sualı vermək yersiz də görünə bilər. Fəqət cavabınız şəxsən mənim üçün maraqlıdı. Balzakın "Qorio ata"sında qəhrəmanının-Qorio atanın dilindən səslənən bir fikir var: "Mən Allahı bütövlükdə ata olandan sonra dərk etdim". Uzun illərdi ibadət edirsiniz. Siz Allahı bütövlükdə nə vaxt dərk etdiniz? Nə zamandan ibadət etmək, Allaha yaxın olmaq ehtiyacı duydunuz?**

– Mən ana babamın evində böyümüşəm. Babam gün ərzində beş dəfə namaz qılırdı. Mənim Allah anlayışım namaz anlayışı ilə bərabər formalaşmağa başladı. Bir az öz yadımdadı, bir az da böyüklərim danışırdı ki, babamın, təxmini eni və uzunu iyirmi santimetr olan bir taxtası var idi. Babam onun üstündə dəstəmaz alardı. Mən onun suyunu doldurub gətirər, ayağına su tökərdim. Və belə deyim, bu işləri görə-görə şüurlanırdım. Və paralel olaraq babamdan neynədiyini soruşurdum. O da deyirdi ki, Allaha ibadət eləyirəm, namaz qılıram. Allah kimdi sualının cavabını da ilk dəfə, bir uşağın anlayacağı şəkildə babamdan almışam. Sonra nənəmi xatırlayıram ki, bismillahsız bir iş görməzdi. Ümumiyyətlə, mən uşaqlıqda Allah haqqında çox düşünmüşəm. Ömür vəfa qılsa, bunları yazacam. Hələ məktəbə getmirdim. Nənəm gilin sərin bir otağı vardı, biz ora böyük otaq deyirdik. O otaqda uzanıb saatlarla Allahı düşünür, onunla necə görüşəcəyimin xəyalını qururdum. Bəzən o otaqda Allahı düşünə-düşünə yuxulayırdım. Yəqin ki, bu təsəvvürlər bütün uşaqlarda olub, mən Allahı nurani, ağsaç, qocaman, hündür, ən hündür insan kimi təsəvvür edirdim.

Babam vəfat edəndə stress keçirdim, iki-üç ay özümə gələ bilmədim. Ölümün nə olduğunu bilmirdim. Babamın harasa getdiyini və tezliklə qayıdacağını deyirdilər mənə. Mən də babamın ayaqqabılarını tez-tez yuyurdum ki, gələndə təmiz geyinsin. Rəhmətlik nənəm danışıb. Bir payız axşamı eşidiblər ki, həyətdə it zingildəyir. Elə belə də yazarsınız bunu. Həyətə çıxanda görüblər ki, it zingildəmir, babamın yaş ayaqqabılarını qucaqlayıb ağlayıram. Elə həmin günlərdə tez-tez bir yuxu görürdüm. Yuxu yarıda qırılır, tər içində oyanırdım. Köməyə adam çağıranda dilim tutulurdu. Dilim açılanda isə gördüyüm yuxunu unudurdum. Məktəbə gedənə qədər iki il ərzində həmin yuxunu gördüm. Sonra məni çıldağa-zada apardılar, necə oldusa, o yuxunu bir daha görmədim. Ona qədər, hardasa 7-8 il babamın qəbrini ziyarət edə bilməmişdim. Nəhayət, 2005-2006-ci illərdə babamın qəbrini ziyarətə getdim. Təsəvvür edə bilirsinizmi, 1979-cu ildə qırılan yuxunun ardını 24-25 il sonra, babamın qəbrini ziyarət edəndən sonra gördüm. Daha doğrusu, yuxunu görəndə anladım ki, bu, həmin yuxunun ardıdır. Və yuxu bu dəfə yadımda tam qaldı. Yuxu isə beləydi: təpədi, təpənin üstündən dəmir yolu xətti keçir. Və uzaqdan yüksək sürətlə qatar gəlir. Dəmir relslərinin birinin üstündə isə qara üzlüklü kitab var. Mənə elə gəlir ki, o kitab Allahdı. Qorxuram ki, qatar Allahı vuracaq. Ha eləyirəm ki, kitabı götürəm, bacarmıram. Qatar keçir, gözümü yumuram. Gözümü açanda kitabı yerində görmürəm. Relslərin üstündə nə kitab vərəqləri, nə də bir nişanə qalır. Əvəzində isə həmin yerdə qara əbalı bir adam peyda olur. Soruşuram ki, sən kimsən? Sən Allahsan? Cavab vermir, gülür və gedir. Qara üzlü kitab hardan dolub ağlıma? Deməli, bizim evdə belə bir kitab olub, bu gün də var, Seyid Nigarinin, biz ona Şıx Əfəndi baba deyirdik, onun 1890-cı illərdə daş-basma üsulu ilə Tiflisdə nəşr edilmiş divanıdı. Nənəm bir hadisə baş verəndə deyirdi ki, öpün bu kitabı, bu kitabda Allah sözü çoxdu. Şıx Əfəndi baba köməyiniz olar... Xəstələnib eləyəndə nənəm o kitabı başımızın altına qoyardı.

Yəni mənim Allahla şüurlanmağım, Allahı dərk etməyim bax belə baş verib. Ümumiyyətlə, ana tərəfdən, həm ana xəttim, həm anamın baba xətti dərin ibadət əhli olublar, hətta sürgün həyatı da yaşayıblar. Anamın bir xətti vəlidi, övliyadı. Bu xətt Seyid Yəhya Çələbi, Seyid Yusif Çələbi, Güləndam Çələbiyə qədər gedib çıxır.

Mən içimdə Allahı həmişə hiss etmişəm. Daha doğrusu, hamının Allahla rabitəsi var, hətta bizim alçaq hesab etdiyimiz adamların belə.

Qaldı ibadət etməyimə, içkini 2002-ci ildən atmışam. Amma buna kimi 1997-ci ildə ailə qursam da, övladım olmurdu. Həkimlərə getməkdən də yorulmuşdum, artıq həkim görəndə acığım gəlirdi. Bir gün dedilər ki, Ramazan ayı gəlir. Onda dövlət teleziyasında işləyirdim. İş yoldaşlarımdan neynəmək lazım olduğunu soruşdum, izah etdilər. Hərçənd ki, bəzi şeyləri bilirdim. Sadəcə, detalları bilmirdim. Və mən birdən-birə içkini, siqareti saxlayıb, 20 gün oruc tutdum. Kəsəsi, 20 gün sonra dedilər ki, əhya gecələri, qədr gecələri gəlir. Qədr gecəsində kiril əlifbasıyla Allaha məktub yazdım. O məktubu indi də saxlayıram. Bir çox şeylərlə yanaşı, o məktubda təxmini bu cümlələr də var idi: "Allahım, yalvarıram, övladım olmayacaqsa, məni həkimlərin qapısında qoyma. Mənə işarə ver ki, övladım olmayacaq. Mən öz xanımımdan boşanan deyiləm. Gedib bir uşaq götürüb böyüdərəm". Həmin qədr gecəsindən bir il sonra övladım dünyaya gəldi. Ümumiyyətlə, o məktubda dilədiyim bütün şeylər, şükür olsun Allaha, hamısı həyata keçdi. Və Allah hər dəfə də nəyisə verəndə başa saldı ki,bax, bunu da verirəm sənə. May ayında xəstələndim, xəstə-xəstə fikirləşdim ki, bəs birdən mən öldüm?.. Bu şeyləri uşaqlar necə edəcəklər? Allah məni ayağa qaldırdı. Və nəhayət, o məktubda istədiyim sonuncu şeylərdən birini bu gün elədim...

– Etiraf edim ki, "Yazı masası"ndakı müsahiblərimlə görüşə daha çox ürəyimin diktəsiylə gedir və suallar ünvanlayıram. Sizinlə görüşə isə, ədəbi ciddiliyinizdən dolayı, ürəyimin diktəsindən çox, ağlımın hökmü və diktəsi ilə gəlmişdim. Amma sizi daha çox ürəyinizlə və ürəklə danışan gördüm. Ümumiyyətlə, dünyaya və insanlara münasibəti nəyin diktəsi ilə qurursunuz, ürəyin, ya ağılın?

– Yevtuşenkonun yaxşı bir sözü var, deyir, bəzən bizim bir insana yazığımız gəlir, amma yazığı gəlmək hissi dərində "Mən Allahdan mərhəmətliyəm" – deməkdi. Mən Allahdan mərhəmətli ola bilmərəm ki... Təbii ki, bizim hisslərimiz, ağlımız və zəkamız var. Bunlar öz yerində. Bir insanın bəzi keyfiyyətlərinə hissinlə, bəzi keyfiyyətlərinə, məcbursan ki, ağlınla reaksiya verəsən. Məsələn, mən təzyiqi sevmirəm. Təzyiq edən adama qarşılıqlı təzyiq edirəm. Bunu, təbii ki, ağlımla edirəm. Deyək ki, kimsə məndən borc istəyir, baxıram ki, həqiqətən, ehtiyacı var. Həmin an ürəyim titrəyir, çalışıram o adama kömək edim. Çox vaxt həmin an ağlım heç nə demir mənə. Amma olur ki, ağlım deyir ki, bu adama borc verəcəksən, qaytarmayacaq. Onda o borcun bir hissəsini verirəm və ürəyimdə o pulu ona bağışlayıram. Düşünürəm ki, qaytarmasa da, olar. Özümdən mələk-filan düzəltmək fikrim yoxdu, mən də insanam. İbrahim peyğəmbər atası üçün dua etmək istədi, Allah icazə vermədi. İnsana atasından yaxın başqa birisi olarmı? Qabil öz qardaşı Habili qətlə yetirdi. Məhəmməd peyğəmbər əmisini lənətlədi. Mən onlardan mərhəmətli ola bilmərəm ki... İnsanlara əbəs yerə vaxt ayırmaq da adamın özünə xəyanətidi. Amma bir tərəfdən Allah-təala buyurur ki, bir insanın könlünü sındırdınsa, mənim evimə daş atdın deməkdir. İnsanların nəfsinə toxunmaq olar, qəlbinə toxunmamaq şərtiylə. Hansısa məramın ardınca gələn adamın məramına toxuna bilərəm, əgər onun məramını qeyri-obyektiv hesab edirəmsə. Amma qəlbinə əsla. Deyirlər, əgər qapınıza kömək üçün gələn adamlara heç nədə kömək edə bilmirsinizsə, qəlbinizdə ona dua edin. And olsun Allaha ki, kömək edə bilmədiyim adamlara qəlbimdə dua eləmişəm.

– Dünya ədəbiyyatını poetik köynəyinizdən keçirmiş adamsınız. Bu, müəyyən məqamlarda tərcümə şəklində, müəyyən məqamlarda ithaflar şəklində özünü büruzə verib. Şeirləriniz dünyanın bir çox dillərinə tərcümə edilib. Bəzi dilləri çox, bəzilərini bir qədər az bilirsiniz, bildiyim qədəriylə. Və işinizdən dolayı dünyanın bütün dillərinin ruhunu duymaqda elə də çətinlik çəkmirsiniz. Bəs sizin doğma dildə yazdığınız şeirlərin ruhu hansı əcnəbi dilin ruhu ilə uyuşur?

– Onu demək çətindi... Əvvəla, onu qeyd edim ki, ən sevdiyim ilk şair Mikayıl Müşfiq olub, Səməd Vurğun olub və bu gün də belədi, Hüseyn Cavid olub. Dünya poeziyasının yüz ən yaxşı şeirini seçsəydim, heç şübhəsiz, tərəddüd etmədən Hüseyn Cavidin "Məktəbli qız" şeirini ora daxil edərdim. Yaxud Səməd Vurğunun "Ceyran" şeiri, zənnimcə, təbiət və romantizm mövzusunda klassik zirvələrdən biridi. Mikayıl Müşfiqin 5-6 şeiri var ki, onları dəhşətə gəlmədən oxumaq mümkün deyil. Dediyim odur ki, mənim ilk müəllimlərim Azərbaycan poeziyasının nümayəndələri olub. Sonrakı dövrdə rus poeziyasını oxumağa başlamışam. Rus poeziyası vasitəsiylə ingilisdilli poeziya ilə tanış oldum. Rus dilində mühit var, danışıram. Ətrafımda ingilisdilli mühit yoxdu deyə, danışmıram, amma ingilisdilli mətnlərin yetmiş faizini oxuyub başa düşürəm. Məsələn, Odeni ingilis şairlərinə oxutdurub, qulaq asıb, sual verib, sonra tərcümə etmişəm. Yaxud polyak dilli ədəbiyyatı anlayaraq, başa düşərək tərcümə etmişəm. Səhv eləmirəmsə, Franklin Ruzveltin sözləridi, deyir, insan oxuduqlarının cəmidi. Mən oxuduğum, sevdiyim bütün əsərlərin cəmiyəm. Mən poeziyanın alliterasiyasını, musiqisini həm də Quranda hiss eləmişəm. Həqiqətən, təsbit olunub ki, Qurandakı ayələrin bir çoxu poetikdi, bir çoxu nəsranidi, bəziləri isə poetik və nəsranidi, qarışıqdı.

Tərcümə etdiyim, hətta tərcümə etmədiyim adamların mənə təsiri olub. Bu da normaldı. Necə ola bilər, mən oxuyum, təsirlənməyim? Amma, əlbəttə, bu təsirlənmə birbaşa deyil, oxuyuram, özümdən keçirirəm. Mən dünya poeziyasını poetexnikaya görə oxuyuram, məzmuna görə Şərq poeziyası kifayət edir mənə. Yəni Nizamidən, Füzulidən böyük məzmun yoxdu dünya ədəbiyyatında. Nə Brodski, nə Eliot bu baxımdan onlara çata bilməz. Amma çağdaşlıq məsələsi var, texnika var, sən bunları öyrənməlisən, öyrənməyə məhkumsan. Necə ki geyimimizdə, texnikada dünya ilə ayaqlaşırıq, eləcə də dil və ünsiyyət konstruksiyalarında, hansı ki bunların ən alisi poeziyadı,

onları bilməyə borcluyuq. Qaldı suala, deyim ki, mən Azərbaycan dilində yazmaqdan çox xoşbəxtəm. Nadir hallarda rus dilində yazıram, amma mən o dildə yazdıqlarıma qeyri-ciddi baxıram. Belə deyək da, bəzən öz mühitimdən küsəndə müvəqqəti olaraq özümü başqa bir dilə köçürdürəm.

– İllər öncə, yanılmıramsa, 2009-cu diqqətimi çəkən "İlyas Göçmənin şəkil dəftəri" adlı bir şeir kitabınız çapdan çıxmışdı. Zamanında əlimə düşmüş, yaxından tanış olmuşdum. Sözügedən fotoqrafın şəkil albomunda yer alan 40 fotoya həsr edilmiş 40 şeirdən ibarət bir toplu... Məzmunu qoyuram bir tərəfə, struktur baxımından da maraqlı bir kitab idi. Belə bir maraq doğuran kitabın müəllifinin fikrincə, şəkli sözə çevirmək asandı, ya sözü şəkilləndirmək?

– Sözü şəklə çevirmək üçün telefonun obyektivini açmaq kifayət edir. Mən Səlim Babullaoğluyam, məni şəkilləndirmək asandı, bunun üçün fotoaparatın foto düyməsini basmaq kifayət edir. O çəkilən şəkil yüksək sənətdimi, deyilmi, ayrı məsələdi. Fotoqrafiya ayrıca bir sənətdi. Adam var ki, onun çəkdiyi foto sənətinin nümunəsidi, adam da var ki, onun çəkdiyi, sadəcə, fotoqrafiyadı. Bu baxımdan deyə bilərəm ki, sözü şəklə çevirmək daha asandı. Qaldı şəkli sözə çevirməyə, bunun dünya ədəbiyyatında bir çox nümunələri var. Hətta şəkillərin nəsr şəklində izahlı nümunələri də var. Amma mən bunlarla özüm yazandan sonra tanış oldum. Orxan Pamuk öz "İstanbul: Xatirələr və şəhər" romanında Ara Gülərin fotolarından istifadə edib. Amma silsilə şeir yazmaq, həm şəkli izah eləmək, həm də şəkildən çıxış eləmək nümunəsini görməmişəm. Nə bilim, konkret deyə bilmərəm ki, belə bir nümunə yoxdu. Bəlkə də, var, mən görməmişəm?

– Bir zamanlar şair Elxan Zal və yazıçı Elçin Hüseynbəyli ilə birlikdə "On" və "Kapellhausda bir axşam" kimi kitablarınız nəşr olunmuşdu. Ədəbiyyatımızda ortaq yazıb-yaratmaq ənənəsi hələ sovetlər dönəmində də var idi. Misal üçün, Həsən Seyidbəyli ilə İmran

Qasımov "Uzaq sahillərdə"ni, Mehdi Hüseynlə Ənvər Məmmədxanlı "Fətəli xan"ı qələmə almışdılar. Hansı ki, sonradan sözügedən əsər və ssenari əsasında eyniadlı filmlər çəkildi. İndi bu kimi ənənələr ya yoxdu, ya da yox dərəcəsindədi. Çağdaş yazarlarımıza bir yazı masası ətrafına yığışmağa mane olan nədir?

– Düşünürəm ki, daha çox ambisiyalardı. İki şairin bir yazı masası ətrafında oturması üçün estetik ruh yaxınlıqlarının olması vacibdir. Elçin Hüseynbəyli nasirdi, üstəlik, ona qədər müəyyən təcrübələri var idi və bu istiqamətdə yararlı idi bizim üçün. Amma Elxan Zalla fərqli şeirlər yazsaq da, estetik ruh yaxınlığımız var. Heç şübhəsiz, indi də bu cür qələm adamları var. Sadəcə, olsun ki, özlərini kimləsə bir yazı masası ətrafında görmürlər.

Misal üçün, Vaqif Səmədoğlu tək müsahibə verməyi sevirdi. Üçüncü bir adamın yanında

olmasını qəbul etmirdi. Mənə də tövsiyə etmişdi ki, Babullaoğlu, müsahibəyə gedəndə tək get, çünki bazarda müsahibə vermək olmaz. Görürsünüzmu, bu da Vaqif Səmədoğlunun möhürüdü. Prinsipcə, haqlıdır. Şair kimdi? O daha çox solo oxuyan təsiri bağışlayır. Xorda oxuyan yox. Amma fərqli formatlarda olsa da, bizdən də əvvəl bu kimi ənənələr olub. Misal üçün, Çingiz Əlioğlu, Nüsrət Kəsəmənli və Sabir Rüstəmxanlı şeir oxularına bir yerdə gedirdilər. Hesab edirəm ki, bu kimi formatlar da normaldı, enerji ötürmək və estetik təmayülü çatdırmaq baxımından maraqlıdı.

– Ötən il tənqidçi Cavanşir Yusiflinin poetik mətnlərinizdən bəhs edən, filoloji qeyd və söhbətlərdən ibarət irihəcmli "Sözdən əşyaya" adlı tədqiqat əsəri nəşr olundu. Müəllif müsahibələrinin birində sizi nəzərdə tutaraq bildirmişdi ki, ədəbiyyatda, xüsusən poeziyada yeniliklər hər zaman təəccüblə və ola bilsin, qısqanclıqla, bir az da qeyri-müəyyən reaksiyalarla qarşılanır. Elə bu fikrə əsaslanaraq bilmək istərdim, təqdir edənlər bəlli, bəs sizi qısqanclıqla qarşılayanlar və tənqid edənlər mövqelərini nə kimi fikirlərlə əsaslandırırlar?

– Əziz Taleh, son illər söz vermişəm ki, özümlə bağlı deyilən sözlərə ya az reaksiya verim, ya da çalışıb heç reaksiya verməyim. Yəqin ki, İmam Əlinin o məşhur əhvalatını bilirsiniz də, qılıncı qaldırır ki, düşmənini vursun, düşmən onun üzünə tüpürür. İmam Əli deyir, sən tüpürəndən sonra mən səni öldürə bilmərəm. İndiyənəcən Allah yolunda, kafir olduğuna görə öldürmək istəyirdim səni , indi isə nəfsimə görə, məni təhqir etdiyinə görə öldürmüş oluram. Ona görə də səni bağışlayıram. İndi mən də ədəbiyyat naminə hədyan danışanların cavabını verirəm, amma haqqımda danışanlara reaksiya vermirəm. Düz başa düşün, mən nə elədiyimi və necə elədiyimi çox yaxşı bilirəm. Heç kim mənə elədiklərimin əksini sübut edə bilməz, mümkün də deyil. Ortaya sanballı bir araşdırma qoyardılar. Yazılanlara baxmışam, bir-ikisinə həcv şəklində cavab vermişəm, dərslərini alıblar. Bundan sonra heç cavab verməmək qərarına gəlmişəm. Əvvəla, adamın fikridi də, deyir. Bəyənmir də. Bir də ki nihilizm deyə bir məfhum var. Nihilistlər müqəddəs kitabları belə təhqir edir, hətta yandırırlar. Mən Quranın yandırıldığı dünyada necə deyim ki, mənim kitabıma, sözümə toxunmayın? İnsanlar Allahın sözünə əl qaldırırlar. Ona görə də biz sussaq, yaxşıdı.

– Səlim müəllim, son olaraq, söhbətimizi və fikirlərimizi yekunlaşdıraraq bilmək istərdim, nəyə xatir yaşayır və yazırsınız?

– Aydın sabahlarda axtarın məni,
Orda günəş başqa, gülüş başqadı.
Tanrı günahları bağışlayan yer –
Xəyalım o yerdə dolaşmaqdadı...

Ömür vəfa qılsa, yazacam, bilin,
Bugünün, sabahın nəğməsini mən.
Mən öz içimdə axtarın bir az,
Bir gün öz içimdə azacam, bilin.

Bu misralar mənim ilk kitabımdan – 1996-cı ildə çap olunmuş "Tənha" kitabımdandı...

Yazmaq deyəndə, mən özümü şair kimi məhsuldar hesab etmirəm. Allahın sözünü özündə ehtiva edən cəmi üç-dörd kitabı qalıb insana . Bir də bəzi səhifələr və peyğəmbərlərə nazil edilmiş vərəqələr... Yəni doğrudanmı biz bu qədər böyük və müdrikik? Bu qədər ruhi təcrübəmiz varmı? Nədən insanın sözü on cild, on beş cild olmalıdı ki?

Yaşamağa gəlincə, bax, misal üçün, Alber Kamyu "Yalquzaq" kimi əsərini, əslində, sonuncu səhifədəki "Mən anladım ki, Allah məni aparırdı..." kimi əqli nəticələrə görə qələmə alıb. İnsan da sonuna xatir yaşayır. Ümid edirəm ki, sonda əməl dəftəri sağ əlinə verilənlərdən olacağam. Allaha xatir yaşayıram. Lazım gələn kimi yaşaya bilirəm, ya yox?.. Bunu bilmirəm. Amma yaşamaq istəyirəm... Buna cəhd edirəm...

Söhbətləşdi: **Taleh Mansur**

Simran QƏDİM

PİLLƏKƏN

"Biz ağlayaraq doğulur, səssizcə ölürük. Öhdəmizə düşənsə gülüşlə yaşamaqdır".

Viktor Hüqo

Öskürə-öskürə bloka girdi, sanki canındakı üzücü yorğunluğu, əzginliyi bir andaca çıxarıb havaya sovuracaqmış kimi nəfəsini dərdi. Ağır-ağır titrəyən əlini uzadıb liftin düyməsini basdı, gözlədi, gözlədi... Qocanın ürəyində saydığı saniyələr sürətlə irəliləsə də, liftin tayları açılacaqmış kimi görünmürdü. Qəfildən ağrılı bir təlaş, həyəcan hissi sardı canını, ürəyi bərk sıxıldı, əlini atıb təkrar-təkrar düyməni basmağa başladı: "Yəqin, indi açılar, bu dəqiqə açılar. Axı niyə işə düşməsin ki?! İndicə gələcək lift – həmişəki kimi ehmalca, yavaş-yavaş aralanacaq qapısı..." Nə qədər öləziyən ümidini diri tutmaq istəsə də, bunun heç bir önəmi yox idi. Sonuncu təmirdən bəri problemsiz işləyən lift yenə xarab olmuşdu...

Qoca əsəbi-əsəbi başını bulayıb səssizcə köks ötürdü, əlini cibinə salıb siqaret qutusunu çıxardı. Amma siqaret çəkməyin bir faydası yox idi, indi nə tarıma çəkilmiş əsəbləri sakitləşəcək, nə də lift işə düşəcəkdi. Fikrini dəyişib qutunu cibinə qaytardı, daha bir köks ötürüb həvəssiz-həvəssiz çoxdan köhnəlmiş, sınıq-sökük pilləkənə sarı addımladı. Başını qaldırdı, gözlərini yuxarı zillədi. Liftin işləməməyi canına vəlvələ salmışdı. Elə bil nədənsə qorxub çəkinir, nəsə olacağından, hansısa bədbəxtliyin yaşanacağından ehtiyatlanırdı.

"Bu yaşımda sağ-salamat yuxarı çıxmağa gücüm çatarmı, görən?" – öz-özünə verdiyi sual ona çox yersiz gəldi. Altı ay əvvəl də – lift işləməyəndə – bir neçə gün beşinci mərtəbəyə piyada qalxmaq məcburiyyətində qalmışdı. Niyə də indi pilləkənləri çıxa bilməsin ki? Mənasızlığını, bir xeyrinin olmayacağını bilə-bilə dönüb təzədən liftə tərəf getdi, böyük həvəslə, təkrar-təkrar yenə düyməni basıb ürəyindəcə: "açılacaq, açılacaq...", – dedi. Amma donub qalan taylar aralanmadı, illərdir xarab olubmuş kimi, heç yerindən qımıldanmadı da. Nə bir titrəyiş, nə bir səs...

Qocanı fikrə salan vacib bir məqam vardı: axır vaxtlar səhhətində yaranan problemlər, nasazlıqlar! Altı ay qabağa baxanda bu gün xeyli geriləyib haldan düşmüş, gücü-qüvvəti, heyi-hərəkəti zəifləmişdi. Ayaq üstə çox dura bilmirdi. Son dövrlərəcən yorulub-eləmədən evindən avtobus dayanacağınadək rahatca gedən adam axır günlər ayaqlarını zorla sürüyür, addımını atmaqda çətinlik çəkirdi. Süngərdəki su kimi taqətini canından çəkib çıxarmışdılar sanki. Huşu-zehni da özündə deyildi, tez-tez başı dumanlanır, halı qarışırdı. Vaxtaşırı kövrələrək çox yaşlandığını, ölməyə gecikdiyini desə də, doğmaları etiraz edirdilər; deyirdilər, yaşına görə cavandır, gümrahdır, uzun illər yaşayacaq hələ.

Qoca lənətə gəlmiş liftin işləmədiyinə əmin olub pilləkənlə qalxmağa qərar verdi. Boş yerə gözləməyin, vaxt uzatmağın mənası yox idi, nə qədər əziyyət də olsa, yavaş-yavaş, ehtiyatla qalxacaqdı yuxarı. İlk altı pilləni geridə qoyub bir anlıq ayaq saxladı: "Bəlkə, yenə yoxlasam, gələr lift, açılmaq istəməyən tayları tərpənər yerindən? Ola bilərmi ki, düyməni yaxşı basmadım, liftin özü deyil, düyməsidir xarab olan?" Qoca acı bir təbəssümlə gülə-gülə ah çəkdi: "Yox, əlbəttə ki, yox! Gör mən bu başabəla liftin düyməsini neçə dəfə basdım..."

Yenə taqətsiz ayaqlarına güc verib pillələri qalxmağa davam etdi. Amma tez də dayanmalı oldu: bir uşaq durmuşdu qarşısında. Hələ məktəb yaşına çatmayan azyaşlı, kiçik bir uşaq... Dörd-beş pillə yuxarıda mıxlanıb, nəzərlərini ona zilləmişdi. Niyəsə yaman qaşqabaqlı idi, eləcə dayanıb qar kimi ağappaq saçları, orta boyu, cılız bədəni olan qocaya baxırdı.

– Salam... gəl... gəl, ay bala... gəl bir sənin üzündən öpüm. Hardan çıxdın belə? De görüm, kimin oğlusan sən?..

Qoca dərinlərdən bir yerdən gələn xırıltılı, cod səsiylə dillənib, gülərüzlə əllərini uzatdı. Uşağın isə tərpənmək, yerindən qımıldanmaq fikri yox idi: qabağındakını eşitmir, görmürdü elə bil.

– Nə olub sənə, hə? Danış, de görüm, kim dəyib xətrinə? Nədir, niyə üzünü turşudub qaşlarını çatmısan?..

Uşaq – qocaya yanaşmaq əvəzinə – qaşlarını lap düyünlədi, üzündəki ifadəni daha da qatılaşdırıb, donuq-donuq baxdı. Təəccüblənmişdi qoca. Amma həlim, mülayim baxışlarını olduğu kimi saxlayıb özünü o yerə qoymadı, daha çox gülümsündü. Sonra diqqətlə, başdan-ayağacan uşağı süzdü: yaşına xas olmayan mənalı, dərin baxışlar, büzüşmüş incə dodaqlar, anlaşılmaz üz ifadəsi.

Daha iki pillə qalxıb qayğılı, mehriban bir səslə dedi:

– Gəl, gəl görüm kim incidib səni, mənim əziz balam, gözəl balam...

Birdən, uşağın üzündəki ifadə büsbütün kəskinləşdi. Özünü tamam kənara çəkdi, gözəgörünməz bir varlıq kimi, cəld, qıvraq hərəkətlərlə qocanın yanından ötüb kiçik ayaqları üçün böyük olan pillələrlə aşağı düşməyə başladı.

"Axı məni tanımır, ona görə danışmadı? yəqin, yanaşmaq istəmədi".

Qoca ayağını növbəti pilləyə qoyub yuxarı çıxmağa hazırlaşırdı ki, bədənindən şiddətli bir cərəyan keçdiyini hiss etdi: onu diksindirib sanki dərin yuxudan ayıldan, bütün vücudundan gur işıq kimi süzülən sərt, soyuq bir cərəyan! Uşaq ətrafındakılardan – valideynlərindən, nənəsindən, babasından, qardaşından, bacısından, bəlkə də, dayəsindən xəbərsiz evdən çıxmış ola bilərdi. Tez dalınca düşmək, özünü həyətə atmamış saxlamaq lazım idi!

Dönüb arxaya baxdı. Gözləri tələşla var-gəl edib uşağı axtarsa da, oğlan yoxa çıxmışdı. Axı bir göz qırpımındaca hara getmişdi belə? Bəlkə, aşağı düşmüşdü artıq? Amma yox, ola bilməzdi, çünki bir, uzağı ikicə saniyə keçdi; bu vaxta uşağın pillələri enməsi mümkün deyildi. Bəlkə də, səbəbi heç yerdə yox, özündə axtarmalı idi: ötən 5-10, ya 15-20 saniyə 1-2 saniyə kimi gəlmişdi. Ya da, sadəcə, qarabasma, hallüsinasiya görmüşdü. Məsələn, qəfil təzyiqinin qalxıb halının qarışmasına, ağlının çaşmasına görə.

"Çox yorulub əldən düşmüşəm, yaşlanmışam, burda nə var axı?! Hə, lap da ki çaşıb ağlım!" – qoca hirslə əlini yelləyib başını buladı. Möhkəmcə məhəccərdən yapışdı, elə bil get-gedə hündürləşən, uzanan pilləkənlə qalxmağa davam etdi. Bir pillə... iki pillə... üç pillə... Bədəni sanki çəkisi artıbmış kimi tədricən ağır gəlir, ayaqları, əzələləri heydən düşüb yavaş-yavaş sözündən çıxırdı.

İxtiyarsız, altı ay əvvəl də lift xarab olanda yenə pilləkənlə qalxmağını yada saldı. O gündən bu günə səhhətinin pisləşməsi açıq-aydın gözə çarpırdı. Əvvəl üçüncü-dördüncü mərtəbədə keçirdiyi yorğunluq, halsızlıq hissi indi ikinci mərtəbəyə çatmamış əmələ gəlmişdi. Günbəgün, saatbasaat geriləyirdi qoca. Bir yandan da axır vaxtlar tez-tez təzyiqinin oynayıb halının qarışması, yeriyəndə təngnəfəslik, bəzənsə ürəyinin bulanıb başının gicəllənməsi...

İkinci mərtəbəyə çatanda ayaqları sözünü eşitmədi, yenə dayanıb nəfəsini dərməli oldu. Təzədən tərpənmək istəyəndə isə... yenə bayaqkı kimi: dördbeş pillə yuxarıda donub qalan bir uşaq... yeniyetmə yaşlarında, birinci mərtəbədəkinə çox bənzər, demək olar, onun əkizi bir uşaq!.. Bu dəfə qoca bərk diksindi, yenə ağlının çaşdığını, halının qarışdığını düşündü. Təkrar-təkrar gözlərini yumdu, açdı... yumdu, açdı... Heç olmadığı qədər gerçək, həqiqi idi hər şey!

– Gəl, gəl sən düş aşağı. Nədir, nolub, a bala?! Niyə dinib-danışmırsan, qardaşın səni gözləyir axı...

Bu uşaq da reaksiya vermədi, sakitcə, dinməz-söyləməz dayanıb yerindən qımıldanmadı da. Birinci mərtəbədəki oğlan kimi, o da qabağındakını eşitmir, görmür, saymırdı elə bil. Eynilə çatılı qaşlar, yaşına xas olmayan mənalı, dərin baxışlar, büzüşdürülmüş incə dodaqlar. Uşağın üzündə qəribə, anlaşılmaz bir kədər də vardı.

– Bəs niyə qardaşını tək buraxmısan? Yaxşı, day neyləyək, eybi yox... get, get onun dalınca... Tez elə, indi həyətdə səni gözləyir, yəqin...

Üzücü bir sakitlik, sükunət.

– Eşitmirsən sən məni?! – qoca sifətini turşudub yüksək səslə, bir az da acıqla qışqırdı.

Oğlan tarım çəkilmiş yaydan çıxan ox kimi qəfil hərəkətə gəlib yerindən götürüldü, sürətlə aşağı düşdü. Heç nə anlamaq olmurdu: axı nə demək idi bütün bunlar?! Qoca arxaya çevrildi, təəccüb, çaşqınlıq içində yoxa çıxmış yeniyetmənin dalınca baxdı. Hər ikisində nəsə vardı. Bu tutqunluğun, donuqluğun səbəbi nə ola bilərdi? Uşaqlar qəlbində

sözlə ifadəsi mümkünsüz, izaholunmaz hisslər oyatmışdılar.

"Görən, nə olub? Niyə belə miskin, qəmgin idilər ki?"

Uşaqların əvvəlcə səssiz-səmirsiz dayanmaları, sonra da qəfil yerlərindən götürülmələri beynində çoxlu suallar doğurmuşdu. Əsas da üzlərindəki qəm-qüssə, nisgil... Bəlkə, onun halına acıyırdılar: pillələri zorla çıxmağı, xəstəliklərdən arıqlayıb büzüşməsi, üzündəki qırışlar... Hər ömrün bir sonu var, yəqin, bir gün özlərinin da yaşlanacaqlarını, bu hala düşəcəklərini fikirləşirdilər. Qocanın özünə bərk acığı tutdu. Axı hansı uşaq belə şeylər fikirləşər? Gərək ki, qardaşlar aralarındaca dalaşmışdılar, ya da anaları danlamışdı onları, vəssalam. Bu qədər sadə və bəsit!

"Deyəsən, çox şişirdirəm, burda nə var axı? Sadəcə, azacıq kefsiz idilər, başqa heç nə... "

Qoca büsbütün bədənini bürüyən qan-tərin içində birtəhər özünü üçüncü mərtəbəyə çatdırıb yenə dayandı. Bu dəfə isə nə diksindi, nə də təəccübləndi. Elə bil kiminsə qabağına çıxacağını hiss etmişdi, ürəyinə dammışdı. Dörd-beş pillə yuxarıda yenə bir oğlan vardı: iyirmi yaşlarında, yaraşıqlı, eynilə o birilərə bənzəyən bir oğlan! Onun da qaşları düyünlü idi, dodaqlarını büzüşdürmüş, heykəl kimi donmuşdu.

– Salam.

Ağzından başqa bir söz çıxarmayıb heç nəyə məhəl qoymadan pillələri qalxmağa davam etdi. Bu oğlan o birilərlə müqayisədə lap kədərliydi, hətta, deyəsən, gözləri də yaşarmışdı.

"Hər üçünün nəsə dərdi var, bəlkə də, evlərində gözlənilməz, ağır bir faciə olub. Yoxsa durduğu yerə, heç nədəncə niyə belə hala düşsünlər ki?"

Bu gənc də o birilər kimi qəfildən, sürətlə yerindən atılıb aşağı düşdü. Qoca isə ona fikir vermədən tövşüyə-tövşüyə, nəfəsi təngiyə-təngiyə yuxarı qalxırdı.

"İndicə taqətim kəsiləcək, yerə yıxılıb qalacam. Əl-ayağım, qabırğalarım sınacaq, axırıma çıxacaq üstümə-üstümə gələn pilləkənlər!.."

Qoca tamam heysizləşib gücdən düşsə də, enerjisi tükənmək üzrə olsa da, birtəhər ayaqlarını işləməyə məcbur edir, durub nəfəsini dərmək barədə heç fikirləşmirdi də. Hər növbəti pilləni çıxdıqca sol qolunda və sinəsindəki ağrılar lap şiddətlənirdi.

"Təki bir azca da dözüm, təki qapını açıb girim evimə!"

Bu dəqiqə onun ən böyük arzusu beşinci mərtəbəyə sağ-salamat çıxmaq, evinə girib tam bezənədək yatıb dincəlmək idi. Nəinki saatlarla, hətta günlərlə yerindən qımıldanmasa, yorğunluğu, heysizliyi çıxmazdı canından.

"Bir də gördün, ürəyim tab gətirməyib qəfil dayandı, dözməyib partladı birdən-birə..."

Dördüncü mərtəbəyə qalxanda elə yorulub heysizləşmişdi ki, artıq gözünə heç nə görünmürdü: nə yuxarıda durub ona baxan 40-45 yaşlı kişi, nə onun ağlamaqdan qıpqırmızı qızarmış gözləri, nə də bu adamın o birilərlə hədsiz oxşar olması... Dayansa, dursa, yıxılacaqdı qoca. Zamanla yarışırmış kimi tələsir, dayanmadan, durmadan yuxarı qalxırdı. Sağ, sol, sağ, sol...

"Mən bacaracam, bir şey qalmayıb daha, özümü çatdıracam evimə!.."

Bədəni fırtına dalğalarındakı gəmi kimi o yanbu yana ləngər vurur, ətrafındakı hər şey başına dörd dolanırdı. Amma qoca təslim olmayıb axıracan gedirdi. Təkcə yuxarı, yuxarı...

"Lap az qaldı... Evə çatım, dincələrəm. Təki bir azca da dözüm!.."

Nəfəsi kəsilsə, aramsız çırpınan ürəyi kəskin ağrı verib ona işgəncə versə də, pillələri qalxırdı, öhdəsindən gəlirdi hələ ki.

"Bircə pillə də... qurtarır daha, çatmışam artıq..."

Nəhayət, pillələrin hamısını geridə qoyub beşinci mərtəbəyə çatdı. Qoca daha bir addım atıb mənzilinin dəmir qapısına yaxınlaşdı və bu anda... birdən, sanki kimsə sinəsinə ağır, sərt bir xəncər zərbəsi endirdi. Ürəyindən ağrı qopdu: adamın ağlını başından çıxaran – şiddətli, dəhşətli, qorxunc bir ağrı!

"Onsuz da çıxmışam pilləkənləri... çatmışam evimə..."

Qoca yorğunluqdan, ya bəlkə, ürəyindəki amansız, dözülməz ağrının təsirindən bədəninin sanki ondan ayrıldığını hiss etdi. Müvazinətini itirdi, yıxılıb yerə sərələndi...

"Əsas odur, çıxdım pilləkənləri, sonacan qalxdım yuxarı..."

İndi üst mərtəbədən ağır-ağır, ehmal addımlarla çox yaşlı bir kişi düşürdü aşağı. Eynilə digərləri kimi, onun da üz-gözü kədərdən, qəm-qüssədən büzüşüb tanınmaz hala düşmüşdü. Hətta əməlli-başlı ağlayırdı da: gözlərindən yanaqlarına, oradan da üzüaşağı iri yaş damlaları süzülürdü...



Sabir YUSİFOĞLU

ÖLÜ DƏNİZ

Mən ölü dənizəm –
ölən arzuların batan dənizi.
Coğrafiya dərsində,
xəritədə
sevdiyim o qızın barmağı
yatan dənizi.

İllər arxası üstdə uzanıb
sevgi məktublarımı oxuyur
döşü dolu buludlara həsrət
göy üzünə.

Gəmim yox, yelkənim yox,
duzlu, duzsuz xanımların
vurulacağı görkəmim yox –
ölü dənizəm!..

Bulud-bulud illərim
üstümdən uçub getdi,
suyumu içib getdi.
Xanım-xanım gəmilər,
gəmi-gəmi xanımlar
üstümdən keçib getdi –
mən ölü dənizəm daha...

BÜRKÜLÜ ŞEİR

Beli bükülən ağaclar
alıb dizinin üstünə
yelpikləyir kölgəsini.
İndi saya salan yoxdu
kimsəsizi, kölgəsizi.

Bürkü tutub hər tərəfi,
dinən yox, danışan yoxdu.
Gün vuranların içində
günəşlə dalaşan yoxdu.

Kölgədə tövşüyən itlər
bir pişik səsindən ürkür.
Hamının əl-ayağını
yığıb-yığışdırıb bürkü.

Çiçəklər nəfəs almağa,
arılar uçmağa qorxur.
Hamıdan çox danışanlar
ağzını açmağa qorxur.

Ta heç kimnən işi yoxdu,
əl içi boyda kölgədə
qıvrılıb yatıb ilanlar.

Sancmağı, zəhərləməyi
başından atıb ilanlar.

Xanımların üst-başında
dənizə tələsir bürkü.
Qışdan donu açılmayan
canların həvəsi: bürkü.

Bu bürkünün ləzzətini
dəniz çəkir, çay aparır.
Bu yay alıb canımızı,
yerdən göyə pay aparır.

QƏLBİNDƏN ÇIXIB GEDİRƏM

Mən bu talan olunmuşun
dərdindən çıxıb gedirəm.
Quzeyindən, güneyindən,
qərbindən çıxıb gedirəm.

Bir az dərdlidi üst-başım,
neynək, arxamca danışın.
"Can-can" deyən dost-tanışın
qəlbindən çıxıb gedirəm.

Nə can qədrini biləndim,
nə də heç nədən öləndim.
Ələndim, tamam ələndim,
xəlbirdən çıxıb gedirəm.

BAXIB HƏKİMİN ÜZÜNƏ

Deyirsən, ürəyim yoxdu,
bə burda göynüyən nədi?
Adam kimi yaşamağa,
ölməyə qoymayan nədi?

Mən adda, mən boy-buxunda
bircə gəmin, adan olsun.
Bu dünyada alacağım
səndən gələn qadan olsun!..

Ürəyimin tutduğu sən,
ürəyim tutub, həb gətir.
Baxıb həkimin üzünə,
saxla özünü, tab gətir.

Ürəyin yoxdu, deyirsən,
bə bu saralan yarpağı
oxşayıb ağrıyan kimdi?
Yol qırağındakı daşa
boylanıb ağlayan kimdi?!

Ömrüm – ürəyimin şəkli,
sevgi – tuşlanan bir oxmuş.
Deyirsən, ürəyim yoxdu...
Deyəsən, ürəyim yoxmuş!..

BELƏ...

Çox ip tutdular boyuma,
yenə o boyda olmadım.
Nə bir ipə-sapa yatdım,
nə qanun-qayda
olmadım.

Doğmalar atıb-tutdular,
bəxt atanda tutmadı heç.
Ömür
cavanlıq şəklimin
ürəyinə yatmadı heç.
Hər yetən bir ağıl verdi,
ağıla baxan olmadı.
Sən Allah kimi baxdığın
oğula baxan olmadı...

Dişimə necə sıxsam da,
dilim dinc durmur, neyniyək?!
Yaşamaq üçün ölürəm,
ölüm dinc durmur, neyniyək?!

QARIŞQADAN DƏN DİLƏNİB

Çox yaşamaq istəmirəm,
cavan ölmək istəmirəm.
Mən sevənlər dəbdən düşüb-
cavan olmaq istəmirəm.

Cavan olmaq istəmirəm,
o dağım yox, dərəm yoxdu.
O səmtə üz tutub gedən
qayığım yox, bərəm yoxdu.

Çatışmır, nəsə çatışmır,
o çatmayanı gəzirəm.
İçimdə nəsə çat verib,
o çatlayanı gəzirəm.

Kəpənəkdən gün dilənib,
qarışqadan dən dilənib,
qırış-qırış kündələnib
çox yaşamaq istəmirəm.

Çox yaşamaq istəmirəm,
Şəhidlər yatan torpaqda.
Cavan ölmək istəmirəm
hər daşı Vətən Torpaqda.

YAŞAMAQDAN BEZƏN KİMDİ?

Özümü harda öldürüm,
Allah, xəbərin olmasın?!
Qara xəbər əl-qol açıb
bəyaz telləri yolmasın.

Bu əliboş ömrümün də
günahı izimdə qalıb.
Yazdıqlarının çoxusun
silsəm də, gözümdə qalıb.

Sənə yaxın olmağın da
uzağı buymuş, öyrəndim.
Dünyanın hər üzü gözəl,
içini gördüm, iyrəndim.

Balamın üzü solmasın,
anamın gözü dolmasın.
Özümü harda öldürüm,
Allah, xəbərin olmasın?!

Deyirsən, belə gedəcək,
yəni xoş gün olmayacaq?!
Qalan ömrü nəyə vursaq,
yenə beş gün olmayacaq?!

"Harda qırılar, qırılar,
harda ölərik, ölərik".
Burda ağladan günlərin
yerinə orda gülərik.

Kimdi ki ölümdən qorxan,
Yaşamaqdan bezən kimdi?
Ay Allah, Sən deyilsənsə,
bəs bu canı çoxdan çıxmış
adamları Yer üzündən
dəstə-dəstə üzən kimdi?..

İYDƏLƏR ÇİÇƏKLƏYİB...

İydələr çiçəkləyib, get
fevralda körpənlə qayıt.
Məni yaza girov qoyub
get o biri mənlə qayıt.

Ulduzlar adam aldadır,
adamlar- ulduz ölüsü.
Hər qız bir oğlan tabutu,
hər oğlan bir qız ölüsü.

Saçların dağınıq getdin,
al-yaşıl örpəklə qayıt.
Məndən qoparıb getdiyin
o mələk körpəylə qayıt!

Ömrün bu qış çağında da
gülür iydə çiçəkləri.
Əlindən tutub yuxuma
gəlir iydə çiçəkləri...

Yaxanda özü-özünə
qırılan düymənlə qayıt.
Yenə mənə qarğış elə,
yenə də o MƏNlə qayıt!..



"Ulduz" jurnalı avqust sayından başlayaraq pyesləri 30 ildən artıq Azərbaycanın, demək olar, bütün dram teatrlarının, eyni zamanda postsovet məkanı ölkələri teatrlarının səhnəsindən düşməyən, böyük tamaşaçı sevgisi qazanan yazıçı-dramaturq, Əməkdar İncəsənət xadimi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri, professor Əli Əmirlinin ustad dərslərinə start verməyi nəzərdə tutur. Dramaturq ustad dərslərində gənc və yeni yazmağa başlayan, eləcə də çoxdan yazan, amma uğur qazana bilməyən dramaturqlara, ümumiyyətlə, dramaturgiya ilə maraqlanan hər bir kəsə öz yaradıcılıq təcrübəsindən danışacaq, yaxşı pyesin yaradılması sirlərini şərh edəcək. Necə yazmaq lazımdır ki, sənin də adın teatr afişalarında və tamaşa proqramlarında görünsün?

Yazıçının ustad dərslərinin mövzu diapazonu kifayət qədər geniş olacaq:

– dramaturgiyanın əsas xüsusiyyətləri, onu digər ədəbi janrlardan fərqləndirən cəhətlər;

– dramaturqun teatrla qarşılıqlı yaradıcılıq münasibətləri şəxsi təcrübədə;

– necə yazmaq lazımdır ki, teatr direktoru səni isti qarşılasın, rejissor və aktyorlar sənin əsərində həvəslə, məhəbbətlə və şövqlə işləsinlər;

– dramaturji priyomlar (fəndlər), yaxşı pyesi əla pyesə çevirən gözlənilməz hadisələr, peripetiyalar

– və ən çətini – maraqlı süjetin tapılması, onun necə başlaması və nəylə bitməsi, başqa sözlə, final variantları...

Üstəgəl, dramaturgiyanın, teatrın, səhnənin, aktyor oyununun bitib-tükənməyən sehri...

Əli ƏMİRLİ

Mən niyə və necə dramaturq oldum?

Başlığa çıxardığım suala cavab verməmiş bəzi məqamlara aydınlıq gətirmək istəyirəm. "Ustad dərsləri" kimi düşünülmüş bu söhbətlərdə mən teatrşünas, teatrsevər tamaşaçı kimi yox, kifayət qədər zəngin praktikası olan dramaturq kimi danışacam. Deyim ki, xəyali dramaturq həmkarımla söhbət kimi keçəcəm bu dərsləri. Ona görə "siz" müraciətim heç kimi çaşdırmasın. Elə isə başlayaq!

Siz inadla və böyük həvəslə, istəklə, janrından asılı olmayaraq, pyeslər yazırsız. Zaman keçdikcə pyeslərin sayı artır. Əlbəttə, pyesi yazırsızsa, deməli, onu səhnədə görmək istəyirsiz, çünki ən gözəl pyes də səhnədə görünmürsə, onun üzərində rejissor, aktyor işləmirsə, tamaşaçı seyr edib alqışlamırsa, deməli, pyes tamaşa olmayacaq, elə pyesliyində də qalacaq. Odur ki siz, haqlı olaraq, üz tutursuz teatrlara. Əlbəttə, ilk növbədə Bakı teatrlarına, bəlkə də, bir vaxtlar mənim elədiyim kimi, özünüzdə cəsarət tapıb lap elə birbaşa "Azdrama" deyilən Akademik Milli Dram Teatrına. Əvəzində nə baş verir? Bəli, istehzalı baxışlar, susqunluq, biganə münasibət, türklər demiş, xəyal qırıqlığı. Mən bunları havadan demirəm, Azərbaycanda pyes yazan yaşlı, orta və gənc nəsil dramaturqların hamısını, demək olar ki, tanıyıram, yazdıqlarına bələdəm, çoxunun haqlı və haqsız gileylərindən, şikayətlərindən də xəbərdaram. Bəli, siz teatrlar tərəfindən biganəlik görürsüz və sual edirsiz, axı niyə teatrlar mənim dramaturgiyama, sevə-sevə yazdığım gözəl pyeslərimə bu qədər insafsız, qəddar yanaşırlar? Niyə filankəsin, uzağa getməyək, elə Əli Əmirlinin əsərləri belə asanlıqla tamaşaya qoyulur, premyeranı premyeranın oduna alışdırır, adı afişalardan düşmür, mənimkilər isə sükutla qarşılanır? Hətta hansı bir ikinci və ya üçüncü dərəcəli teatrda tamaşaya qoyulanda da səsi-sorağı çıxmır, rezonans yaratmır, biletlər satılmır, iki-üç dəfədən də çox oynanmır? Niyə onun dramaturgiyasına ehtiyac var, mənimkinə yox? Niyə mənim əsərlərimi başa düşmürlər və ya qəbul etmirlər? Səbəb nədir?

Doğrudan da, səbəb nədir? İstedad? Pis-yaxşı yazan hər bir adam istedadlıdır. Bəlkə, bəxt, indi deyilən kimi, şans? Bəlkə də! Amma...

Gəlin bu yerdə istedadı və bəxti, lap elə şansı qoyaq bir qırağa, çünki xeyli mübahisəli məsələlərdir: tamaşaçı uğuru qazanan hər bir əsər hələ istedadlı deyil, hər uğursuz əsər də istedadsız. Onda danışaq mövcud vəziyyətdən. Necə edək ki, yazdığımız pyeslərə tələbat olsun, teatrlar bu pyesləri məmnuniyyətlə qəbul edib tamaşaya qoysunlar? Tamaşaçılar bilet alıb zalı doldursunlar, anşlaq olsun? Burdaca yüzdən çox premyerası olmuş dramaturq kimi deyim ki, bunun konkret resepti həm var, həm də yoxdur. Bu da qalsın növbəti dərslərimizə. Elə isə keçək əsas suala:

Mən niyə və necə dramaturq oldum?

Mənə elə gəlir, bir dramaturq kimi keçdiyim yola kiçik bir ekskurs çox şeyi izah edə bilər.

Dramaturgiyaya mən gec gəldim, ilk əsərim tamaşaya qoyulanda 42 yaşım vardı, amma bu ana qədər deyim ki, mənim çox zəngin teatr həyatım olmuşdu. Yeddi yaşımdan başlayaraq mən teatr mühitində böyümüşdüm, hələ məktəb illərində

Azərbaycan dramaturqlarının çap olunmuş bütün pyeslərini oxumuşdum, baxmayaraq ki, dram əsərlərini, demək olar ki, oxuyan olmur, çünki pyes oxunmaq üçün yox, tamaşaya qoyulmaq üçün yazılır. Ağdamda altıncı sinifdən başlayaraq məktəblinin pyes oxuması isə nonsens olmasa da, ən azı təəccüb doğurur. Elə ki ilk dəfə Ağdam Mədəniyyət evində Azdramanın qastrol tamaşalarını gördüm, teatra sevgim yaxşı mənada ömürlük mərəzə çevrildi. Onu da deyim ki, dramaturgiyaya gələndə mənim iyirmi illik nasir stajım vardı, hekayələrim, povestlərim, romanlarım çap olunurdu, özü də yaxşı çap olunurdu, şikayətə, giley-güzara yer yox idi, amma bu, özgə mövzunun söhbətidir. Qayıdaq mənim teatr yaradıcılığıma. Bir az əvvəldən dediyim kimi, mən ilk dram əsərimi məhz Azdramaya apardım. "İldırımötürən" adlı povestim əsasında səhnələşdirdiyim pyesə "Açıq söz" adını vermişdim. O vaxtlar Ağdam teatrının direktoru olan atam Məmməd Əmirovun "Ə, gətir, verim, bizdə oynasınlar dayna, niyə qarnın ağrıyır?" təklifinə "Papa, mən Azdramadan başlayacam" demişdim. Papam da "Ə, bunun bu yekəxanalığı öldürdü dayna bizi" – deyib siqaretinə dərin bir qullab vurmuşdu. Bu söhbətdən düz on il keçəndən sonra Azdrama ağırtaxtalı pərdələrini üzümə açdı. Qayıdım sözün yarımçıq qalmış yerinə. İlk pyesimi teatrın direktoru Əli İsmayılov ədəbi hissə müdiri Qeybulla Rəsulova, sonra rejissor Əşrəf Quliyevə ötürdü. İnsaf xatirinə deyim ki, hər iki adam pyes haqqında müsbət fikir deyəndən sonra, nəhayət, direktor çox qayğılı şəkildə: "Niyə bu adamlar sənin yanında pyesi bəyəndiklərini deyirlər, sən olmayanda ağız büzürlər?" sualı ilə üzümə baxıb hiyləgər təbəssümlə gülümsədi. Mən də tıncıxmış, incimiş, rəncidə olmuş bir əda ilə səsimin qalın yerinə saldım: "Siz bu sualı o adamlara verin" deyib pyesi onun masasının üstündən hikkə ilə götürdüm, sağollaşmadan teatrdan çıxdım və özözümə "Mən bura mütləq qayıdacam" dedim. Necə qayıdacağımı, əlbəttə, bilmirdim, amma qayıdacağıma inanırdım. Beləliklə, Azdramadan, bakılılar demiş, yaxşı bir "atqoz" alandan sonra reallıqla hesablaşmaq qərarına gəldim: "Ərizə" adlı ikinci pyesimi russayağı TYUZ deyilən Gənc Tamaşaçılar Teatrına apardım. Fikrimcə, burda "atqoz" ola bilməzdi. Mövzu da teatrın profilinə tam uyğundu, məktəb həyatı. Teatrın baş rejissoru pyesi, mənə elə gəlir ki, oxumamış dedi, şedevr də olsa, tamaşaya qoya bilmərik, imkanımız yoxdur. Doğrudan da, teatr onda təmirdə idi, kollektiv müvəqqəti olaraq Aktyorlar Evində yerləşmişdi. Elə bu vaxt (mən yuxarıda bir şans, bəxt sözü işlətmişdim) Mədəniyyət Nazirliyi məktəb həyatından bəhs edən ən yaxşı pyes üçün müsabiqə elan etdi, teatrın üstümə atdığı həmin pyesi böyük ümidlə müsabiqəyə göndərdim və... bəli, birinci yeri tutdum. Şərtə görə mükafata layiq görülən əsər məhz Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmalı idi. Qoyuldu da! Buna deyərlər: "Ирония судьбы!"

"Ərizə"nin premyerasında iştirak edən Həsənağa Turabov məni çox hərarətlə təbrik edib Azdramaya çağırdı. Ertəsi gün Turabov çox iri, möhtəşəm direktor kabinetində məni xüsusi mehribanlıqla qarşılayıb çay gətirtdi, dünənki tamaşa haqqında xeyli xoş sözlər dedi və bundan sonra məhz Azdrama üçün yazmağı təklif elədi. Bir neçə konkret mövzu da verdi. Zamana diqqət edin, bu o zamanlardı ki, Azdramanın səhnəsində İlyas Əfəndiyevin, Bəxtiyar Vahabzadənin əsərləri hegemonluq edirdi. Sevinmək tez idi, teatrın direktoru, bədii rəhbəri olan adam da bəzən "svita" qarşısında aciz qalır. Odur ki, dalbadal yazdığım pyeslər ölkənin baş teatrına vəsiqə ala bilmirdi. Mən şikayətlənmir, gileylənmir, səbir və hövsələ ilə dözürdüm, amma bu teatrdakı uğursuzluq mənə başqa teatrlarla əməkdaşlıq etməyə mane olmurdu. Elə 92-ci ildə 3 premyeram olmuşdu. Nəhayət, Turabovun təklifindən düz 5 il sonra o zamanlar çox gənc olan rejissor Bəhram Osmanovun quruluşunda "Ağqoyunlular və Qaraqoyunlular"la (1995) Azdramanın bir az əvvəl dediyim ağırtaxtalı məxmər pərdələri üzümə açıldı. Mən həm də öz rejissorumu tapdım, bu barədə başqa bir vaxt ətraflı danışacam. Daha sonra "Köhnə ev" tamaşaya qoyuldu. Hər iki əsər böyük uğur qazandı, "Köhnə ev"in yaratdığı rezonans isə teatr yaradıcılığımda həlledici oldu. Onu da deyim ki, Azərbaycanda

tanınan dramaturq olmaq istəyirsənsə, əsərlərin mütləq Azdramanın səhnəsində görünməlidir, çünki azərbaycanlı tamaşaçı teatr deyəndə məhz Azdramanı düşünür.

"Köhnə ev"in müzakirəsi vaxtı dəbdəbəli, pafoslu sözlərdən qaçan, tərifə xəsis Turabovun dediyi bir cümlə yaddaşımda dərin iz buraxdı: "İyirmi ildir mən teatrdan ləzzət almırdım". Turabov Eldəniz Zeynalovun oyununu da xüsusi bəyənmişdi, hətta onu tərifləyəndə gözləri yaşardı. Bu da təsadüfi deyildi, Eldəniz Zeynalov iyirmi ildən çox idi səhnəyə çıxmırdı. Aktyor "Köhnə ev"dəki tragikomik rolunu xüsusi şövqlə, ləzzətlə oynayırdı. Premyeradan sonra, bəlkə də, teatr tarixində ilk dəfə idi ki, müəllif yox, teatrın direktoru, yəni Həsənağa Turabov bütün yaradıcı heyət üçün öz hesabına yaxşı bir banket verdi. Rüstəm İbrahimbəyov isə "Mən tamaşaya baxandan 5 dəqiqə sonra bildim ki, bu əsl dramaturgiyadır" sözləri ilə məni təbrik etdi. Mətbuata verdiyi müsahibələrin birində fikrini daha geniş və əsaslı bildirdi. Əlbəttə, bu xatirələr indi də məni təsirləndirir, onda isə... Amma söhbətin məğzi bu deyil, məsələ bu əsərlərin və paralel olaraq Gənc Tamaşaçılar Teatrında, Hüseynağa Atakişiyevin Gənclər Teatrında başqa əsərlərimin də oynanmasının səbəblərinə diqqəti yönəltməkdir. Doğrudan da, səbəb nə idi, axı mənim teatrlara təsir etmək imkanlarım yox səviyyəsində idi? Bəlkə, o vaxt deməzdim, indi isə deyə bilərəm, bu əsərlərə teatrların həvəslə maraq göstərməsi, hər şeydən əvvəl, dramaturji materialda qaldırılan və bədii həllini tapan dərin ictimai-siyasi, mənəvi problemlər idi: Sovetlərin çökməsi, 20 Yanvar faciəsi, Qarabağ uğrunda uğursuz savaş və torpaqların biabırcasına itirilməsi, qaçqınlıq sindromu, ən vacibi, yeni iqtisadi münasibətlərin yaratdığı uğursuz, aciz, hətta zavallı azərbaycanlı tipinin səhnəyə çıxması, bazar münasibətləri fonunda insan ləyaqətinin təhqirlərə uğraması, talelərin qırılması, şikəst olması və sair, və sair... Ən vacib olan – insanlar özlərini, dramatik talelərini səhnədə görür, gülür və ağlayırdılar. Əgər "Ağqoyunlular və Qaraqoyunlular"da ailə, tayfa partiyalarının komik-dramatik, hətta karikatur mübarizəsindən bəhs edilirdisə, "Köhnə ev"də yeni yaranan iqtisadi münasibətlərdən başını itirmiş adamların, xüsusilə sənət adamlarının, zavallı ziyalıların dramından söhbət gedirdi. Əlbəttə, mövzu, problem çox aktual ola bilər, bu, çox vacibdir, amma ən vacib olan bütün bunların bədii məzmununun tapılması idi. Əgər 90-cı illərin iqtisadi tənəzzülü, cəmiyyətdə baş verən mənəvi deqradasiya şəraitində insanlar bu tamaşalara maraq göstərirdilərsə, bu ancaq bədii məziyyət məsələsi, gülüşlə dramın üzvi şəkildə birləşdirilməsi ilə bağlı idi. Bir az əvvəl qəhərdən boğulan tamaşaçı qəfil bir səhnədən, replikadan və ya gözlənilməz dönüşdən qəhqəhə ilə gülürsə, deməli, dramaturq hədəfi düzgün nişan alıb, söz, mesaj ünvanına çatıb.

Tamaşaların uğuru, publikanın sürəkli alqışları dramaturqa yazmaq üçün güclü stimul verir. Bəlkə, bunların nəticəsi idi ki, 1990-2000-ci illər mənim dramaturji yaradıcılığımın ən məhsuldar dövrü idi. Bakının üç əsas teatrı, əksər rayon teatrları bir-birinin ardınca əsərlərimə təkrar-təkrar səhnə həyatı verirdilər. Teatr direktorları dəyişir, rəhbərliyə yeni adamlar gəlir, amma bütün bunlar mənim əsərlərimin taleyinə zərrə qədər xələl gətirmirdi. Tək Azdramada Həsənağa Turabov, Əlabbas Qədirov, Maqbet Bünyadov, İsrafil İsrafilov, Azər Paşa Nemətov kimi direktorlarla dramaturq - direktor münasibətlərim yüksək səviyyədə olub. Hər birinin vaxtında əsərlərim üçün teatrın qapıları, pərdələri açıq olub. Odur ki, demişəm, deyirəm də, hər bir teatr yaxşı əsər sorağındadır, heç bir teatr ona uğur və gəlir gətirəcək əsərdən imtina etməz, etmir də. İstisnalar sizi çaşdırmasın, mən qanunauyğunluqdan danışıram. Onu da deyim ki, heç vaxt heç bir əsərimin sponsoru olmayıb, əsərlərimin tamaşaya qoyulması üçün heç bir teatrdan təmənnalı münasibət görməmişəm.

Əlbəttə, birinci söhbət daha çox tanışlıq məqsədi daşıyırdı, giriş idi əsas dərslərə, amma "Mən niyə və necə dramaturq oldum?" sualının cavabı hələ bitməyib, bitən də deyil. Elə isə gələn dərsimizdə görüşənə qədər!

Xatirə RƏHİMBƏYLİ

***

Tabım-təvanım qalmadı, gəl gedək yar olan yerə,
Kin-küdurət viran olub məhəbbət var olan yerə.
Vəfa deyib cəfakeşi, bietibarı görmüşəm,
Ürək dözmür, tab gətirəm insanlıq xar olan yerə.
Ruhun qidası sözdü, söz, bu səhrada bişdi könül,
Apar məni mənaları budaqda bar olan yerə.
Dəvələri görürəm ki, gedirlər xər arxasında,
Qartalları görürəm ki, dustaqdı sar olan yerə.
Bu məzlumu sən zalıma niyə yazdı tale yazan?
Payızgözlü duyğularım həsrət bahar olan yerə...
Əğyar əğyarə tuş gələ, aşiq məşuqa rast ola,
İncə qəlblər tən gəlməyə nalə, qubar olan yerə.
Dövran əlində acizəm, Xatirə, bir mədəd eylə,
Qoyma könül boyun əysin düşüncə dar olan yerə.

***

Baxma, gözümün suyu boldu, amma nə fayda,
Xəyalımın bağçası solub gedibdi çoxdan.
Ürəyimə əkdiyin ümidlərim zay oldu,
Mən də əkinçiliyin daşın atdım o vaxtdan.

Bütün həqiqətləri sənincün silib atdım,
Bilirsən niyə susdum? İstəmədim küsəsən...
Əl mənim, ətək sənin, qorxma, baltana qurban,
Əlimi kəs, qıymaram ətəyini kəsəsən.

Sönüb sonuncu ümid, fikrim qırış-qırışdır,
Sizdə işıq yanırmi? Ya borca ütün olmaz?
Yenə köhnə dost kimi sənə tutdum üzümü,
Yaman kasıblamışam, bir az ümidin olmaz?

Yox, darıxmaq deyil bu... heç sevgi də deyil, yox,
Sənin də çox "yox"un var, görürəm gözlərindən.
Köhnə arxdı, nə deyim, bəlkə, yenə su gələr,
Onda dayaz qazmışıq, indi qazaq dərindən?

Baxma gözümün suyu boldu, amma nə fayda,
Xəyalımın bağçası solub gedibdi çoxdan.
Ürəyimə əkdiyin ümidlərim zay oldu,
Mən də əkinçiliyin daşın atdım o vaxtdan.

***

Cəsurluğun qürurum, kədərimdi həlakın,
Cismin məzarda saxlı, ruhun cənnətdə sakin.
"Əzizim,Vətən yaxşı...", – deyim, bayatı çəkim,
Yoxsa məzarın üstdə çalım layla, şəhidim?

Yurdun hər qarışında sənin haqq-sayın var,
Palıdlaşan vüqarın, çinarlaşan boyun var.
Udduğumuz havada, suda sənin payın var,
Layiqiksə, haqqını halal eylə, şəhidim.

Keçdin taleyimizdən, keçdin ildırımsayaq,
Yağdırdın alovunu düşmən üstə... yenə yağ...
Adın – müsəlləh əsgər, ruhun daima oyaq,
İgidləri qisasa çağır, hayla, şəhidim.

Zamanları adlayar, əsrləri aşarsan,
Gözlərdə, könüllərdə elə qaynar, daşarsan.
Bizlər gəldi-gedərik, sən əbədiyaşarsan,
Bizdən gələcək nəslə salam söylə, şəhidim.
Layiqiksə, haqqını halal eylə, şəhidim.

***
Aç yuxunun qapısın,
Getməyə yerim yoxdu;
Üşüyür xəyallarım,
Sənsiz dünya soyuqdur.

Bir cüt səbir kasası,
Gözlərim dolub-daşır.
Baxma ki mən toxtağam,
Xəyallarım ağlaşır...

Ah, nə yaman doludu
Ömrünün odaları,
Bir az da sən yola ver
Bu dinsiz acıları.

Aç yuxunun qapısın,
Getməyə yerim yoxdu;
Üşüyür xəyallarım
Sənsiz dünya soyuqdur.

***
Üzü o tərəfə, könlü bu yana,
Ay iki arada qalan ey, salam.
Yığval tərsə düşüb, yol düz gəlməyib,
Ürəyi həsrətdə qalan ey, salam.

Gəzir aralıqda qatı duman, çən,
Eh, nə bu mən mənəm, nə də o sən sən.
Ürəyim eşitdi ürəyin verən
Allah salamını... Salam ey, salam!

Hər açılan sabah sabah olmur ki,
Quruca bir salam günah olmur ki...
Hər qəlbin salamı segah olmur ki,
Ürəyim inlədi: "Balam ey..." Salam.

Eh, gəlirsiz gəldi bu gidi gərdiş,
Ürək dərd çəkməyə eylədi vərdiş,
Salamın qurusun, salamsız dərviş,
Eylədin ruhumu talan ey... Salam.

Səni unuduram... əriyib fikrin
Düşür lələr-lələk zər qanadları...
Səni unuduram... gözümün seli
Yuyur köksümdəki dərin çatları...

Səni unuduram... ölür ovcumda
Sözün ala-bəzək kəpənəkləri.
Səni unuduram... məzarı olur
Əlvan çiçəklərin çiçək ləkləri...

Səni unuduram... düşüb boşluğa
Səhra küləyitək ulayır ürək.
Bu qədər boşuna acı çəkmişəm,
Səni unudaydım əzəldən gərək....

Səni unuduram... unudam gərək
Yaddaşım da qalsın, bir dənəm, sənsiz.
...Harda quzu mələsə,
...Bil ki, o, mənəm sənsiz...
Səni unuduram...

***
Adını çəkə bilmirəm,
Ay ismi-pünhan, hardasan?!
Axır məni öldürəcək
Bu dəli hicran, hardasan?

Sanma, bu üsyan yatacaq,
Əğyar əhdinə çatacaq...
Bir gün səni də tutacaq,
Vallah, nahaq qan, hardasan?!

Gəlsin ürəyimə qadan,
Niyə kəsilib səs-sədan?!
Ürəyimi atıb-tutan
Fırtına, tufan, hardasan?..

Yarı yalan, yarı gerçək,
Yarısı daş, yarı ürək.
Yarı şeytan, yarı mələk,
Ay yarı insan, hardasan?!

Bu sevda sevdalar xası,
Yox qurtuluşi, xilası...
Adın dilimin duası
Ay ...ismi pünhan, hardasan?!!

Nurəddin MUQƏDDƏM
(Aydın Duman)

MAL KURUŞLA MƏNİM NAĞILIM

Bu şəhərin bazarına gələn mədəni adamı, bəlkə də, incidən bir şey varsa, o da bu boyda bazarda kitab satışıyla məşğul olan bircə dukanın belə olmamasıdır. İndi mənim oturduğum bu kitab satışı evinin də başqa bir nağılı var.

Neçə illər bundan əvvəl, hələ qızıl birdən-birə bahalaşmamışdan qabaq öz evimin birinci mərtəbəsinin bir otağında qızıl dükanı açdım və qızıl alışverişi ilə məşğul olmağa başladım. Qızılları Təbrizə aparıb-gətirərkən çox əziyyətlərə qatlaşdım, gecə-gündüz tər tökdüm, çalışdım, bel ağrısı tapdım. Ancaq həm də çoxlu qızıl qazandım. Sonra qızıl birdən-birə bahalaşdı, əlimdə yaxşı maya qaldı. Qalan pulu bır az əlimdə fırladandan sonra qızıl bazarında bır dükan da aldım. Onda da dükanlar indiki kimi bahalaşmamışdı.

Bazarın əhval-ruhiyyəsini yaxından öyrənəndən sonra bu işə marağım itdi. Bir neçə gün fikirləşəndən sonra qəflətən beynimdə qəribə bir fikir canlandı. Qızılın əvəzinə kitab satacam. Qızıl dükanımı kitab dükanına çevirəcəm. Qonşularıma demədən bu işin tədarükünü görüb vacib olan hər şeyin hazırlığına başladım.

Ertəsi gün qızıl bazarında işləyənlər və alıcılar kitab dükanımı görüb təlaşlandılar və onların ağzından çıxan "Deyəsən, bu adam ağlını itirib" sözlərini neçə dəfə öz qulaqlarımla eşitdim. Ancaq bütün bunlar qabaqcadan mənə gün kimi aydın idi. Onlar mənə əyri-əyri baxırdılar, mən onları anlayırdım və düşündüklərinə də təbii baxırdım. Bu az müddətdə onları yaxşı tanımışdım, hansı yuvanın quşu olduqlarını bilirdim.

Beləcə, mənim bu addımımı təkcə öz qonşularım yox, uzaq-yaxın hər kəs soyuq qarşıladı. Elə bil hər gün mənə ikiqat əyilən, dil tökən adamlar deyil, məni tanımayan yadlar idi.

Hamısından çox özünü həlak edən, yanbayan qonşum Kuruş idi. Mən həmişə onunla zarafat edirdim. "Axı, a gədə, sənə kim nə eləmişdi ki, adın "Quluş" ola-ola, birdən hamı sənə "Kuruş" deməyə başladı?". Bunu deyəndə rənginin saraldığını gördüm. Düzü, elə bildim, sözüm ona toxundu, məndən incidi. Ancaq, demə, doğrudan da, belə imiş. Adı Qolalı olan bu məzəli, üzü gülüş ifadəli qonşuma öz kəndlərində Quluş deyərmişlər. Bunu sonralar mənə oyandakı qonşusu dedi.

Sonra necə olursa, Təbrizə gəlib qızıl işinə girişir... Adını deməsəm, yaxşıdır, görəsən, qızıl sahəsində hansı köpəyoğlunun himayəsindədir. Yenə demirəm, əlinə qızıl dükanı keçirir, üst-başını dəyişir, olur Kuruş. İndi də doyunca mal-mülk yiyəsi olub, ancaq elə mallığında qalıb ki qalıb...

Mənim dükanımın adı "Sayman" olduğuna görə sözümün qabağında bir söz deyə bilmirdi. Bir dəfə məni əsəbiləşdirib Saman dükanı dedi:

– Oğlan, qızıl dükanının adı Saman da oldu, elə bil qızıl dükanı ilə samanlığı dəyişik salmısan, elə yaxşısı budur, gedib samanlıqda işləyəsən.

– Nə olsun, iş ayıb deyil ki, gedərəm də, saman işinə baxaram da, istəsən, lap ən yaxşısından, sən sevdiyindən bir tay da sənə gətirərəm, – dedim.

Bunu deyəndə mal kimi əyri-əyri baxırdı mənə. Ağzını doldurub bir söz demək istəyirdi, ancaq dilinə gətirdiyi hansısa murdar sözü vaxtında qaytardı geri. Bilirdi ki, mən söz altında qalan deyiləm. Bilirdi ki, dodağını tərpədən kimi bundan daha ağırını yükləyəcəm belinə. Buna görə də çox davam gətirə bilmədi, saqqızını zorla gövşəyirdi.

İndi mən dükanımı dəyşib kitab satışına çevirdiyimə görə elə bil ayağı yer almışdı. İstəyirdi dilimdən çıxanların əvəzini çıxsın. Külbaşlı heç

bilirdi ki, dilindən çıxan nədir? Savadı-zadı yoxuydu ki... Amma yox, tək savad deyildi, ancaq zad... Nə deyim ki, eşşək yükünü alardı belinə, ancaq yemi, arpası, kürüşnəsi bol olduğundan gözə pis dəymirdi. İndi bu tip də bir adamdı, gəlib gündə mənə əyri-əyri baxır kı, görəsən, nə olub mən qızıl dükanımı, kitab satışı evi eləmişəm?

Bir neçə gün elə pis-pis baxır, bir söz demirdi. Ancaq görürdüm ki, mənim müştərilərimə də bir ayrı cür baxır. Elə bil anasının oynaşını görürdü. Ona deyən yoxuydu ki, ay filankəs, axı sənə nə? Mal mənim, dukan mənim, qazanc mənim, sənlə şərikliyim yoxdur ki. Zərər etsəm, mənə olacaq, sənə nə gəlib ki, tasın-pasın hər yanı ağzına alıb?

– Sancın varsa, get qarnına bir çarə qıl. Bir çarə qılmırsansa, uzaqlaş burdan, bütün bazarı batırarsan ha… Məndən demək...

Qəsdən bir böyük tablo yazdırdım. " Sayman kitab satış evi". Bu tablo lap bir ox kimi girdi onun gözünə. Bir neçə gün daha bizim tərəflərə baxmadı. Mən də eləcə rahat idim, savadlılar, tələbələr, mədəni adamlar dükana gəlirdilər. Onun da başına elə bil göydən daş düşürdü.

Bir az dözdü, sonra dözə bilmədi. Bir gün gördüm girdi dükana.

– Hə, Kuruş, ot-alaf istəsən, məndə yoxdu ha, görürsən ki, mən kitab satıram, bu kitablardan sənin dərdinə çarə olmaz.

– Kitab yox, ancaq sənin dükanın mənim dərdimə çarə olar. Kitablarının yox, ancaq dukanının müştərisiyəm. İstəsən, kitablarla birgə alaram. Ancaq alacağam, alan kimi də gözünün qabağında hamısına od vurub yandıracağam.

– Elə isə gəl, otur kitabların içində, o lap yuxarı qəfəsdə, sonra danışaq. Bir dəqiqəlik sən də bir kitab ol. Xoşun gəlmirsə, al, sığal çək. Olmasa, boya düzəlt, yax üzünə, onda mütləq sənə müştəri tapılar. Zarafat eləmirəm, müştərinin biri hazır, bax döyüb eləmərəm də, "pıspısa xala".

Pis-pis mənə baxdı, elə bil sözüm bərk dəydi ona, ancaq büruzə vemədi. Dönüb gedə-gedə:

– Gələcəyəm, bir az dediklərimi fikirləş, – dedi.

Dedim get, ağzın əyilsin, əvvəl sözü deyirsən, ardını gözləmirsən ki, qarşı tərəf nə deyəcək.

Sabahısı yenə gəldi:

– Dukanının ikiqat pulun verirəm, al, get, ömür boyu ye, yat. İstərsən, kitab-mitab satarsan, nə çox yer, nə çox dukan, get, harada istəyirsən, dukan al, ancaq burdan get. Sən dədənin ruhu, buraları qarışdırma, qoy işimizi görək. Bax hamı səndən narazıdır, deyirlər, bu nə teatrdır, çıxardır.

A kişi, ta yaxşı, anladım, onsuz da bu ip sonda doğanaqdan keçər. Deməli, qonşularımın bir çoxu əlbir olub bu ipi, bağışlayın, bu iti qabağa ötürüblər.

Bir fikir qığılcım kimi beynimdə parladı, dedim, verməyən kişi deyil.

Bunu eşidən kimi kişinin sir-sifəti bir az açıldı və:

– Satmayan kişi deyil, – dedi.

Beləliklə, mən dukanımı ikiqat qimətinə satdım mal Kuruşa. Bütün kitabları, hər şeyi yığışdırdıb apardım evimizə.

Bir neçə gün sonra bazara baş çəkəndə uç təzə xəbər öyrəndim. Kuruş o pulun hamısını tək qoymayıb, bazar əhlinin bir çoxu ona köməklik edib. Kuruş öz qardaş oğlunu da ora gətirib dükanını ikiləmək istəyir. Bir az aralı dükanı olan Sərraf Xariş bu dəfə həmişəlik olaraq hər nəyi var, satıb xaricə köçmək istəyir.

Üç gün sonra yavaşca Sərraf Xarişin yanına getdim. Bir az dərdləşəndən sonra:

– Görürsən bu namərdləri, sənə gələndə pulu ikiqat sayırlar, ancaq mənim dukanlarımı yarı puluna da istəmirlər, bilirlər ki, mən tələsirəm, neçəyə olsa, satacağam, qiyməti öldürüb almaq istəyirlər, – dedi.

Dedim:

– Heç kimə demə, özüm sənin dukanlarına müştəriyəm, ancaq fikir eləmə ki, mən də namərdəm. Mən dukanlarını elə öz qiymətinə alıram, qalıb özün, öz vicdanınla nə çıxasan, çıxmarsan da, yenə varam.

Sevindi, gözləri güldü. Bilirdi ki, pulum da var, alver nəqd olduğuna görə elə oturan kimi sözü kəsdik, razılığa gəldik, qiymətini də danışdıq. Xülasə, işi başladıq da, qurtardıq da.

Bir neçə gün sonra bazarda iki böyük tablo gözə çarpırdı:

Sayman kitab dükanı-1

Sayman kitab dükanı -2

Mal Kuruşun gözləri bunları görəndə az qaldı yerindən çıxsın. Gülə-gülə:

– Necəsən, siçanqulu bəy, hardasan? Heç halımı soruşmursan? Sən də yaxşı "qonşu qızı" deyilsənmi? – dedim.

Ağzını açdı:

– Gədə, bu nə oyundur yenə çıxardırsan...

Qoymadım çox xarablasın:

– Get, ağzın əyilsin, elə bilirdin, tək özün zirəksən. Bu iki dükanı dörd eləmək istəmirsən ki?

Başını saldı aşağı, getdi, hələ də mənimlə danışmır, ancaq mən onu görəndə ancaq özü eşidəcək qədər səsimi ucaldıb deyirəm: "Mal da adamdan küsərmiş".

Arzu HÜSEYN

***

Heç olmadı bu dünyada bir kimim,
Çözülmədi alın yazım sirr kimi.
Yer olmadı mənə uzaq yer kimi,
Göy olmadı mənə yaxın göy qədər.

Buxar oldu toxunduğum hər nə var,
Duman oldu, yelə getdi arzular.
Sübhə qədər kirimədi kaman-tar,
Sızlatmadı ürəyimi ney qədər.

Nəyin qalıb qəmdən başqa bəridə?
Yadlar çətin gözlərini kiridə.
Ulduzların arasında biri də
Bənzəmədi gül üzünə ay qədər.

Yol görmədim sənə gələn yol kimi,
Boyun əydim yoxluğuna qul kimi.
Bal olmadı damağımda bal kimi,
Dodağından qopardığım pay qədər.

ƏLVİDA

Yadımdaydı o baharın istisi,
Nəfəs almaq zaman qədər dar idi.
Otağımda siqaretin tüstüsü,
Eh, yoxluğun necə də aşkar idi.

Pəncərəmdə neçə ayın toz qatı,
Şüşələrin gözü görmür küçəni.
Yaşayırdım bu zəhrimar həyatı,
Qədəh-qədəh bitirərək gecəni.

Yazıb, cırıb tulladığım vərəqlər
Döşəmədə tör-töküntü, zir-zibil.
O güzgüdən mənə baxan adamı
Biri qəsdən öldürürdü elə bil.

Biri qəsdən yox edirdi günbəgün,
Ümüdləri əl üzmüşdü duadan.
Dağılırdı, tökülürdü büsbütün,
Yıxılırdı öz içindən bu adam.

Yadımdaydı qərarsız addımların,
Hər sözünün arxasında bir nida.
Topladığın çantaların, bir də ki
Gözündəki iki damla əlvida.

Ah, dalınca necə çaxdı göy üzü,
Səpələndi küçəmizə yağışlar.
Getmə, dedim, ay günəşim, gündüzüm,
Titrəyərək pıçıldadın: Bağışla!

Ah, yağışlar izlərinə toxundu,
Qara bulud toran etdi gündüzü.
Ah, o səhər necə qəlbim sıxıldı,
Ah, dalınca necə çaxdı göy üzü…

DÖNMƏDİM

Dodaqlarında donub qalmışdı
Adımın ilk hərfi,
Sonra yavaş-yavaş pıçıldadın məni.
Gözlərinin içində çağlayan
Dəniz idim,
Elə indi daşacaqdım yanaqların boyu,
Səssiz idim, daşmadım.

Dodaqlarında donub qalmışdı
Adımın son hərfi,
Sonra yavaş-yavaş susdun məni.
Gedişimi izləyirdin gecənin bir küncündə,
Elə indi dönəcəkdim geri, elə indi, bu saat
Öpəcəkdim səni,
Dönmədim.

ÜMİDSİZ

Artıq bizi xilas etməz gümanlar,
Bağışlayar nə göy, nə də yer bizi.
Yanımızda ögey-ögey adamlar,
Yanımızda yad nəfəslər var bizim.

Dodağında neçə öpüş izi var,
Bu idimi inamımın bədəli?
Yatağında fərqli-fərqli qadınlar,
Yastığında neçə qərib saç teli.

Başqasına sarılmışam özüm də
Ümidsizlik ürəyimi sıxanda.
Heç onda da getməmisən gözümdən,
Heç onda da düşməmisən yaxamdan.

Bir ümidi min yalana yem etdin,
Xatırlayıb saflığımı gülürəm.
Nə etdinsə, ikimizə sən etdin,
Nə etdimsə, mən elədim, bilirəm.

Başqaları göz yaşımı qurutdu,
Ürəyimi ovutmadı, bağışla.
Dodaqlarım öpüşünü unutdu,
Yanaqlarım unutmadı, bağışla...

Yollarından əl üzübdür nəzərim,
Xəbərsizdi ölümümdən küçələr.
Yuxudadı balıqları Xəzərin,
Mürgüləyir yuvasında sərçələr...

***

Necə oldu, yollar səni yormadı?
Gecə oldu, ulduz aya qovuşdu.
Taleyimə yazdım səni, olmadı,
Uşaq kimi olmazlara alışdıq.

Xəzan oldu hələ dünən gül açan,
Hədər oldu neçə-neçə fəsillər.
Dirənmədik bu sevgidə sonacan,
Aramızda soyuq yellər əsirlər.

Bu nə gücdür dalğaları oyadan?
Dəyişibdir çalarları rənglərin.
Birdəfəlik çıx ömrümdən, ay adam,
Kəs arasın məktubların, zənglərin.

Necə oldu, yollar səni yormadı?
Boyun əydim intizara, dərdə mən.
Bu nağılın sonu gözəl olmadı,
Almaları cin apardı, birdənəm!

***

Keçər ömrümüzdən illər, fəsillər,
Dəyişər tanış da, dost da dəyişər.
Bütün ümidlərdən ümid kəsilər,
Yadına o qərib arzular düşər.

Deyərsən dönəydim o günə yenə,
Sözünü sovurar küləklər səhər.
Kim bilir, bəlkə də, sənin yerinə
Ağlayar buludlar, darıxar şəhər...

XATİRƏ

Səni xatırlamaq istədim bu gün,
İllər xatirəmin üstünə kölgə.
İki yad adamıq, bilirəm, gülüm,
Dünyada hər kəsdən tənhayıq, bəlkə.

Səni xatırladım, gülüşlərinlə
İçimə qəribə ağırlıq çökdü.
Doldu gözlərimin qəm buludları,
Getdiyim hər yerə xatirə tökdü.

Hər yer xatirənmiş, mənsə fikirli,
Neçə il yaşadım bundan xəbərsiz.
Sən demə, dünəndə ilişib qalan
Qanadı qırılmış xatirəyik biz.

Ömründə nə idim, sevinc, səadət?
Yoxsa ki bəxtinə hopan çənmişəm?
Sən demə, mən səni unutmamışam,
Təpədən-dırnağa xatirənmişəm...

BİR DƏ İNANMAQ

Mənim darıxmağa adamım yoxdur,
Elə tələsməyə görüş yerim də.
Bütün sevinclərim düyünə dönüb,
İlişib alnımın qırış yerində.

Tuturam kofeyə halsızlığımı,
Yarpağa dönürəm saralıb düşən.
Mən ki bu dünyaya yalqızlığımı
Özümlə bərabər pay gətirmişəm.

Duyduğum vədlərə inanmam daha,
Sözlərin qüdrəti sovruluncadı.
Həvəsim qalmayıb qanad açmağa,
Çətini bir dəfə yoruluncadı.

Qovuram fikrimdən kor gümanları,
Qayğılı gözlərim hələ yol çəkir.
Çətindir unutmaq yaşananları,
Təzədən birinə inanmaq təki.

ƏLVİDA AYRILIQ DEYİL

Anlaşa bilmədik nə sən, nə də mən,
Bəs niyə ürəyim yanan ocaqdır?
Əlvida ayrılıq deyil, birdənəm,
Ayrılıq, əslində, darıxmamaqdır.

Mən sənə nə deyim?.. O yol, o da sən,
İntizar yolunun üzü gecədir.
Əlvida ayrılıq deyil, birdənəm,
Ayrılıq ümidlər can verincədir.

Demirəm, bu eşqin önündə əyil,
Sevgi qəfəs deyil, azad olmaqdır.
Ayrılıq həsrətdən boğulmaq deyil,
Ayrılıq onsuz da nəfəs almaqdır.

İndi əllərinin təsəllisi nə?
Özgə dodaqların dadı necədir?
Əlvida ayrılıq deyil, birdənəm,
Ayrılıq inadın tükənincədir.

İradə AYTEL

ÇİYƏLƏK QADINDAN MƏLƏK QADINA

Rəşad Məcidin "Səbəbi sənsən"adlı şeirlər kitabını oxuyarkən...

Rəşad Məcidin daxili dünyasına şeirlərinin köməkliyi ilə bələd oldum. Bulaq kimidir onun şeirləri – dumduru. O duruluqda Rəşad Məcidin iç dünyasını, sonra öz simanı görürsən, əyrini, düzü görürsən... İçirsən, sərin, dinləyirsən, həzin, ürəyəyatımlıdır. Bir sözlə, o bulaq özünü gizlədə bilmir, dünəndən bu günə bütün yaşadıqlarını sənə pıçıldayır – uşaq saflığı, məsumluğuyla...

O şeir bulağı həm də oxucu ilə danışmağı bacarır. Oxucu müəllifdən hali olur, onun keçirdiyi hissləri yaşayır, müəlliflə birgə sevir:

Tufan qalxır, külək dinir,
Göy gurlayır, şimşək dinir,
Yenə susmur, ürək dinir,
Yenə deyir, yenə: Sən! Sən!

Sevinir:

Baxdın – baxışlarını,
Güldün – gülüşlərini,
Öpdün – öpüşlərini,
Daddım, dadını sevdim.

Sevdiyi insanla canbir olur:

Kəbəm üçün sürünmüşdüm,
Nə gözəldir,
Nə ələdır
Dizlərimin sızıltısı...

Qısqanır, ayrılıq həsrəti çəkir:

Qoluma girəcək yenə də qızlar,
Əsən xəfif külək O olmayacaq.
Hansısa baxışlar nəsə deyəcək,
Nə arzu, nə istək O olmayacaq.

Və təəssüfə qapılır:

Səni gördüm...
Nə qanımdan od keçdi,
Nə canımdan həyəcan.
Bu çəkdiyim ah da
Canımda can verən
Bir eşqin son nəfəsidi, çıxdı.

...Darıxmaq haqqında minlərlə şeir yazılıb, mahnılar bəstələnib, rəsmlər çəkilib. Darıxmaq hamıda eyni olsa da, hər kəsin təsvir bucağı başqa cürdür. Rəşad Məcidin darıxmağı da özünəməxsusdur. Darıxmaqla onun arasındakı məsafə hansısa bucağa sığmır, dairə şəklindədir. O dairədə Öz – O – Sonsuzluq daim hərəkətdədir:

Əllərim, barmaqlarım
Uzanır, uzanır,
Girir torpağın altına,
Mən sənsiz darıxanda
Min il əvvəlki
Sümüklərim sızıldayır.

Bu misralarda şair darıxmağın gözə görünməyən, irfani tablosunu yaradıb. "Quran-Kərim"in "Əraf" surəsində deyilir: "Küləkləri (yağış) rəhmətindən öncə müjdə olaraq göndərən Odur. Belə ki, küləklər (yağmur yüklü) ağır buludları hərəkətə gətirdiyi (daşıdığı) zaman Biz onları (buludları) ölü (qurumuş) bir torpağa tərəf qovur, ora yağmur endirir və onunla hər cür meyvə yetişdiririk. Biz ölüləri də (torpaqdan) belə çıxaracağıq".

Yuxarıdakı örnəkdə də müəllifin darıxmaq öncəsi içindən gözlərinə doğru yol alan, sonra torpağa enərək, torpaq rəhmindən doğulan mətnaltı (duyğuüstü) bir işarə var. Bu işarə özü də dairə boyu dolaşır – Öz – O – Əbədiyyət! Və burada (darıxanda) zaman məfhumu öz dəyərini itirir. Darıxmaq özü zamana çevrilir, indiki, min il əvvəlki, min il sonrakı, amma sümükləri sızıldadan bir zamana...

...Torpaqdan, havadan, sudan, insanlardan... ibarət Vətən məfhumu yaradıcı kəslərin dilində leyliləşir, qutsallaşır. "***Ruhumun səndən, İlahi, budur ancaq diləyi. Dayməsin məbədimin köksünə naməhrəm əli***." Bunu Mehmet Akif Ərsoy yazırdı. R.Məcid isə belə deyir:

Sənsən əzablarla dolu qürbətim,
Sənsən diz çökdüyüm Vətənim mənim!

Onun da tapındığı, güvəndiyi, alilərdən ali, ucalardan uca sandığı, əzabını, ayrılığını da şərbət bilib içdiyi Vətəndir:

Səndən uzaqlaşıb, sənlə yaşadım,
Daşıdım özümlə baxışlarını.
Fikrimdə gəzdirdim gülüşlərini,
Sənin hər kəlməndən bir sən düzəltdim.
Sənin bir sözünə söykənib yatdım,
Başqa bir sözündən Vətən düzəltdim.

Bir dəqiqəlik Füzuliyə dönək:

Edəmən tərk, Füzuli, səri-kuyin yarın,
Vətənimdir, – vətənimdir,
– vətənimdir, – vətənim.

Ədəbiyyatşünasların dediyinə görə, buradakı dörd vətən sözündən birincisi doğulduğun torpaq, ikincisi ana bətni, üçüncüsü, bərzəx aləmi (insanların öldükdən sonra qaldığı müvəqqəti yer), dördüncüsü isə cənnətdir. Rəşad Məcid isə belə deyir:

Çıxırsan yavaş-yavaş,
Vətənimdən çıxırsan!
Beynimdən aralanıb
Bədənimdən çıxırsan.

Gətirdiyimiz örnəkdə "vətənimdən çıxırsan" fikri ana bətnindən çıxan şairin beşiyindən, torpağından da uzaqlaşaraq "yarından" aralandığını göstərir. Bu ayrılmaq (beyindən, bədəndən – materiyadan çıxmaq) torpağa – əbədiyyətə dönüşdür – yenə dairə, yenə sonsuzluq...

A.Bakıxanovun sufizm təmayüllü dünyagörüşünə əsaslansaq, şair mistik kamilləşmə yolu ilə vəhdəti dərketmə və fəna yolu ilə bəqaya (İlahi əbədiyyətə) qovuşaraq həqiqi xoşbəxtliyini tapır, sevgini tanrılaşdırır, əbədiləşdirir, dördlüyü yaradır (bilirik ki, 4 rəqəmi piafaqorçu numeroloji düşüncəyə görə, bitkinlik, bütövləşmək, tamamlanmaq anlamına gəlir – Can – Beyin – Bədən – Əbədiyyət. Əbədiyyətdə isə ayrılıq yoxdur...

...Rəşad Məcidin sevgi şeirləri başdan-başa təzadlarla doludur. Qarşı-qarşıya duran, mahiyyətləri ilə bəzən eyni, bəzən də kəskin şəkildə seçilən iki qütb - sonlu və sonsuz, nəfs və ruh, qaranlıq və işıq, ölüm və əbədiyyət, kəmiyyət və keyfiyyət və sair kimi...

Aşağıdakı örnəkdə şair qadına Platon və ya Caviddə olduğu kimi həm feminist, həm də mizogenist kimi yanaşır, qadını həm müsbət, həm mənfi işarələyir, ona həm mələk, həm də iblis kimi baxır:

Bilmədim iblissən, ya mələk, qadın,
Ətri, gözəlliyi çiyələk qadın.

Bu örnəkdə isə, siyasətçilərin dili ilə desək, sözügedən ikili yanaşma, sadəcə, daha çılpaq əks olunmur. Yuxarıda qadın iki zidd qüvvənin daşıyıcısı idisə, bu örnəkdə bir subyektin iki zidd qütbünün hər ikisini özündə ehtiva edir:

Gah həyat verirsən, gah qətlə fərman,
Əzizim, ən yaxşım, ən pisim mənim.

Birinci misalda ikiliyin birliyi, ikincidə birliyin ikiliyi əks olunur. Birincidə qadın yaradılan, ikincidə isə yaradandır. Çünki mələk və iblis yaradılan olduqları halda, öldürmək və diriltmək yaradana – Allaha məxsusdur.

Maraqlıdır ki, üçüncü bir parçada qadına münasibət baxımından yuxarıdakı iki örnək sintez olunur. Yəni qadın həm yaradılan, həm də yaradan kimi təqdim edilir:

Axır, bircə dəfə gəl düzünü de,
Allahım, mələyim, iblisim mənim!

Çağdaş dövrün şairi olan Rəşad Məcidin, tanınmış publisist, çoxsaylı siyasi-sosial məzmunlu yazıların müəllifi olan jurnalistin bu şeirləri orta çağ və XIX yüzil divan şeiri, yaxud XX əsr romantik poeziyası ilə yaxından səsləşir. İndi təkrar kimi çıxmasın deyə, Füzulidən deyil, onun ən istedadlı davamçısı Seyid Əzimdən sitat çəkəcəyəm:

Öldürür, gahi dirildir aşiqi qəmzən oxu,
Türfə sahirdir ki, həm canbəxş,
həm cəlladıdır.

Lakin divan şairləri ilə çağdaş şair arasında məsələyə münasibətdə mühüm bir fərq var. Füzulilər qadının Allahın təcəllası olduğuna sidqi-ürəkdən inanır. Müasir şairlər isə göylərdən yerə enib, inam bu dəfə qəlbin deyil, ağılın süzgəcindən keçir. Həyatın və zamanın dialketikası belə tələb edir. İstedad həm də öz zamanına məxsus duyğu və düşüncəni ifadə etmək bacarığıdır və Rəşad Məcid də ilk növbədə öz zamanının bədii təmsilçisidir.

Rəşad Məcid qadının ikili səciyyəsini ən müxtəlif versiyalarda verir. Amma bütün bu versiyaların bir sonucu var. Qadın ziddiyyətlərin bir-birinə döndüyü, keçdiyi, çevrildiyi çevrədir. Və çevrə kimi də əvvəli-sonu bilinmir, yəni əbədidir:

Həm müdriksən, həm uşaqsan,
Həm günahkar, həm də haqsan.

Yeri gəlmişkən, Hegelin ziddiyyətlərin bir-birinə çevrilməsi qanunu müasir şeirimzidə bir çox şairlərin, məsələn, Bəxtiyar Vahabzadənin də yaradıcılığında mühüm yer tutur ki, bunun özü də Füzuli poeziyasının təsiri kimi meydana çıxır. Məsələn, şair yazırdı:

Sevirəm nifrətin lap son həddini,
O, sevgi doğacaq, o, sevgi ancaq.

Bütün bunlar onu göstərir ki, Rəşad Məcid klassiklərdən tutmuş, müasirlərə qədər fərqli şairlərin timsalında milli poetik fikrimizlə dialoqa girir və çoxəsrlik milli şeirin qanuni varisi kimi meydana çıxır.

Rəşad Məcidin az qala istənilən şeirində təzadların vəhdətinə rast gəlmək mümkündür. Gəlin daha bir iki qütblü örnəyə diqqət edək:

Əynimə oturan ən düz libasım,
Boyuma biçilən kəfənim mənim.

Oxucu "kəfənim mənim" fikrini ilk olaraq "mənin" (müəllifin) kəfən geyinməsi, ölümün gəlişi, "qanına susayan düşmən"in kəfəninə çevrilişi kimi qəbul edir. Əslində isə bu fikrin özü də davamedicidir, əbədiyyətə gedən yol, bir həyatdan başqa həyata keçiddir.

Müsəlman ölkələrində insanın boyuna biçilən, var olan yeganə libas kəfəndir. Kəfəni dəyişmək mümkün deyil. Kəfən insana yalnız bir dəfə biçilir və ikinci birisi ondan istifadə edə bilməz. Həm də kəfən ağdır, heç bir ləkə götürmür. Əgər üzərinə ləkə düşərsə, həmin dəqiqə görünər. Kəfən pisliyi örtə bilməz. Dəfn olunmamışdan qabaq insanı qüsullayır və ağ kəfənə bürüyürlər. R.Məcidin fikrincə, sevdiyi qadın Allah yoluna çıxanda geyiləcək libasdır. Bu qadın onun can verən, yaxud da can alan sevgisi, bəkarətidir – kəfənidir.

Şair başqa bir şeirində də dolayı yolla evlərdəki, ocaqlardakı pislik-yaxşılıq, doğum-ölüm, bəkarət-günah kimi ziddiyyətlərin mahiyyətcə birliyindən danışır:

Bağlı pəncərədə dümağ pərdələr,
Kəfəndi, bələkdi, kim bilir, axı.

...Yenə də dairədə qovuşduq...

***

Hər səhər yuxudan durub
Bir də vurulacam sənə.

–deyir şair bir şeirində. Bu misraya dini tərəfdən baxsaq, günəşin dünyanı işıqlandırdığı hər gün Allahın günüdür. İnsanların həyatında açılan hər parlaq səhər Allahın səhəridir. Şair hər açılan səhər, hər Allahın günündə "bir də vurulacam sənə" deyir. Burada sevgi ilahiləşir, insan tanrılaşır. Tanrının bir adı da sevgi deyilmi? Bir başqa şeirdə də belə bir məqam var:

Elə et ki,
Sənə görə sevim, sənə görə yaşayım.
Diriyə sənə görə sevinim,
Ölüyə sənə görə ağlayım.

Bu, sevgiyə tamam başqa yanaşmadır. Bu günə qədər yazılan şeirlərdə belə yanaşma olmayıb. Bu, Tanrının bəndənin yarı, bəndənin isə Tanrıda var olmasıdır:

Səni göylərə qaldıran
O qüvvəyə əyil hər an.

O qüvvə sevgidir. Tanrıya və Tanrının insanlara verdiyi ən ali hiss – Sevgi!

Rəşad Məcid şifahi ədəbiyyatdan qaynaqlansa da, yazılı ədəbiyyatı yaradanlardandır. Onun heca üstündə yer alan şeirləri yazılı ədəbiyyatın miniatürü kimi cilalıdır. Aşağıdakı örnəkdə qafiyələrin cilvəsinə diqqət edin:

Ha çalışdım, ha yenə
Çatmadım sən gedənə.
İncimə, bircə dənəm,
Yenə vaxtım qalmadı.

Yuxarıda da qeyd etmisəm, Rəşad Məcid poeziyası realizmdən rişələnsə də, içindəki ilahilikdən, sufilikdən uzaq düşə bilmir, irfana qanad açır...

Küsüb dayanma qarşımda.
Gizləsən də, görünəcək
Gülüşündə, baxışında,
Neyləsən də getməyəcək
əlindəki öpüş yeri.

"**Üzündə göz izi var/ Sənə kim baxdı yarım**"; "**Güli-rüxsarinə qarşu gözümdən qanlı axar su/ Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı?**" kimi...

***

"Mənzərə" şeirini oxuyuruq. Şeirdə Nizaminin Çin gözəli, Vaqifin Pərisi, Aşıq Ələsgərin Güləndamı göz önündə canlanır. O, heyrət toplumundan (yaxud toplum heyrətindən) rəssam dəqiqliyi ilə elə gözəl tablo yaradır ki, oxucu o tablodakı gözəli görmədən onun boy-buxununa, yerişinə, ədasına vurulur:

Bir payız anına gəlmişdi bahar,
Küçələr, səkilər yırğalanırdı.
Bağlı pəncərələr, sakit eyvanlar
Heyrətli gözlərdə sırğalanırdı...

Bu, yaradıcı insan bacarığının göstəricisidir. Obyektin adını çəkmədən göstərmək, tanıtmaq...

...Boynu əyri bitib yeyin gedənin,
Arxada qalanlar tələsiyirdi.
Köylü uşaqların içində biri
Qonşusu çıxmağa həvəsiyirdi...

Tabloya bütöv halda nəzər salsaq, qıza heyrətlə baxan adamları – karıxan sürücünü, bahalı maşında əyləşsə də, sadə gözəlin sehrinə düşən oğlanı, bir anlıq yerində donub qalan əsgəri görərik. Bu gözəl o qədər qənirsizdir ki, hətta başqa gözəllər də ona heyrətlə baxır... Bu qız Vilyam Buqronun "**Sadə qız**"ıydımı, Rafael Santinin "**Gözəl bağban qız**"ı, Yan Vermeyerin "**Mirvari sırğalı qız**"ı, Leonardo da Vinçinin "**Mona Liza**"sı, Qustav Klimtin "**Adel Blox**"u, Eduard Manenin "**Bahar**"ıydımı, adamların belə heyrətinə səbəb olmuşdu?..

...Rəşad Məcid qadın gözəlliyinə, qadına dəyər verməyi çox gözəl bilir. O, təkcə poeziyasında deyil, həyatda da ətrafındakı qadınlara çox diqqətlə yanaşır, ana, bacı, həyat yoldaşı, gəlin, sevgili... məsafəsindən bu zərif məxluqların könlünü oxşamağı bacarır.

Bu örnəkdə qadına verilən dəyərə diqqət edək:

Bilirəm, yıxsan da, kəsən deyilsən,
Bayrağa dönməkdir sənə yıxılmaq.

Şair qadına yıxılmağı ən uca zirvə bilir. Həm də yıxıldığı o ucalıq sevgi boydadırsa.
Bayraq anadır! Bayraq övladdır! Bayraq torpaqdır! Bayraq Vətəndir! Bayraq qürurdur! Bayraq uca başımız, qürurlu sinəmiz, Şəhidlərimizin bəkarət kəfənidir! Bayraq Cənnətdir! Bayraq Allahdır! Qadına (sevgiyə) yıxılmağın Bayrağa dönüşü isə bütün bu ucalıqların məcmusu, hər faninin ulaşa bilmədiyi zirvədir. Və o zirvə əbədiyyətdir:

Torpaqdan dikəlib bir zoğun üstdə,
Yarpağa dönməkdi sənə yıxılmaq.

Və o sevgi dindir:

Sakit həyatıma bahartək gəlib,
Coşub, aşıb-daşan səsim-ünümsən.
Dünyamı dəyişən yeni məzhəbim,
Təzə tapındığım sirli dinimsən.

Rəşad Məcid söz adamıdır. "**Pakdır o Allah ki, öz xəzinələrini Kaf və Nun arasında qərar verib**".

Rəşad Məcid Kaf və Nuna – "Ol!"a sadiqdir. Söz onun tapındığı ən uca zirvədir:

Bizi nə var, nə dövlət,
Söz qaldırır yuxarı.
Təyyarədən, liftdən də
Tez qaldırır yuxarı.

...Rəşad Məcid Ağcabədi rayonunda anadan olub. Ömrünün ən şirin çağı olan uşaqlığı Ağdam şəhərində keçib. Otuz ilə yaxın idi ki, hamımızın ürəyində yara olan Qarabağ həsrəti Rəşad Məciddə ikiqat qubarlamışdı – o, uşaqlıq illərinin ən gözəl anlarını yaşadan Ağdam torpağından uzaq düşmüşdü.

Bu günə şükür! Ali Baş Komandanımızın və Müzəffər Ordumuzun sayəsində bu nisgilimiz vüsala döndü.

Rəşad Məcidin başqa gözəl kitabları, başqa gözəl şeirləri də var – sosial şəbəkədən tanıdığım, nəvələri İpək və Dəniz.

Kitablarınızın, kitab-kitab övladlarınızın, şeir-şeir nəvələrinizin səsi ucalardan gəlsin, şair!

Günay ÜMİD

AÇ QAPINI

Eşidirsən?!
Və ya
Eşitməmək mümkünmü qapı səsini?!
Çoxdan olub e,
Lap çoxdan...
Nə vaxt olub, xatırlamıram,
Bu qapını öz üzümə
Özüm bağlamışdım axı.
İndi o qədər yolu
Gedişimin üstündən keçib
Necə gəlmişəm, İlahi?!
Əllərim də məndə qalıb,
Qapını da döyə bilmirəm.
Nə qədər çox şey almışam özümdən,
Nə qədər çox şey alıb özüm məndən...
Təngnəfəs pıçıltı səsləri döyür qapını,
Bilirəm, ürəyin üşüyür, – deyir.
Yolları ilmə-ilmə söküb
Bir misra şeir toxumuşam,
Ürəyinin çiyninə salacam, üşüməsin.
Aç qapını!
Sonuncu ilməsi qalıb bu yolun,
Bir addımlıq ümidəm.
Aç qapını!
Bəlkə, elə ölmüşəm?
Aç qapını!
Yeni gəlməmişəm ki?
Mən yenidən gəlmişəm!

KARANTİN DÜŞÜNCLƏRİ

Ağ vərəqə rəngbərəng
Gül-çiçək əkən qızım,
Buludları günəşdən
Çox böyük çəkən qızım,
Mən də öz dərdlərimə
Gülən üzlər çəkmişəm,
Bütün olmazlarıma
Təsəllilər əkmişəm...

Pambıq şəkəri
Əlinə cox yaraşanım,
Şirin- şirin danışanım,
Ağlımın fərmanını
Ürəyə dedirtmişəm,
Səbrin qırıntısını
Ümidə yedirtmişəm...

Haçan ki
Yarım qalmış düşüncələri
Tamamlamaq istədim,
Özüm kiçildim, qızım...

Bax, gecə yenə
Barmaq ucunda girdi otağıma.
Düşüncələrdən qalma yorğunluğum
Sərildi yatağıma...
Üstü açıq qalmış gözlərimə
qapaqlarını örtdü qaranlıq...

Göz gözü görmür
İçimin viranlığında,
Sən bilməzsən bu zülmət
Nələri aydınladır qaranlığında...

İlahi, bu nə darıxmaqdı
İçimdə tufan qoparır?
İlahi, bu nə darıxmaqdı?
Adam lap həsəd aparır...

Pambıq şəkəri
Əlinə çox yaraşanım,
Rəngləri çox qarışdırma!
Çəkmə günəşin önünə gecəni, körpəm.
Rəsmindən ümid saçılsın,
Mənim zülmətimdə səhər açılsın...

ACI ŞOKOLAD...

Bəlkə də, tam başqa cür rastlaşacaqdıq...
Məsələn, mən yorğun bir gecənin
Taqətsiz sabahına oyanacaqdım...
Sən zəngli saatı susdurub yenidən yatacaqdın...
Və o gün tələsik
Özünü itələyə-itələyə çıxaracaqdın küçəyə,
Hind filmlərindəki kimi toqquşacaqdıq...
Yerdən toplayacaqdın əşyalarımı,
Tələşının nəfəsi
Baxışlarımda kəsiləcəkdi.
Gülüşlərinin pıçıltısı
Acı şokolad dadacaqdı...

Və ya kimsə tanış edəcəkdi bizi...
Qırıq-qırıq kəlmələrin arxasında gizlənəcəkdi
cəsarətimiz...
Ocağa daşıb tökülmüş qəhvə qoxusu
Və yanmış şabalıd ətri
Tüstü-tüstü sevişəcəkdi
Çaşqınlığımızın önündə...
Beləcə, bir ömrün qucağında
Öz hekayəmizə
Ailə-ailə, övlad-övlad dolacaqdıq...
Birləşib, bəşər olacaqdıq...

İndi mən öz hisslərimin
Məsum analıq çağında,
Sən isə öz hekayənin,
Nağılının tən ortasında.

İndi necə tanış olduq,
Yaddaşına gec düşər.
Çevirdikcə vərəqləri
Ürəyinə güc düşər.

İndi qismətimin səsi
Gah susar, gah da bağırar.
Yeni nağıl dinləməyə
Səni qızın səsləyər,
Məni oğlum çağırar.
İndi alın yazısına
Yolun varsa, bir addım gəl.
Daha qələmi qırmağa
Qoymaz əlimi tutan əl...
Məni süslə övladının xəyalında –
Qırmızı donlu, çətirli...
Nağılda qalsaq, yaxşıdır,
Acı şokolad dadında,
Yanmış şabalıd ətirli...

QORXU VƏ MƏRHƏMƏT

Mən qorxaram heyvanlardan...
Hələ həşəratları demirəm –
ayağıma dəydimi,
Kafkanın "Çevrilmə"sinə dönüb
Sarar bütün sakitliyimi.

İndi vicdanıma sarılan
Pişik yavrusuna
Necə izah edim ki,
Qorxmasam,
Mərhəmətim
Qarşındakı çörək qırıntısından daha böyukdü!
İslanmış tüklərin ürəyimə yükdü!!!

Bu gecə
Duaya qalxan ovuclarım
Çətir olacaq sənə,
Fondakı miyoltu səsinə qarışacaq
Bütün çarəsizlərin fəryadı.
Allaha deyəcəm ki,
Külək az əssin...
Yağış tez kəssin...

ODUNÇU

Gecənin ayaq səsləri
Qara-qara döşənir
Yerin qulağına!..
Bir külək üşüyür
Bu səsin sorağına.

Bu ağac yenə də
Qamətindən asdığı
Rüzgarı yelləyir
Beşik budaqlarında.

Dizləri qabıq-qabıq çatlamış,
İllər yorğunudu bu ağac...
Ona torpaqda da uzanmaq yasaq...

Bu odunçu, axır ki,
Dizlərini bükdü ağacın,
Alov-alov uzanıb uyudu ağac.
Tüstüsündə gecə boğuldu,
İstisinə şeir doğuldu...
Küləksə ulaya-ulaya
Beşiyini axtardı,
Axtardı, axtardı...
O ağacın tüstüsünü çəkib ciyərlərinə
Yuva oldu beşiyinə...
Tanrının dizlərinə qoyub başını
elə bərkdən susdu ki...
Bu sükutun səsində
Allah da susdu...

ÜLKƏR ÜÇÜN

Bizim küçədən bir şəhər o yanda,
Bizim evdən bir dünya o tərəfdə
İslanmış saçlarını günəşdə qurudan
O qızın batan yanaqlarında
Bir öpüş üşüyür...

Göyərçin qanadına dönmüş
Baxışlarında
Çırpınır kirpikləri...

Əgər bu şeiri
Küləyin əlinə sıxışdırıb
Allaha məktub göndərsəm,
Şairliyimə gülər
Tanrı...
Günəşin gözlərini qamaşdıran
Ürəyinin işığı
Bizim küçədən bir şəhər o yanı,
Bizim evdən bir dünya o tərəfi
Nuruna bələyər...

İndi aç ovuclarını
Göy qurşağıyla ilıq-ilıq
Yu ümidlərinin üzünü... Assorti darıxmaq...
Heç kəs qayıtmadı, heç kəs dönmədi...
Kölgəsi sakitliyinin ayağına dolaşan
Bu adam yenə də darıxdı...
Yenə
Özünü topladığı yerdə görəndə karıxdı...
Yenə də
Küçələrin daş ürəyinə
Dabanları ağrısını pıçıldadı...
Bu gününü də kədərinə həsr etdi...
Yenə də
Əlləri cibinin yaxasından asıldı...

Yenə də fəryadını
Fit çalan dodaqlarının arasından
Bulud kimi üfürdü havaya....
Bu günü də ahının rəngiylə boyadı qaraya...
"Kaş ki"lərinin arasında itirdi
Kimləri, nəyi...
Yenə də
Özünə etiraf edə bilmədi çox şeyi...

Noolsun e...
Deməsə də, çoxdan öyrənmişdi
Sevginin iki insanın bir-birinə əyilmə radiusu olduğunu,
Bütün hesablarının cəminin "o" elədiyini...

İndi öz kölgəsində oturan bu adam
Xatirələrin səsini kəsmək üçün
Susqunluğuyla qışqırır
Darıxmağın üstünə...
İndi hər kəsi
Baxışlarıyla yola salır...
İndi
Dünyanı səssizə alır...

Bir azdan o adam
Dünənki kimi
Özünü küçədə tək qoyub evinə qayıdacaq...
Səhər yenə onu
darıxmağı oyadacaq.
Yenə it ulayacaq içində,
Hamını qapacaq.
Ayaqlarını qucağında,
Başını dizlərinin üstündə tapacaq...
Taqəti bir az daha çox
Pencəyinin qucağında qırışacaq...
Və
Göyə üfürdüyü qara buludun hıçqırıq səsi
Şimşək olub
Göyün bağrını çatladacaq...

Mahirə NAĞIQIZI,
filologiya üzrə fəlsəfə doktoru, professor, ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru

XALQIN BAĞRINDAN QOPAN DUYĞULAR POEZİYASI: Aşıq Ələsgər 200

Bu il öz yaradıcılığı və həmin yaradıcılığı ilə ancaq folklor ədəbiyyatımızın deyil, ümumən ədəbiyyatımızın bəlli qatını yaratmış, ancaq Cənubi Qafqazda yox, Şərqi Anadolu, Orta Asiya, İranda kifayət qədər məşhur olan Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin anadan olmasının 200 ili tamam olur. O, Azərbaycan folklor sənətinin o nümyandəsidir ki, yaradıcılığının fiziki və poetik ümumi çəkisini istənilən xalqın bütöv folkloru ilə müqayisə etmək olar. Yaşadığı yüz ildən artıq ömrünün 85 ilini ancaq Azərbaycan xalqının mənəvi xəzinəsinin deyil, həm də bəşəriyyətin qovuşmağa can atdığı ən işıqlı ideallar dəfinəsinin zənginləşməsinə sərf edən fenomen sənətkarı buna görə ancaq Azərbaycan arealında təqdim etmək olmur. Onun yaradıcılığının ümumbəşəri dəyərlər sırasında qorunan dünya qeyri-maddi mədəni irs nümunələri siyahısına salınması da yuxarıdakı fikrimizin təsdiqidir.

Ustad aşığın Azərbaycan ədəbiyyatında və Azərbaycan insanının mənəvi həyatında oynadığı bu rol Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Aşıq Ələsgərin 200 illik

yubileyinin qeyd edilməsi haqqında" 2021-ci il fevral ayının 18-də imzalanmış sərəncamında bir daha xatırlanır. Azərbaycan cəmiyyətində o həqiqət də xatırlanır ki, xalqımız və onun milli dəyərlərinin formalaşmasında rol oynamış insanlara, tarixi hadisələrə münasibətin dövlət səviyyəsində ifadəsinin əsası ümummilli liderimiz tərəfindən qoyulmuş siyasətin davamı olan addımdır.

Aşıq Ələsgər yaradıcılığının poetik yükü və onun miqyası Azərbaycan ədəbi tənqidinin formalaşmağa başladığı ilk vaxtlardan diqqəti çəksə də, onun tədqiqatlara cəlb edilməsi, öyrənilməsi və təbliği istiqamətində, təəssüf ki, əsaslı addımlar atılmamışdır. Paradoksal olsa da, o gerçəkliyi qeyd edək ki, XIX əsrin 40-cı illərindən doğulub yaşadığı Göyçə mahalında, Qarabağ, Şərur-Dərələyəz, Zəngəzur, Qarakilsə, Şirək, Şörəyil, Ağbaba, Qars və Qağızman, İqdır, həmçinin Anadolunun içərilərinə, İran və Dağıstana qədər uzanan geniş arealda getdikcə məşhurlaşan, aşıq və el şairləri arasında unikal şeirləri ilə seçilən Aşıq Ələsgər ədəbiyyatşünaslığımızda layiq olduğu səviyyədə, kifayət qədər araşdırılmamışdır.

Bu, bəlkə də, ümummilli liderimizin taleyinə yazılmış missiya ilə bağlıdır ki, XIX-XX əsr folklor sənətimizin azman sənətkarı Aşıq Ələsgərin ədəbi irsinin öyrənilməsi, adının əbədiləşdirilməsi işində Heydər Əliyevin danılmaz xidmətləri oldu. Məhz Azərbaycanda siyasi rəhbərliyə yenicə gəlmiş ümummilli liderin təşəbbüsü ilə akademik Aleksandr Mixayloviç Proxorovun redaktoru olduğu, 1969-cu ilin sonlarında çap edilən 30 cildlik "Böyük Sovet Ensiklopediyası"nda Aşıq Ələsgər haqqında böyük bir məqalə verildi. Bundan iki il sonra, 1971-ci ildə "Aşıq Ələsgərin anadan olmasının 150 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan SSR hökumətinin qərarı qəbul olundu. 1972-ci ildə isə Sovetlər İttifaqının paytaxtı Moskva şəhərində təntənəli yubiley tədbiri keçirildi. Həmin tədbiri açan görkəmli rus şairi Mixail Lukanin "Bu gün Moskvada XIX əsrin 40-cı illərindən başlayaraq, 80 il müddətində indiki SSRİ xalqlarının dilində sadə insanların yaşantılarını ustalıqla ifadə edən böyük el şairinin anadan olmasının 150 illiyinin" qeyd edildiyini bildirdi. Həmin tədbirdə Aşıq Ələsgərin həyatı və yaradıcılığı barədə geniş məruzə ilə çıxış edən Azərbaycan Xalq yazıçısı Mirzə İbrahimov Aşıq Ələsgəri "xalqın ürəyindən doğan şair" olaraq təqdim etdi. Maraqlı çıxışlardan birini Ermənistan Yazıçılar İttifaqının rəhbəri, sonralar ən qatı millətçi, türk düşməni kimi məşhurlaşacaq yazıçı Sero Xanzadyan, "Ermənistan dağları, danışın" kimi milli düşmənçiliyə açıq çağırışlar edəcək. O, üzünü möhtəşəm salonda əyləşən insanlara tutaraq bunları demək zorunda qalacaq: "Göyçə gölünün sahillərindəki Ağkilsə kəndində dünyaya göz açan Aşıq Ələsgər xalqın bağrından qopan sənətkardır. O, öz əvəzsiz yaradıcılığında insani nəcib duyğuların ən böyük tərənnümçüsü ola bildi".

Düzdür, həmin çıxışında Sero Xanzadyan sonrakı əsərlərində milli qəhrəman səviyyəsinə qaldıracağı 1918-1920-ci illər Ermənistandakı daşnak hökumətinin Göyçə mahalında azərbaycanlılara qarşı həyata keçirdiyi qırğınlardan birtəhər qurtara bilmiş 97 yaşlı Aşıq Ələsgərin əzabları barədə danışmadı. O zamanlar Sosialist Əməyi Qəhrəmanı adını daşıyan yazıçı cəmi 16 il sonra barəsində danışdığı böyük sənətkarın məzarüstü abidəsinin vandalcasına məhv ediləcəyi barədə hansısa eyham vurmurdu...

Həmin il, 1972-ci ilin yazında aşığın vətənində, Göyçə gölünün sahillərində Azərbaycan incəsənət və mədəniyyət nümayəndələrinin iştirakı ilə möhtəşəm tədbir təşkil edildi. Yekun yubiley tədbiri isə Bakıda, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyevin iştirakı ilə keçirildi. Sovet İttifaqının bütün respublikalarından, həmçinin Moskva və Leninqrad şəhərindən gəlmiş ədəbiyyat və incəsənət xadimləri heç bir təhsili olmayan, ancaq rus və sovet deyil, dünya ədəbiyyatının klassiklərindən birinin dediyi kimi, "xalq universitetini" bitirmiş böyük sənətkarın hikmətinin işığına yığışmışdı. Həmin tədbirdə çıxış edən Azərbaycanın Xalq şairi Süleyman Rüstəm ustad Ələsgərin poeziyasının güc mənbəyindən danışırdı: "Şeirləri ilə könülləri fəth edən Aşıq Ələsgər poeziyasından Vətən torpağının nəfəsi duyulur, sanki Vətən torpağının gözləri oxşayan bütün çiçəklərinin ətri və rəngi o şeirlərə hopub. Buna görə də Aşıq Ələsgər poeziyasını xəzansız gülüzara bənzətsək, yanılmarıq".

Aşıq Ələsgər təkcə aşıq şeirimizin ən populyar nümayəndələrindən biri deyil, o həm də 90 ilə

yaxın müddətdə Azərbaycan xalqının canlı salnaməsi olmuşdur və hesab edirik ki, bu salnaməni təşkil edən o şerilər hər hansı bir cüng qədər xalqımızın tarixindəki müəyyən məqamlara işıq sala bilər. Bunlardan əlavə, onun poeziyasındakı dil materialları dil tariximizi araşdıran mütəxəssislərimiz üçün əvəzsiz mənbədir. Onun poeziyası bol həyati müşahidələrlə zənginləşdirilmiş, həm məzmun, həm forma rəngarəngliyi; saf, duru xalq dilindən istifadə baxımından türk şeirinə misilsiz xidmətlər göstərmişdir. Bu poeziyada söz sənətkarının canlı müşahidələrə istinadla öz yaşantılarını başqalarının hiss və duyğuları ilə əlaqələndirməyini, onların bədii ümumiləşdirmələrlə bəşəri mənalar daşıdığını görmək olur. Və buna görədir ki, bu bənzərsiz poeziya nümunələrində əsas mənbə və məxəz lirik qəhrəmanın qəlbən yaşadığı həyatın özüdür. Aşıq Ələsgərin poetik dili bu yaradılmış həyat həqiqəti lövhələri üçün başlıca rezervuardır. Həmin rezervuarın yaranma, təşəkkül və zənginləşmə zamanının yaşı isə min illərlə ölçülür.

Dodaqdəyməz, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı, divani və digər şeir növləri ustadın yaradıcılığında xüsusi çəkiyə malik poeziya nümunələrindəndir.

Özü sonralar aşıq məktəbini yaradan Aşıq Ələsgər doğulduğu, boya-başa çatdığı Göyçənin ən məşhur ustad aşıqlarından birinin, qızılvəngli Aşıq Alının yanında şəyird olmuş və aşıqlıq sənətinin sirlərini öyrənmişdir. O, həmin sirlərdir ki, əsrlər boyu yığılmış və Azərbaycan aşıq məktəbləri arasında seçilən Göyçə aşıq məktəbinin fundamental əsaslarını yaratmışdır. Buradaca gerçək olan və klassik folklorşünaslarımızın yekdil olmasa da, ümumi rəyini yada salırıq ki, ayrı-ayrı aşıq məktəbləri təsnifatlansalar da, onların hamısı vahid Azərbaycan aşıq məktəbini təmsil etmişlər. Qəbul olunan gerçəklik isə belədir ki, həmin məktəbin yaradıcıları sırasında XV əsrin ortalarında Göyçə mahalının Sarıyaqub kəndində anadan olub Miskin Abdal adı ilə ədəbiyyat tariximizə düşən Seyid Hüseynin adı xüsusi olaraq çəkilir. O, Ərdəbil şeyxlərinin ən sınanmış müridləri kimi Göyçədə sufiliyin təriqət ideyalarının yaranmasına hamilik etmiş nəsil şəcərəsinin növbəti həlqələrindən biridir. Miskin Abdal Şah İsmayıl sarayında aşıq-sufi ədəbiyyatının banisi, Şah İsmayıl sarayının ən müqtədir təmsilçilərindən biri kimi tanınır. O, 1524-cü ilin mayından, şahın ölümündən sonra Göyçə mahalına qayıdır, Sarıyaqubda açdığı məktəblə mahalın elm, irfan, sənət dünyasında mühüm rol oynamaqla, əsrlərlə ömrü olacaq Azərbaycan aşıq mühitinin formalaşmasında əvəzsiz xidmətlər göstərir. Miskin Abdal sağlığında özü bir əfsanə idi və bu əfsanə, sənətkarın heyrətamiz qoşmalarında bu gün də yaşayır. Onun bu günə qədər populyarlığını qoruyub saxlayan şeirləri var.

Miskin Abdalın müasirlərindən olan, indiki Cəbrayıl rayonunun Diri kəndində doğulan, sonralar Aşıq Qurbani, Dirili Qurbani kimi ucsuz-bucaqsız Azərbaycanda, bütün Qafqazda tanınan, Miskin Abdal ilə bərabər fateh hökmdar və incə ruhlu şairin, dövrünün elm və ədəbiyyat xadimlərinin ən böyük hamisi sayılan Şah İsmayılın-Xətainin sarayında Qurbani, XVI əsrin sonları – XVII əsrin əvvəllərində Güney Azərbaycanda yaşayıb-yaratmış görkəmli şair-aşıqlardan Abbas Tufarqanlı, XVII əsrin ən qüdrətli aşıqlarından olan Sarı Aşıq, XVIII əsrin sonlarından XIX əsrin birinci yarısına qədər Göyçə aşıq məktəbinin möhkəmlənməsində böyük xidmətləri olmuş Ağ Aşıq Allahverdi və digər aşıqların xüsusi xidmətləri ilə Azərbaycan aşıq məktəbi daha da möhkəmlənmişdir.

Bütün bunlar Aşıq Ələsgərin mənəvi mühitini yaradan, insanlara Vətənin mahiyyətini izah edən, o mahiyyəti sevdirən duyğuların mizrabanı olan söz sənətkarlarıdır. İnsanlarımızın milli mental keyfiyyətlərinin yaranmasında aşıq ədəbiyyatının məxsusi yeri olub. Onlar Azərbaycan insanına sevginin gücü ilə yaşamağın hansı xarüqələr yaratdığını göstərir, onu sevgi ilə yaşayan qəlbin əbədi işığına çəkirdilər. Bu işığın şöləsidir ki, 400 ildir Tufarqanlı Abbasın ana südü kimi məhrəm və doğma sözləri ilə süslənmiş şeirlərini qaranlıqda qalmağa qoymur:

Duman, gəl get bu dağlardan,
Dağlar təzə bar eyləsin.
Nə gözlərim səni görsün,
Nə könlüm qubar eyləsin.

Haşa, sevdiciyim, haşa,
Deyilənlər gələr başa.
Bir yandan özün bas daşa,
Bir yandan el car eyləsin.

Abbas ağlar zarı-zarı,
Getməz könlünün qübarı,
İlqarından dönən yarı
Tanrı tezbazar eyləsin.

Ağ Aşığın Aşıq Ələsgərin yetişdiyi mühitin yaranmasında böyük xidmətləri ilə yadda qalan, insanları xeyirxahlığa çağıran, onlarda şəfqət hissini oyadan şeirləri ümumilikdə Azərbaycan aşıq ədəbiyyatının başlıca leytmotivi olmuşdur:

Dedim, könül, bacar, yaxşılıq eylə,
Həmişə əlində ixtiyar olmaz.
Çox da bel bağlama dünya malına,
Nə mala, nə mülkə etibar olmaz.

Aşıq oldun, hər ağrıya dözəsən,
Sinən üstə odlu közlər əzəsən.
Gündoğanla günbatanı gəzəsən,
Allahverdi kimi xiridar olmaz.

Bunlar Aşıq Ələsgərə və onun şəxsində Azərbycan aşıq məktəbinin gələcək nümayəndələrinə ötürülən irsdir və bu irsin mahiyyətində didaktika dayanırdı. Aşıqlıq məktəbi insanları öyrətmək missiyasından əlavə, xalqın ən böyük və əvəzsiz nemətinin – onun dilinin qorunub saxlanılması, intişar tapması işində çox böyük işlər görürdü. O işin başlıca vəzifəsini, aşıq sənətinin əsas missiyasını nəzərdə tutan Həsən bəy Zərdabi "Əkinçi" qəzetində yazırdı: "Bir baxın bizim aşıqlar toylarda oxuyanda onlara qulaq asanlara! Bu zaman onlar elə hala gəlirlər ki, bə istilai-türk ətin kəssən də, xəbəri olmaz. Elə ki sonra toy qurtardı, aşıqlar evlərinə getdi, beş-on gün uşaqlar gecə-gündüz küçələrdə aşıqdan eşitdiyi qafiyələri oxuya-oxuya gəzir və bir-birinin qələtlərini düzəldirlər".

Xalq arasında yazı mədəniyyətinin yox dərəcədə məhdudluğu şəraitində aşıqlar nəsillər arasındakı transformasiyada ən vacib rollardan birini oynayırdılar və sözsüz ki, bu missiyanın daşıyıcıları sırasında Aşıq Ələsgərin məxsusi yeri var. Həmin missiyanı onun özü bu cür təqdim edir və o təqdimatda aşıqlığın başlıca hədəflərininin nədən ibarət olduğunu deməklə özünün keçdiyi, keçmək istədiyi yolun istiqamətini göstərir:

"Bəli", – deyib, yol-ərkana gəlmişəm,
Nəqş olub sinəmdə eşqin kitabı.
Çeşmi-nübüvvətə aşiq olmuşam,
Bir suala verrəm yüz min cavabı.

Gövhər sözüm məclislərdə yayılı,
Arif ondan mətləb qanıb ayılı.
İbadət eyləyən mömin sayılı,
Səxavətin ondan çoxdu savabı.

Haqdı sözüm, yetirəsən isbata,
Yemə riba, meyl eləmə qiybata.
Şəriətdə haramdı zina-ləffata,
Ondan bəd yazırlar xəmri-şərabı.

Bu, Göyçə mahalının Ağkilsə kəndində, kasıb, lakin mənəvi keyfiyyətlərlə zəngin bir rəncbər kişinin ailəsində dünyaya gəlmiş, heç bir təhsil görməmiş, özünün fitri istedadı və zəhməti sayəsində irfani elmlərə vaqif olan Aşıq Ələsgərin dünyanın var olması, insanları xoşbəxt edə biləcək cəmiyyətin təşəkkülü üçün gördüyü, görmək istədiyi yolların başlıca qayəsidir. Onun yaradıcılığında təbiətin mahiyyətindən doğan ecazkar gözəlliyin, təmiz eşqin vəsfi nə qədər gözə çox dəysə də, başlıca ana xətt İnsan mahiyyətidir və aşıq o mahiyyəti təşkil edən komponentlər sırasında genetik xüsusiyyətlərin çalarlarını görsə də, individuallığın aparıcı rolunu dominant olaraq təqdim edir. Şərq insanı üçün daha çox xarakterik dini bağlılıqdan var olan təsəvvürlərin tez-tez yada salınması həmin individuallığın formalaşması üçün ən təsirli vasitə kimi istifadə olunur:

Günahkardı nə ki yoldan azan var,
İki mələk – xeyir-şəri yazan var.
Nəkreyin var, Qıl körpü var, qazan var,
Rövşən yollarını tar eyləməynən!

Ustad hər məqamda daşıdığı mənəvi yükün ağırlığını və məsuliyyətini hiss edir, imkan düşdüyü hər məqamda insanların ruhunu cilalamaq fürsətini qaçırmır, onlara verdiyi tövsiyə və

nəsihətlərdə ardıcıllığını qoruyub saxlayır. Buna görədir ki, o hər dəfə insanın daşıdığı sosial mahiyyəti xatırladır, onun, müasir terminlərlə ifadə edildiyi kimi, "əxlaq və davranış kodeksləri"nin hansı rol oynadığını qabardır:

Aşıq olub diyar-diyar gəzənin
Əvvəl başda pür kamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Ələsgər, əlbəttə, istənilən halda fərddir və onun fərdi hiss-həyəcanlarının təqdimatı ilə də rastlaşdığımız anlar kifayət qədərdir, lakin bu fərdi duyğuların təqdimatındakı ictimai maraq, onun ibrətamizlik notları diqqətdən yayımır. Həmin notlar dinləyici və ya oxucu üçün bezdirici deyil, onlar düşündürücü olmaqla bərabər, inandırıcıdır. Başlıcası isə bunlar müdrik bir insanın gəldiyi həyati qənaətlərdir və həmin qənaətlərin niyə gəncliyə ünvanlandığı da məlumdur:

"Can" deməklə candan can əskik olmaz,
Məhəbbət artırar, mehriban eylər.
"Çor" deyənin nəfi nədi dünyada?
Abad könlü yıxar, pərişan eylər.

Aşıq Ələsgərin yaradıcılığında folklor ədəbiyyatımızın əbədi mövzuları ilə bərabər, onun müasiri olduğu zamanların, demək olar ki, bütün sosial, hətta siyasi aksentlərini görmək mümkündür. Bu mövzular sırasında eşqin, qəhrəmanlıq və qorxaqlığın, sədaqət və etibarsızlığın, səxavət və xəsisliyin, dost və düşmənçiliyin sərhədləri ilə bərabər, elmə verilən böyük önəmin sərhədsiz konturları da görünür. Bu, indiki anlamda ibtidai sinifdə belə təhsil almaq şansı olmayan, fəhmi və fitri istedadı ilə çox böyük coğrafiyada tanınan, tanındıqca insanların qəlbinə yol tapan Haqq Aşığının həyata baxışıdır. O baxışlar konsepsiyasında isə mürəkkəb konfiqurasiya axtarmağa dəyməz, sadəcə, insan ömrünün mənasını duymaq bəs edər. Hesab edirik ki, anadan olmasının 200 illiyini qeyd etdiyimiz Aşıq Ələsgərin yaradıcılığını öyrənmək də buna görə lazımdır:

Ahəngər deyiləm, naşı bəzirgan,
Gözüm dürdanədə, a yəməndədi.
Sinəmdədi eşqin şirin çeşməsi,
Ləzzəti meyl edib ay əməndədi.

Bir sazım var, nə pərdəsi, nə simi.
Onu çalıb, kim tərpədər nə simi?
Firdovsi, Fizuli, Hafiz, Nəsimi –
Onlar da yazdığı, ayə, məndədi.

Kişi gərək zəhmət çəksin, dər salsın,
Süfrə açsın, ad qazansın, dər salsın.
Dərsi azlar Ələsgərdən dərs alsın,
Altı min altı yüz ayə məndədi.

Süleyman ABDULLA

DOLU DÖYƏN UŞAQLAR

Bulud kimi dolub qalar gözdə qəm,
Çınqı deyil eyvan altda sığan uşaqlar.
Oxumazlar, mən anamın ilkiyəm…
...ağzı qara tülküyəm,
Boş ovcuna dolu yığan uşaqlar.

Dörd tərəfim yarpaq-yarpaq tor idi,
Qurulmuşdu neçə duzaq, düşdüm ki...
Mən bir payız ağzı qışa dayanan...
aldanışa dayanan
O bahardan elə uzaq düşdüm ki...

Pəncərənin biri tərdi, biri buz,
Biri islaq, biri donmuş üzündü.
Uzaqlarda bir ağlaşma səsi var,
kimdi axı, nəsi var?..
Daha burdan o yanası hüzndü.

…Böyüdülər dolu döyən uşaqlar,
Hərəsi bir başqa yolu getdilər.
İndi ağzıqara tülkü olan yox,
boş ovucu dolan yox...
O uşaqlar gözü dolu getdilər.

QÜRUB VAXTI DARIXMAQ

O hənadan deyil bu,
adamı ciyərindən çəkirlər havasızlığa.
Divar boyu səssizdir təngnəfəsliyin sürüşməsi,
sükutla sükunət arasındakı uçurum
o qədər dərindir ki,
təntiməklə aşılmaz xofu naməlum qorxunun.
Qaçan yuxuların nalları parıldamaz axşamüstü,
uçuqlayan dodaqların hərarəti
isitməz mamır basmış künc-bucağı,
hörümçək torlarını.
Bundan sonra xoş gün arzulayan bilməlidir ki,
hər muradın atı olmaz,
hər atın muradı.
Hələ çox var yol adına, –
bir çay məcrası dolu işıq selini keçmək sabaha,
yox deməklə kişnəməz yalmanı bulud ümidlər.
İndi yataqların quruyan vaxtıdır,
üzüaşağı küləklənən
yelçəkərin sərinliyinə aldanma,
nəhəng çay daşlarının hənirtisinə imrənər
haça dili bayırda ilanlar.
Qabıq qoymağı gecdir cığırların,
öynə leysanından qalma nohurlardan

qalxan buxardır nəfəsi təngidən.
Sinə dolusu köks otürməklə
keçməz ciyərlərdəki yanğı...
Ən böyük qorxu adamdandır,
bir ins-cins görünmürsə, şər qarışan vaxt
xəyanətə uğramayacaqsan, demək.
Gəndalaş kollarının qaraltısını
nəyə bənzədirsən-bənzət, fərqi yoxdur,
dişləməz adamı pis qoxulu budaqların xışıltısı.
Gözlərin alacalanırsa, ovxalama,
onsuz da rənglər qarışıb bir-birinə
dağ başındakı qürub da bir başqa cür qızılı,-
o hənadan deyil bu...

SƏHRA TƏNHALIĞI

Elə səssizsən ki, xoflanır sükut,
Üfüqlər dağılıb üstünə zər-zər.
Əlin çatacaqsa, bir şüadan tut,
Nə olsun, qəlbində çoxdan düşüb şər.

Bu nədir, hər yanda dərd yığın-yığın,
Çətindi döyüküb tək nəfəs almaq.
Sonuncu anıdır əlacsızlığın
Uçqun qaranlığın altında qalmaq.

Kimisə unutmaq istəyər hərə,
Düşərsən yadına bir ağlı səyin.
Qəfil can atarsan qır küçələrə,
Ən rahat yeridir səhra ölməyin.

İlğım ağuşuna çəkər təkləri,
Soyuq hava kimi əsər nəfəsin.
Tutmaq istəyərsən boz küləkləri,
Yovşanın ətrinə qarışar səsin.

Baxarsan, yerdə yer, göydə göy itib,
Gözündən asılıb buzfason şüa.
Bir də görərsən ki, uzaqlar bitib,
Özünsən, kölgəndi, bir də son şüa.

YERDƏN

O yol ki gedərik, keçməz
Yola çıxdığımız yerdən.
Özümüzü adımızdan
Çaşıb yıxdığımız yerdən.

Sabahı tor, axşamı tül,
Gülüşündən açmazmı gül?
Heç nədən sındırıb könül,
Ürək sıxdığımız yerdən.

Adam içindən yanırmış,
Öz dərdini sirr sanırmış.
Hamı aşkar boylanırmış
Xəlvət baxdığımız yerdən.

Özümüzdən qaçaq bir gün,
Könlümüzü açaq bir gün.
Şəkil boylanacaq bir gün
Adam baxdığımız yerdən.



Elnarə AKİMOVA

MODERN SƏNƏT PRİNSİPLƏRİ KONTEKSTİNDƏ *Nizami*

2021-ci il girər-girməz ölkə başçısının bizləri "Nizami ili" sevinci ilə müjdələməsi mədəni iqlimə köklənməyə gözəl bir vəsilə olmaqla bərabər, maraq dairəsində olduğumuz indiki zamanda dünyaya bir də Nizami xalqı, Nizami milləti olaraq üz tutmağımızın mesajı kimi simvolik çalar kəsb edir. Bəli, Nizami məhz bizim bir xalq, dövlət kimi varlığımızın siması statusunda tanıdılmalıdır. Belə bir prosesə bizdə XX əsrin əvvəllərində cəhdlər edilmişdi. Lakin Sovet rejiminin əleyhimizə düşünülmüş planları bütün başlanan prosesləri yarımçıq qoymaqla bahəm, xalqın milli oyanış əzminə güclü zərbə vurdu. Bir tərəfdən yaşadığı iki dünya müharibəsinin fəci nəticələri, digər tərəfdən rejimin antimilli təbliğat kampaniyası, xalqı öz kökündən, milli kimliyindən, keçmişindən, tarixi statusundan məhrum etmək siyasəti Azərbaycan insanının dünya müstəvisində təklənməsinə gətirib çıxardı. Öz genetik kodu və milli müəyyənliyi ilə bağlı düşüncələrinin bədii mətnə köçürülməsinin qadağalarını yaşaması, həmçinin dünya məkanında gedən proseslərdən təcrid olunaraq qapalı məcrada fəaliyyət göstərməsi ona milli stasusunu fərqləndirmə və fərdiləşdirmə imkanı vermədi. Belə bir müəyyənlik bir də Ümumilli lider Heydər Əliyevin üslubunda təkrar olundu.

Heydər Əliyev bilirdi ki, hər bir xalqın, dövlətin məfkurə xətti onun dəyərlərinə, irsinə verdiyi qiymətin əmsalı ilə ölçülür. Ona görə iqtisadi coğrafiyanı böyük quruculuq işləriylə, mənəvi coğrafiyanı isə milli-mənəvi dəyərlərin Azərbaycana qaytarılmasıyla gerçəkləşdirdi. Azərbaycanın qapılarını Dədə Qorqudun, Babəkin, Nizaminin, Tusinin, Nəsiminin, Vaqifin, Hüseyn Cavidin, Şəhriyarın üzünə taybatay açmaqla Azərbaycanın məfkurəvi necəliyini müəyyənləşdirdi, əslində.

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin irsinə Heydər Əliyevin münasibəti konseptual səciyyəsi ilə seçilmişdir. Məhz onun təşəbbüsü ilə qəbul edilən "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq

tədbirləri haqqında" 1979-cu il 6 yanvar tarixli qərar bu istiqamətdə kompleks vəzifələr irəli sürərək Nizami irsinin və ümumən orta əsrlər Azərbaycan mədəniyyətinin sistemli araşdırılması üçün geniş perspektivlər açmışdır. 1981-ci ilin avqust ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərarı isə Nizamişünaslıqda əsaslı dönüş yaratmışdır. Xəlil Rza Ulutürkün "Gündəliy"ində əhəmiyyətli bir epizod yer alır:

"Xəmsə" yaradıcısının anadan olmasının 840 illiyi bayramı keçiriləndə böyük qazax şairi Oljas Süleymenovun Heydər Əliyevə verdiyi sual yadımdadır:

– Ustad, axı 840 yuvarlaq rəqəm deyil, niyə tələsirsiniz?

– Tələsməyimiz əbəs deyil. Biz Nizami ilə bəşəriyyəti qovuşdurmağa tələsirik. Nizami elə bir sənətkardır, elə bir dahidir ki, hər il bayramını keçirməyə dəyər".

Heydər Əliyevin gerçəkləşdirdiyi əməllər sırası birbaşa insan amilinin önə keçməsinə, xalqı, toplumu özünə qaytarmaqla, onun tarixdə, dünya prosesləri içində görünməsinə, var olmasına xidmət edirdi. Məsələn, o, Nizaminin haqqında sərəncam verirdi, müxtəlif tədbirlər keçirilirdi, tədqiqatlar meydana çıxırdı. Aydındır ki, Qərb ədəbiyyatında XV əsrdə qabaran insan amili bizim milli ədəbiyyatımızda hələ XII əsrdə Nizaminin poemalarında konsepsiya səviyyəsindədir. 1980-ci illərdə – ədəbiyyatın Nizami irsinə müraciətinin zəminində şairin yaradıcılığında ehtiva olunan insan konsepsiyasının bütövlüyü dururdu. Heydər Əliyevə görə, Nizami ona görə böyük şair idi ki, yaradıcılığında lokal xarakterli məsələləri deyil, bütün bəşər miqyasında düşündürən problemləri ehtiva edə bilirdi. Bədiyyatın daim aparıcı mövzusu olan insana, onun daxili aləminin təkamülünə varırdı. O, Nizami yaradıcılığına özünüidraka, qlobal rifaha aparan müqəddəs, mənəvi mehrab kimi yanaşırdı. Heydər Əliyevi o zaman düşündürən bütün məsələlərin – əqli-mənəvi intibahın, milli-bəşəri dəyər və beynəlmiləl sərvət axtarışının müasir mərhələsi Nizami əsərlərində miqyas və məzmun gerçəkliyi ilə təsdiqini tapırdı.

Nizami Gəncəvinin 850 illiyi ilə əlaqədar yubiley tədbirləri 1991-ci ildə keçirilməli idi. Lakin ölkədəki dərin siyasi, iqtisadi və sosial böhran buna imkan verməmişdi. Qeyd edək ki, Nizami ilə bağlı zamanında atılmış mütərəqqi addımlar sonradan ölkə prezidenti İlham Əliyev tərəfindən davam etdirilmişdir. Belə ki, 23 dekabr 2013-cü ildə Prezident İlham Əliyev şairin əsərlərinin filoloji tərcüməsinin təkmilləşdirilərək yenidən nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə edilməsi, habelə dünyanın mötəbər kitabxana və arxivlərində şairin yeni əlyazmalarının üzə çıxarılması, dövrü, ədəbi irsi və məktəbi problemlərinin müasir humanitar düşüncənin tələbləri kontekstində və azərbaycançılıq məfkurəsi işığında tədqiq olunması məqsədilə Nizami Gəncəvinin 870 illik yubileyinin layiqincə keçirilməsi haqda sərəncam imzalamışdır.

***

Bu gün Nizami ili ilə bağlı təkliflər irəli sürülməkdə, müsahibələrdə, məqalələrdə bir sıra kreativ ideyalar səslənməkdədir. Nəticə indidən bəllidir. Nəsimi ilində olduğu kimi, görülən işlər çox olacaq, geridə isə ən layiqliləri qalacaq.

Necə eləmək ki, Nizami ilində fərqli işlər meydana qoya bilək: həm avanqard – Qərb və dünya mövqeyindən, həm də klassik ənənələrimiz mövqeyindən. Bu gün böyük sənətkarı bütün mümkün sahələrdə axtarışlarımızın predmetinə çevirəcəyiksə, o zaman deyək ki, bəyənmədiyimiz sovet dövrü tərcümələrinə, yanaşmalarına alternativ irəli sürən işlər meydana qoymalıyıq ki, səmərəsini ala bilək.

"2021 – Nizami ili"! Məncə, bu qərar imkan verir ki, məsələyə Şərq dəyərlərinin dünyəviləşməsi prosesi kimi yanaşaq. Yəni ümumkulturoloji kontekstdə Dantenin irəli sürdüyü "dünya monarxiyası" ideyası, Şpenqlerin vahid dünya mədəniyyəti anlayışı – ki, bu onlarda ancaq Qərb mədəniyyətinin varlığı ilə xarakterizə olunur, o zaman dünya və cəmiyyət məsələlərini önə çəkən Nizami irsinin bu mədəniyyətin içindəki yerini – yolunu müəyyənləşdirməliyik. Nizami irsi İslam Şərqi mədəniyyəti içindədir. Bu, o dövrün reallığıdır, o dövrdə Azərbaycan ədəbiyyatı deyilən bir anlayış yox idi, ədəbiyyat da büsbütün ümumislam Şərqi mədəniyyəti içində qərarlaşmışdı. Belə bir əhvalın yetirməsi olan Nizaminin çağdaş

qlobalizə proseslərindəki xidməti hansı məqamları ilə spesifik ola bilər? Bu suala verilən cavablar diqqətdə saxlanmalıdır.

Ümummili lider Heydər Əliyevin yuxarıda yer alan fikrindəki bir məqama diqqət yetirmək çox önəmlidir: Nizami ilə bəşəriyyəti qovuşdurmaq. Bu, Nizaminin əsərlərindəki insan amilindən keçir, dünya və cəmiyyət məsələlərinin qoyuluşundan keçir və s. Bu gün birlik, humanizm anlayışlarına bəşəriyyətin ehtiyacı dünəndən daha artıqdır. Nizami bu böyük məsələnin həllinə hansı töhfələr verib? Şairin yaradıcılığı əsaslı şəkildə bu prosesə qoşulmağa potensial sərgiləyir.

Nizami əsərlərində kosmosentrik başlangıc daim güclü olmuş, dünyanı küll halında görmək arzusu, qlobal vəhdət, humanizm prinsipi qabarıqlığı ilə seçilmişdir. Dünya poeziyasından maraqlı bir nümunəyə diqqət edək: Beşinci əsr hind şairi Bhartrihari "Üç şataka" (Şatakatraya) poemasında yazırdı:

...Yer kürəsi! Yer kürəsi!
Qitələrinlə, okeanlarınla
Nəsən sən?
Kainatda kiçicik bir atom!
Bu kiçicik bir atomu da
Çoxlu-çoxlu hökmdarcıqlar
Tikə-tikə bölməyə can atırlar.
Bundan ötrü
Dəhşətli müharibələr aparırlar!..
Ey dünya yaradılışının əzəli!
Mən bizi həyat çevrimlərinin
Zəncirində saxlayan cəhaləti ataraq
Kainatla can bir qəlbdən qovuşuram.

Bu şeirdə dünyanın vəhdəti ideyası təməl prinsip kimi təlqin olunur. O ideya ki, qədim Misir, yunan, hind, Babil ədəbiyyatlarında əsaslı şəkildə işlənmişdir. Bütün bunların zirvə məqamı kimi ərsəyə gələn Nizami poetikasının yenidən incələnməsi ona görə vacibdir ki, dəyişən dəyərlər sistemində şairin haqqını bütün tərəfləri ilə ödəyə bilək. Nizami sənəti elə səviyyədədir ki, onu bütün dövrlərin mövcudluq problemlərinin dəyişməz mənəvi və sosial dəyərlər sınağında dərk etmək mümkündür.

Şairin poetikasının incələnməsi məsələsində ədəbiyyatşünaslığın üzərinə böyük yük düşür. Müstəqilliyə adladığımız bu otuz ildə ixtiyarımızda yeni metodoloji nailiyyətlər, ədəbi-elmi qiymətlər, dəyərlər sistemi vardır. Bu bədii-estetik arsenal Nizaminin irsinin yeni tərəflərini meydana çıxarmaqda faydalı ola bilər. Sovet dövründə yaradıcılığı daha çox sosial qatlara bağlanan, bədii irsinin ideya-estetik tutumu dar çərçivədə axtarılan Nizamini modern sənət prinsipləri kontekstində dəyərləndirmək maraqlı nəticələr verə bilər. M.Baxtinin bu fikri çox dəqiqdir: "Özgə mədəniyyət yalnız başqa mədəniyyətin gözü ilə özünü dərindən göstərir". Klassikanın hər cür oxunuşu labüddür. Avropa ədəbiyyatı hər klassikə münasibətdə bu təcrübəni təkrar-təkrar təqdim edir və etiraf edək ki, bu onlara daha geniş hüdudlara varmaları üçün imkanlar qazandırır. Nizamini də tanış sistemlərlə bərabər, qeyri-tanış sistemlərlə görüşdürmək onun nəhəngliyini meydana qoymaq baxımından əlverişli olardı. Bir şərtlə ki, bu mövzuda yazan ədəbiyyatşünas Nizami dühasına, dövrünə və bədii dünyasına kongenial olsun. Nizamini müqayisəli ədəbiyyat kontekstində və təkcə orta əsrlərin mətnləri ilə qarşılıqlı deyil, daha çox modern rəssamlıq, modern ədəbiyyat və s. modern sənət kantekstində araşdırmaq faydalı olardı. Əgər Nizami Höteyə təsir edibsə ("Şərq-Qərb Divanı"nındakı "sözü sirr dolu Nizami" ecazı), Höte də modern sənətə keçid dövrünün – maarifçilikdən romantizmə keçidin təminatçısıdırsa, biz Nizamiyə bir də bu kontekstdən baxmalıyıq. Bu mənada, Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan şairi Nizami" kitabında düşündürücü məqamlar çoxdur: İngilis professoru Vilson həyəcan, ehtiras və həsrətin bədii ifadəsi baxımından Nizamini Şekspir və Petrarka ilə müqayisə edib. İtalyan professoru Pizzi Nizaminin Bəhram Guru ilə Bokkaccionun Ametosu arasında dərin bənzərliklər müşahidə edib. Fransız professoru Meynard isə Nizamini tarixi roman janrının atası adlandırıb. Bu məsələlər çağdaş dəyərləndirmə prinsipləri istiqamətindən təhlilə cəlb edilib niyə müasir dərkini tapmasın?

Modernizmdə bütün kəskinliyi ilə qoyulan fərdilik amili, individuallıq, şəxsiyyət problemi XII əsr dahisi Nizaminin əsərlərində dərinliyi ilə izahını tapır. Azad şəxsiyyət, müstəqil mövcudluq hüququ, əməl və iradədə sərbəstlik şairin bütün əsərlərinin ana xəttini təşkil edir. Burada nə irqi-

sosial mənsubiyyət anlayışı var, nə də fərqli coğrafi məkanlara görə qruplaşma meyilləri. Hüquq eyni olduğu kimi, bədii-fəlsəfi süjet xəttinin təmərküzləşdiyi estetik ərazi də vahiddir.

Qərbdə XIX əsrin sonlarında güclənən modernizm dalğasının bir təzahürü olaraq meydana çıxan feminizm fikir axını ilə Nizaminin qadın-kişi münasibətinə münasibətini də müqayisə etmək yerinə düşər.

1980-ci illərdə Fransada Feminist Epistemologiya, yəni feminist idrak nəzəriyyəsi meydana çıxdı. Bu yeni bilik nəzəriyyəsində kişi dəyərinə, kişi mövqe və üstünlüyünə xidmət edən nə varsa, rədd edilirdi. "Rasionalizmi kişiyə, emosionallığı qadına aid bilən, qadını kişinin əksik forması kimi dəyərləndirən bütün Qərb fəlsəfəsi ənənəsinə şiddətlə qarşı çıxan modernizmin feminizmi əgər yalnız qadınların hüquqlarını bərpa etmək şüarları irəli sürürdüsə, postmodernizm feminizmin növbəti dalğası – "ontoloji dualizmin hər növünü inkar edən" fəlsəfə idi.

Nizaminin əsərlərində bu məsələ silsilə qadın obrazlarının (Leyli, Şirin, Məhinbanu, Nüşabə, Fitnə) simasında öz həllini tapır. Nüşabənin dilindən isə bəyan edilir: *"Mən də bir aslanam, düşünsən bir az, /Aslanın erkəyi, dişisi olmaz"*.

Qəribədir, o şeyi ki din sonradan öz sxolastik münasibəti, təzyiqi ilə əzib sıradan çıxarır, Nizaminin əsərlərində bunların hamısına güclü müqavimət aşılanır. Zamanı qabaqlamaq bir də bu olsun gərək. Nizaminin qadın qəhrəmanları çadrasız və yaşmaqsız, buxovsuz həyat tərzinin daşıyıcılarıdır. Onların hamısı həya tülünə bürünmüş azman bir qadın ruhunu daşıyırlar özlərində və bütün zaman, dövran qadağaları önündə sərgilədikləri cəsarət, müstəqil düşüncə və hərəkət məqamlarında belə qadınlıq zirvəsindən enmirlər.

Nizami yaradıcılığında Tanrı məqamı da maraqlıdır. Qərbin mənəvi tənəzzül gerçəkliyində Tanrı ilə bağının qırılmasının böyük rolu var. Tutacaq bir nəsnə, dirənəcək bir arxa hiss etməyən insanın depressiyaya düşməsi, dünyaya qarşı dirəniş-duruş əzmini itirməsi məhz bu səbəbdəndir ki, bu gün də onun ciddi fəsadları ilə qarşılaşırıq.

Məlumdur ki, bütün orta çağ ədəbiyyatı daha çox dini düşüncənin, inanclar sisteminin təsiri altında formalaşmış, sxolastik fəlsəfənin hüdudlarında gəzişmişlər. Bu düşüncə, dini baxış sistemi azad fikrin gəlişməsini əngəlləyir, daha çox elm və fəlsəfəni dinlə birləşdirməyə və bu yolla öz mövqeyini möhkəmləndirməyə çalışırdı. XV əsrdən başlayaraq dünya ədəbi-fəlsəfi fikrində yeni düşüncə dövrü başladı. Bəşəriyyət sxolastik düşüncəyə vida etməyə, üzünü antik ədəbiyyata tutub, bu ədəbiyyatın örnəklərini yeni zamanın müstəvisinə çıxarıb onları diriltməyə çalışdı. Dünya ədəbiyyatında İntibah dövrü başladı. Humanizm ideyası, İnsan konsepsiyası yenidən sənətin, ədəbiyyatın məhvərində dayandı. Antik yunan düşüncəsi insana önəm verən bir sistem kimi irəli çəkildi. Halbuki, dünya ədəbiyyatında XV əsrdə qabaran insan amili bizim milli ədəbiyyatımızda hələ XII əsrlərdə Nizaminin poemalarında konsepsiya səviyyəsində idi. Bu poeziyada Allah sevgisi qabarıqdır, amma bu sevgi doqmatik anlayış səviyyəsində deyil, insanı qul, kölə kimi görmür. Burada insan – şəxsiyyətini qoruyan, öz mahiyyətini müxtəlif yönlərdən ortaya qoymağa çalışan fərddir. Nizami dini buxov hiss eləmirdi, avropalı islahatçılardan fərqli olaraq bu təcrübənin predmetinə Allahı qoymurdu. Allaha inam Nizamidə heç bir halda şübhə altına alınmır. Əksinə, bu poeziyada şükranlıq və minnətdarlıq hissi öndədir: *"Bu minvalla Allahdan nə istədimsə, /Allah verdi və verilmişə şükür elədim"*.

Ötən əsrin 60-cı illərində E.Fromm (1900-1980) yazırdı: "XIX yüzildə problem bu idi: "Tanrı öldü!". XX yüzilin problemi isə budur: "İnsan öldü". Nizami yaradıcılığı bu baxımdan görk ediləsi çox dəyərləri özündə ehtiva edir. Onun üçün Tanrısız heç bir əxlaqi dəyərlər sistemi yoxdur. Tanrıya münasibət ölümsüzlük məqamında qərar tapmışdır. Burada Tanrı da, insan da diri, yer üzünün əşrəfi sayılan varlıqlardır. Onlardan biri digərini yetirən əsas səbəb kimi çıxış edir. İnsan Tanrını duyduğu, hiss etdiyi, ona tapındığı qədərincə öz varoluşunun təminatçısı salıya bilər. Nizami Gəncəvi oğlu Məhəmmədə nəsihətində yazır:

Öz əhdini Tanrıyla möhkəm saxla,
Başqa əlaqələr üçün ürəyinə qəm salma,
Sən Tanrıyla əhdini pozmasan,
Səni əmin eləyirəm ki, hər şeydən xilas olarsan.

Krımskinin "sufi və romantik" şair adlandırdığı Nizami niyə bu və bütün tərəfləri ilə dünyaya örnək olmasın ki? Bu yaxınlarda Azad Yaşarın çevirisində fransız yazarı Erik Emmanuel Smitin "Müsyö İbrahim və Quran çiçəkləri" əsərini oxudum. Fransız yazıçı Mövlana Cəlaləddin Rumini kiçik əsərin daxilinə o qədər mükəmməl şəkildə yerləşdirir ki, heyrət etməmək olmur. Əsər qəhrəmanı Ruminin hikmətli kəlamları sufi rəqslərinin təsiri ilə başqa adama çevrilir, düşüncələrində, həyata baxışında ciddi təbəddülatlar meydana çıxır:

"– Momo, necə də xoşbəxtəm"! Həm sən yanımdasan, həm də mən "Quran"da yazılanlardan agaham. İndi səni bir rəqsə tamaşa etməyə aparacam.

– Rəqsə?

– Hə, belə lazımdır. Bu, vacib şərtdir. "İnsan qəlbi "bədən" adlı qəfəsdə çırpınan bir quşdur". Elə ki insan rəqsə və quş kimi ötməyə başlayır, əslində o, Allaha can atır, ona qarışır, onda əriyir. Dur, gedək təkkəyə.

– Hara, hara?

Eşikdən içəri adlayanda mən:

– Əcəb rəqs meydançasıdır! – dedim.

– Təkkə – rəqs meydançası yox, ibadət yeridir. Odur ki, Momo, ayaqqabılarını çıxar.

Həyatımda ilk dəfə məhz orada mən fırlanan insanları gördüm. Həmin dərvişlərin əynində qalın, amma yumşaq bir parçadan bəyaz cübbələr (gen ətəkli, uzun xələtlər – A.Y.) vardır. Dəf səslərini eşidən kimi bu dərvişlərin hərəsi bir fırfıraya döndü.

– Görürsən, Momo? Onlar təkcə öz bədənlərinin deyil, həm də Allah sevgisi ilə çırpınan qəlblərinin oxu ətrafında fırlanırlar. Bu, duanın bir növüdür".

İndi siz fikir verin, XIII əsrdə yaşayan bir türk sufisi XX əsr Fransasında doğulub yetişən bir yazıçıya ilham və ideya qaynağı olursa, deməli, Avropa insan əliylə dağıdılan, qürubunu yaşadığı çox məsələlərdə xilas yolu, harmoniya axtarışındadır. Bu axtarış proseslərinə Nizami özünün ahəngə, sahmana addımı ifadə edən, buna çatmağı yalnız qlobal sosial strukturda deyil, həm də fərdi-mənəvi "mən"də arayan sənəti ilə daha çox etalon ola bilər. Yetər ki, onu bəşəriyyətlə görüşdürməyin uyğun prinsiplərini tapa bilək. Şairin dünya, əbədiyyət (ədəbiyyat!) və bəşər kontekstində poetik qüdrət və zənginliyi ancaq bu halda görünə bilər.



İlham QƏHRƏMAN

***
Od vurdum, yana kağız,
Halımı qana kağız.
Şair də toxucudu,
İp sözdü, hana kağız.
***
Şirini acı kəsin,
Uzadın, ucu kəsin,
Şəhidin toyu budu –
Xınalı qoçu kəsin.
***
Qanlı gələn Abbasdı,
Hamını oda basdı?!
Şəhidlik busatıdı –
Toy havasında yasdı.
***
Qalx dağdan, yolu kəs dik,
Nə kimsəydik, nə kəsdik.
Toy ətliyi cöngəni
Şəhid vayında kəsdik.
***
Dərya, qırağın hanı?
Gəmi, durağın hanı?
Ayaqqabını sildim,
Oğul, ayağın hanı?!

***
Nədi söylədin, balam?
Məni teylədin, balam.
Qolumdan yapışırdın,
Qolu neylədin, balam?!
***
Mən görən hala mat qal,
Davaya, qala mat qal.
Bir də səni görmərəm,
Göy üzü, salamat qal.
***
Mən görən ahu tutub,
Qan daman oxu tutub.
Gedəndə ayıq idi,
Balamı yuxu tutub.
***
Mən görən yazdan gedir,
Dönüb payızdan gedir.
Şəhid bir anasından,
Bir sevən qızdan gedir.
***
Əl tuturam sıxmırsan,
Ev-eşiyə baxmırsan.
Budu, komandir gəlir,
Əsgər, niyə qalxmırsan?!
***
Çay yatağı əyridir,
Yolu əyri-müyrüdür.
Bizim əsgərdi, çapır,
Tankı attək səyirdir.
***
Həsrətin var, sil aha,
Qabı doldur – silə, ha!
Çiling-ağacı atıb
Sarıldılar silaha.
***
Qar-çovğun sovrum-sovrum,
Gəlmədi mənim yavrum,
Belə nişanı vardı –
Çatmaqaş, teli qıvrım.
***
Muradı xaliq versin,
Dilinə qılıq versin.
Balam onlarla getdi,
Əsgərlər salıx versin.
***
Hasar üstən basa cağ,
Gəl qapını bas, açaq.

Qollu tərəziyə qoy,
Zəfər ağır basacaq.
***
Dünəni aşıq andı,
Qul sakit, asi qandı.
Zəfər nədən əvəzsiz,
Çünki bahası qandı!
***
Gözəllik aşıq salır,
Hissi qarışıq salır.
Qələbə çıraq kimi
Vətənə işıq salır.
***
Telini dara bəri,
Ağ ilə qara bəri.
Varmı elə bir dəyər,
Zəfərin bərabəri?!
***
Hər şirin söz qəlbədi,
Acı saxta, qəlpədi.
Həkim, Qarabağ kimi
Hər tərəfim qəlpədi.
***
Üç rəngdə güllən, bayraq,
Ətirlən, hillən, bayraq.
Qoy düşmənin çatlasın,
Şuşada yellən, bayraq.
***
Ocaqçısan, kömür ver,
Dəmirçisən, dəmir ver.
Əsgər gəldi, general,
Dur döyüşə əmr ver.
***
Mən görən belə olsun,
Belədən belə olsun.
Nə qaldı ki, olmasın,
Qoy bu da belə olsun!
***
Necoldu o çağ məndən,
Yanardı ocaq məndən?!
Mən elə sənə sarı,
Sən elə qaçaq məndən.
***
Körpü salan ad salır,
O tay, bu tay yurd salır.
Canan, maşallah olsun,
Cana odsuz od salır.
***
Çayı keç o taya çıx,
Bir səmtə, butaya çıx.
Cana od salan qanlı,
Su götür, ortaya çıx.
***
İçimə bir sən sızdı,
Sənsiz dərdim sansızdı.
Tale adlı bağım var,
Heyif, o bağ sənsizdi.
***
Ye, dedim, yemir, gedir,
De, dedim, demir, gedir.
Sən bunda, xəyal onda,
Arada ömür gedir.
***
Dağdan bir qaya düşüb,
Çobanlar haya düşüb.
Gecə ayamı baxdın,
İşığın aya düşüb?!
***
Yar dolanan bağ olam,
Çırağında yağ olam.
Yellənir, bağdan tutur,
Yelləncəkdə bağ olam.
***
Yıxılmışam tar-maram,
Pay qoyma, aparmaram.
Səndən gələn kədəri
Qapıdan qaytarmaram.
***
İsti buxarı başı,
Nəfin çıxarı başı.
Kədər, xoş gəldin! – yerin
Ömrün yuxarı başı.
***
Sinəndi müşkün yurdu,
Salaydım düşkün yurdu.
Ürəyin adı çıxıb,
Ciyərdi eşqin yurdu.
***
Ustad dedin – meyardı,
Qızılda şərt əyardı.
İş könülsüz olmasın,
Könülsüz iş biyardı.
***
Bir sallan, üç əs, alma,
Sallama küçə salma.

Sevgi könülsüz olmaz,
Ürəyi gücə salma.
***
Çay axar, şırıltı var,
Qar yağar, xarıltı var.
Yazıq, eşqə düşmüsən,
Gözündə parıltı var.
***
Gəl görüm, gülə gələn,
Bülbültək dilə gələn.
Acı təbəssüm olur
Sevgidən ələ gələn.
***
Teli əcəb burmadı,
Qəmzələri qırmadı.
Harda bir nakam eşq var,
Yuvada tək durnadı.
***
Ağladıb gülən qədər,
Gəz qapı, dilən, qədər.
Məni özün bilmədin,
Mən səni bilən qədər.
***
Katib yazan sənəddi,
Öyrəndiyin sənətdi.
Məni mən edən fələk
Bir də döndü sən etdi.
***
Çaydı, dərindən gəlir,
Duru yerindən gəlir.
Yaranışdan belədi,
Acı şirindən gəlir.
***
Mən görən yolu gəlir,
Əlləri dolu gəlir.
Yolçu, başına xeyir,
Gurhagur dolu gəlir.
***
Gözümü sıxdım, zalım,
Nə edim? – baxtım zalım.
Məni elə süzürsən,
Dünyamı yıxdım, zalım!

***
Sevməyən kölən deyil,
Dərdini bölən deyil!
Göz yoldan yığılarmı,
Yüz denən, gələn deyil?!

***
Ovçusan, qaç, al ovu,
Yenə saldın a lovu.
Bu adlar da sənindi, –
Can odu, can alovu!
***
Meh əsdikcə od əsən,
Könüldə bir oda sən!
Məni kitabda tapan,
O kitabdı, o da sən.
***
Çöllərin lalə yeri,
Göylərin halə yeri.
O ovdu, mən ovçuyam,
Ayağım, hələ yeri.
***
Yaxşı rəhmətə səbəb,
Salam hörmətə səbəb.
İşıq kölgəni doğur,
Sevgi həsrətə səbəb.
***
Havada türk, yerdə türk,
Özgür də türk, hürr də türk.
Döyüş günü biz tərəf,
Bir Pakistan, bir də Türk!
***
Məhləmiz güllə tutdu,
Yar üzün güllə tutdu.
Mənim dilim tutuldu,
Onu nə güllə tutdu?!
***
Evlərin arası var,
Atını ara, suvar.
Mənlə aranı kəsib,
Gör kimlə arası var.
***
Bağban bağlara baxsın,
Loğman ağlara baxsın.
Məni kim xatırlasa,
Üzü dağlara baxsın.
***
Bağçalar lalam desin,
Analar balam desin.
Laçına yolu düşən
Məndən də salam desin!

Bilal ALARLI
filologiya üzrə fəlsəfə doktoru

ŞEİRİMİZİN ŞƏHİD OBRAZI – ƏKBƏR HÜSEYNLİ

Vətən Müharibəsi Azərbaycan tarixinə zəfər səhifələri yazdı. Müharibə həm də işğal altında olan torpaqlarımızın azad olunması uğrunda mübarizədə xalqın tarixi birliyi ilə yadda qaldı. Otuz illik Vətən həsrətinə qırx dörd günlük müharibə son qoydu. Qələbəyə ədəbiyyat da biganə qalmadı, əksinə, döyüşlər zamanı hərbçilərimiz üçün ilhamverici rol oynadı. Yazılan hekayələrdə və şeirlərdə həsrət hissləri deyil, qələbə ovqatı aparıcı mövzuya çevrildi. Ən çevik ədəbi reaksiya özünü poeziyada göstərdi. Vətən müharibəsi mövzusunda yazılmış şeirlərdə şəhid obrazı üstünlük təşkil edir. Müharibədə qələbə 2881 şəhidin qanı bahasına başa gəldi. 28 hərbçi isə itkin düşmüş sayılırdı. Murov yüksəklikləri uğrunda gedən döyüşlərdə canından keçmiş itkinlərin nəşi tapıldıqca şəhidlərin sayı artır. Yüzlərlə yaralı hərbçimiz Qarabağ torpağı otuz illik mürgüdən ayılıb ayağa qalxsın deyə, ayağından keçdi, canında qəlpə gəzdirməli oldu. Soyuq havalarda, şaxtalı günlərdə də səngərdə möhkəm dayanan əsgərlər nəyin uğrunda mübarizə apardıqlarını yaxşı bilirdilər. Onların arasında müddətli hərbi xidmət çəkənlərlə yanaşı, səfərbər olunanlar və könüllülər də vuruşurdular. Şəhidlərə və qazilərə həsr olunmuş şeirlər çağdaş poeziyamızın incileridir. Son vaxtlar ədəbiyyatımızda gələcək nəsillərə örnək olan şəhid obrazları yaradılıb. Şeirimizdəki şəhid obrazlarından biri Əkbər Hüseynlidir. Əkbər, haqqında ən çox şeir yazılan və mahnı bəstələnən şəhiddir. Onun haqqında *Şakir Xanhüseynli, Vəfa Mürsəlqızı, Gülnarə İsrafil, Əhməd Qala Vəlizadə, Əlirza Həsrət, İltimas Səmimi, Faiq Hüseynbəyli, Arzu Göytürk, Fuad Biləsuvarlı, Hüseyn Hüseynli, Bilal Hüseynbəyli, Vüsalə Vətənxan Mehri, Elşad Barat, İlham Cəsur, Tamara Nadirova, İqbal Nəhmət, Xalid Mahmud, Xətai Səlimov, Bilal Alarlı, Mehri Mikayılova, Ənvər Məsud, Allahşükür Ağa* və *Bəhruz Xəlil* şeirlər yazmışlar. *Xətai Səlimlinin* yazdığı şeirə Məhəmməd Fəda musiqi bəstələmiş, özü də ifa etmişdir:

İgidlər veribdi can Vətən üçün,
Axıdıb hər addımda qan Vətən üçün.
Bir canımız var, o da qurban olsun,
Biz hazırıq hər zaman Vətən üçün.

Mahnı sosial şəbəkələrdə yayımlanmışdı. Əkbər Hüseynlinin şəhadətinə digər qələm adamları da müraciət etmiş, onun haqqında kimlik oçerkləri yazıb çap etdirmişlər. *Eşqanə Babayeva, Faiq Balabəyli, Təbriz Vəli, Vidadi Kərimbəyli, İlkin Mehdi, Vasif Əlihüseyn, Vəfa Mürsəlqızı, Faiq Hüseynbəyli, Şahanə Müşfiq, Reyhan Dadaş, Nüşabə İsmayılova, Fidan Quliyeva, Zeynəb Əkbərli, Günel Ağayeva, Röya İlyasova, Elnur Nağızadə, Namiq Ağa, Azər Hüseynov, Hüseynov Şövqi və Şaiq Hüseynbəylinin* kimlik yazıları Əkbər Hüseynli şəxsiyyətinə məhəbbəti ifadə edir. Bu siyahıya bir faktı da əlavə etmək istəyirəm: **"Vətən müharibəsi və Alar şəhidləri"** adlı kitabda Əkbər Hüseynlinin həyat yolundan bəhs edən ayrıca fəsil verilmiş, onun haqqında yazılmış şeirlərin bir qismi yer almışdır.

Şəxsiyyətinə, döyüş yoluna bu qədər diqqət yetirilən şəhid, əslində, kimdir?

Əkbər Azər oğlu Hüseynli 15 oktyabr 2001-ci ildə Cəlilabad rayonunun Alar kəndində dünyaya göz açıb. H.Əliyev adına 1 nömrəli tam orta məktəbi bitirən Əkbər Hüseynli təhsilini Bakı Sosial İqtisad Kollecində davam etdirirdi. O, təhsilini yarımçıq qoyub könüllü olaraq doğum günündə – 15 oktyabr 2019-cu ildə həqiqi hərbi xidmətə yollanıb. Vətən müharibəsinin ilk günlərindən isə ön cəbhədə qəhrəmancasına vuruşub, Murov yüksəkliyinin alınmasında xüsusi igidliklər göstərib. Komandiri Əkbərin qorxmazlığını xoşlayır, bütün döyüş əməliyyatlarında onunla birlikdə hərəkət edirdi. Əkbər Hüseynli saysız-hesabsız erməni işğalçısının axırına çıxır, arası kəsilməyən atəşləri ilə düşmənin gözünü qorxudur, geri çəkilməyə məcbur edirdi.

Filologiya üzrə fəlsəfə doktoru *Eşqanə Babayeva* Əkbər Hüseynliyə həsr etdiyi məqaləsində yazır: "Əkbər Hüseynli şiddətli döyüşlərdə yaralansa da, qısa müddət sonra yenidən ön cəbhəyə, yoldaşlarının yanına qayıdıb, Goranboy-Tərtər istiqamətində gedən döyüşlərdə iştirak edib, işğal altında qalan torpaqlarımızın alınmasında şücaət göstərərək şəhidlik məqamına yüksəlib".

Evin tək oğul övladı olan Əkbər vətənpərvərliyi, cəsarəti, nümunəviliyi ilə hərbçilərin arasında böyük rəğbət qazanıb, neçə yaralı əsgər yoldaşını xilas edib. Onun yeganə arzusu canı-qanı bahasına olsa belə, vətəni mənfur düşmənlərdən azad etmək idi.

Qızğın döyüşlərdə şəhidlik zirvəsinə ucalan Əkbərdən ailəsi uzun müddət idi ki, heç bir məlumat ala bilmirdi. Murov uğrunda döyüşlərdə şəhid olan Əkbər Hüseynli itkin kimi axtarılırdı. Axtarışlar müharibə dayanandan sonra da davam etdirildi. Ölümü ilə ölümsüzlük qazanan Əkbər 17 dekabr 2020-ci ildə doğulduğu Alar kəndində torpağa tapşırıldı.

Anası Ruhiyyə xanım əhd eləmişdi ki, Əkbər qayıdanda onun ayaqları altında qurban kəsəcək. Əkbər qayıtdı, amma ayağı ilə deyil, çiyinlərdə qayıtdı. Anası da əhdinə vəfa elədi, Əkbərin cənazəsi önündə qurban kəsdi.

Faiq Hüseynbəyli Əkbər Hüseynliyə həsr etdiyi **"Arzuların şəhidi"** adlı silsilə-poemasında Vətənin azadlığı uğrunda döyüşlərdə qurban gedən şəhidə kəsilən qurbanı obrazlı şəkildə sorğuya çəkir. Bu müqayisəli sorğu-sual hansı qurbanın daha uca zirvədə dayandığını anlatmaq üçündür:

Məqamın necədi Tanrı qatında,
Əlləri günəşdən üzülən qurban?
Sən necə özünü hiss eləyirsən,
Tabutun önündə kəsilən qurban?

Bu Vətən uğrunda qurban gedənin
Yolunda qurbanlıq necədi, qurban?
Hisslər haldan-hala düşür bu yerdə,
Həssasdı, kövrəkdi, incədi qurban.

Faiq Hüseynbəylinin "Arzuların şəhidi" adlı silsilə-poeması maraqlı təzadlar üzərində qurulub. Təəssüflə başlayan silsilə təəssüblə bitir. Bu, təəssüfdür:

Getdi qanlı döyüşlərə,
Gəlmədi Əkbər, gəlmədi.
Ondan sonra olanları
Bilmədi Əkbər, bilmədi.

Bu isə təəssübdür:

Bir ağac əl açır sənin dalınca,
Getdiyin yollarda izindən öpür.
Küləklər səsinə oxşama deyir,
Torpaq səcdə edir, üzündən öpür.

Bir ağac yalvarır, qayıt geriyə,
Qayıt, davam elə qaldığın yerdən.
Hər şeyi dondurub gedən Əkbərim,
Sən nura çevrildin olduğun yerdə...

Bu da təqdirdir:

Oğul düşmən çəpəridi, dedilər,
Çəpər oldu son döyüşdə Əkbərim!
Sinəsində qızılgülə döndü qan,
Sipər oldu son döyüşdə Əkbərim!

Çiçəklərə həyat verdi qanıyla,
Ucaldı öz şöhrətiylə, şanıyla.
Alınmaz bir qala oldu canıyla,
Şəhər oldu son döyüşdə Əkbərim!

Azadlığa, hürrə çatdı şəhidim,
Rahat oldu, rahat yatdı şəhidim.
Gecələri aydınlatdı şəhidim,
Səhər oldu son döyüşdə Əkbərim!

"Proloq", "44 gün əvvəl", "15 oktyabr", "8 noyabr", "17 dekabr" fəsillərində Böyük Zəfərə gedən yolun tarixi mərhələləri poetikləşdirilir. Vətən müharibəsində qazanılmış bu zəfər uğrunda Əkbərin doğulduğu Alar kəndindən Taleh Əlizadə, Ramin Bayramov və Bilal Rzayev kimi mərd oğullar da şəhid olublar. Faiq Hüseynbəyli bu şəhidləri ehtiramla yad edir. İndi Əkbərin də doğulduğu Alar kəndini bu Zəfər elçilərinə görə tanıyırlar:

Əkbərtək oğuldan əmindi Alar,
Sevincim, kədərim, qəmimdi Alar.
Talehdir, Bilaldır, Ramindir Alar,
Alar, şəhidin var, gözlərin aydın.

Poemanın bölmələrində məntiqi bir ardıcıllıq var. "**Şəhid atası Azərin dilindən", "Şəhid anası Ruhiyyə xanımın dilindən", "Şəhid bacısı Zeynəb xanımın dilindən"** adlı fəsilləri **"Şəhidin öz dilindən"** adlı bölmə tamamlayır. Şəhid ölmədiyini deyir, "Bu dünyada susadığın ən şirin xəbər ilə qayıtmışam, Vətənim" söyləyir. O, yurda göz dikənləri yenib, hünər ilə qayıdıb. Şəhidin qalibiyyəti isə əməlinin böyüklüyü ilə ölçülür: "Al günəşi öz yerinə qoymuşam, səhər ilə qayıtmışam, Vətənim". Düşmən işğalından azad edilən torpaqlar şəhidin qalibiyyət himnini tamamlayır:

Dağlarından əskilməz bu duman-çən,
Sən mənə tən, mən sənə tən, can Vətən!
Şuşa kimi buludlardan su içən
Şəhər ilə qayıtmışam, Vətənim.

İntizardan qar ələnən saçınla,
Sağ əlinlə, sol gözünlə, qıçınla –
Kəlbəcərlə, Zəngilanla, Laçınla,
Zəfər ilə qayıtmışam, Vətənim.

Poemanın maraqlı fəsilləri Əkbərsiz keçən günlərlə bağlıdır. Adət-ənənəyə görə, dünyasını dəyişənə yeddi gün mağar qurulur, yas saxlanılır. Sonra şəhidin məzarı ardıcıl olaraq bütün cümə axşamlarında ziyarət olunur. Qırx mərasiminin təmtəraqlı keçirilməsi dünyasını dəyişən şəhidə ehtiramı ifadə edir. Poemanın **"Qırxıncı gün"** adlı fəsli bu ənəni yaşatmaq istəyindən doğur:

Bu məzar daşının dili var, Allah,
Adamla danışır bu məzar daşı.
Od qoyur sənətə, sözə, nəğməyə,
Bu ayrılıq daşı, intizar daşı.

Bir vətən uyuyur burda bu adda,
Gəlir ziyarətə doğma da, yad da.
Ayağı torpaqda, başı buludda,
Aşa bilməz qara ruzigar daşı.

Azadlıq sözünün abidəsidir,
Min illik tarixin sözü, səsidir.
Bir elin-obanın salnaməsidir,
Xatirə lövhəsi, dərd-qübar daşı.

Poemanın epiloqunda şəhidlərin böyüklüyü onların uğrunda canlarını qurban verdikləri Vətənlə ölçülür. Onlar sələflərindən öc alıblar, tarixlərdən güc alıblar, şəhadətə ucalıblar, Vətən-Vətən böyüyüblər.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü *Vəfa Mürsəlqızı* Əkbər haqqında ürək ağrısı ilə yazır: "Yadımda gözlərin qalacaq, həsrət dolu baxışların. Heç kim bilməyəcək nəyin və ya kimin nisgilini apardın ürəyində. Saçlarına və yanaqlarına doğma torpağından əsən meh dəyməyəcək, körpə balamız. Can şəhid, ağıllı gözlərinə qurban olaq. Əkbər, sənin yaşaya bilmədiyin o ömrü bizə halal elə. Oğul, qardaş, elə bilirdim, sağsan. Allaha əmanət ol, yerin behişt olsun". Bu təsəllinin arxasınca Vəfa Mürsəlqızının ürək parçalayan "laylası" gəldi:

Sən gedənnən neynirəmsə, ölmürəm,
Həyatmı var mənə sənnən aralı?
Sənin haran yaralıydı, bilmirəm,
Mənim əlim, qəlbim, gözüm yaralı.

Daha kimsə eşitməz ki səsimi,
Bitib sözlər, bayatılar, ağılar,
Qoxlayıram köynəyini min dəfə,
Yumuram ki, ətrin birdən dağılar.

Vəfa Mürsəlqızının "bu dünyada ürək dolusu gülməyən" şəhid Əkbər Hüseynli haqqında yazdığı ikinci şeiri də eyni ovqata köklənib. Hər şəhid bir yaranış üçün ilmədir:

Dünya sənsiz gülmür, oğlum,
Bahar sənsiz gəlmir, oğlum.
Axı qızlar bilmir, oğlum,
Ölmədin, Əkbər, ölmədin.

İnsana iki dəfə layla çalırlar, oxşama deyirlər, bir dünyaya gələndə, bir də dünyadan köçəndə! *Arzu Göytürkün* nur üzlü şəhidimiz Əkbər Hüseynliyə dediyi layla ürək dağlayır:

Cənnət ətirlim, oyan,
Qoxuna qurban olum.
Əbədi yatışına,
Yuxuna qurban olum.

Gəldim laylay söyləyəm,
Uçulub qalam, lay-lay.
A mənim müqəddəsim,
Kəbəm, Kərbəlam, lay-lay.

A mənim kişi balam,
Oğul balam, ər balam.
Vətənin fədaisi,
Qəhrəman Əkbər balam.

Belə səssiz-səmirsiz
Yatışına qurbanam.
Qara mərmərdən baxan
Baxışına qurbanam.

Oyan, qurbanın olum,
Yuxusu şirin balam.
Bəy otağın boş qalıb,
Görünür yerin, balam…

Digər bir şair xanım, o zaman Türkiyədə yaşayan *Gülnarə İsrafil* isə Əkbərə ağı dedi:

Murov qana boyanıb,
Şəhid-şəhid oyanıb.
Vətən min can aparıb,
Biz yanmışıq, o yanıb.

Bir qədər sonra Gülnarə İsrafilin Əkbər haqqında yeni şivən-ağısı mətbuata ayaq açdı.

Şəhid Əkbərin əyninə geydiyi üç rəngə boyanan köynək isə Azərbaycan bayrağıdır, tabutu üstünə döşənib:

Gülüşü kəklik səkdirir,
Köynəyi üç rəngə dolur.

Sinəsi xallı köynəyin,
Toylu, qavallı köynəyin,
Vətənə çevrildi igid,
Geyindi şanlı köynəyin.

Bu ər oğul, ər oğuldu,
Evdə təkdi, bir oğuldu.
Çiyni torpağı qaldıran
Dayaq – ərgin tir oğuldu.

İlkin Mehdi yazır ki, Əkbərin qayıdışını bütün kənd intizarla gözləyirdi. Hamı ondan xoş xəbər almaq ümidi ilə yaşayırdı. Əkbər Murovun zirvəsini fəth elədi, elə fateh kimi də çiyinlərdə döndü, nəslini-soyunu şəhadət hədiyyəsi ilə şərəfləndirdi. *İlham Cəsur* "Əkbərim" adlı mərsiyəsini yazdı:

Sən hicabı-ərşi açdın, mərhəba,
Həqqə kimdir böylə məhrəm, Əkbərim.

Əhli-aləm eşqinə pərvanədir,
Sən də əhli-aləmə şəm, Əkbərim.

Surətindən qeyrət axır qanlara,
Qəhrəmanlıq əks olur həm, Əkbərim.

Bir məqamdır bu şəhadət, onda Həqq
Hər nə mənzil var edib cəm, Əkbərim.

Tamara Nadirova "Şəhidlər bir-birinə bənzəyir" adlı mərsiyəsində Əkbər Hüseynlinin xatirəsini müqəddəs sayır, onun bu şeiri ana harayına bənzəyir, deklamativ poetikadan çox, nalə, qıyya, şivən ovqatını ifadə edir:

Qəbrin üstə açılıb tər-təzə güllər, balam,
Ruhuna qurban olum,
ay mənim Əkbər balam.

Ay düşmən gülləsinə sinəsi sipər oğlum,
Polad biləkli əsgər, igid oğlum, ər oğlum.

Şəhidlər haqqında silsilə şeirlər yazan *Elşad Baratın* qələmi Əkbər Hüseynlidən də yan ötmədi, kiçik bir şeirdə möhtəşəm bir şəhid obrazı yaratdı:

Tanrı bütün dağların
Taleyini tən yazıb.
Ayaq izin Murovda,
Qar üstə "Vətən" yazıb.

Yazıb itkin dedilər,
Gizlədi zaman səni.
Bircə günə bir ömür
Gözlədi anan səni.

Mən səni tanıyıram
Cənnətin güllərindən.
Mən səni tanıyıram
Kərbəla çöllərindən,

Tanıyıram əbədi
Yadda qalan birisən.
Birdən-birə böyüyüb
Vətən olan birisən.

Mən səni tanıyıram,
Torpağın canındasan,
Atanın yuxusunda,
Tanrının yanındasan.

"Kərbala çöllərindən tanınması" Əkbərin yeniyetmə yaşlarından bu müqəddəs şəhadət məktəbini ziyarət etməsi ilə bağlıdır. İnanclı bir gənc olan Kərbəlayı Əkbər Hüseynlinin bu xarakteri onun haqqında yazılmış başqa şeirlərdə də xatırlanır. *İqbal Nəhmət* "Sonuncu tapşırıq" şeirində Əkbər Hüseynlinin haqq uğrunda savaş üçün Qarabağı seçdiyini yazır:

Ziyarət etmişdi imam Hüseyni,
Bilirdi haqq nədir, ədalət nədir.
Getdi zülmlərə dur demək üçün,
Dedi, Qarabağda başlasın "Bədr"!

Vətən çətin gündə... bilirdi Əkbər,
O üzdən yanğını, alovu seçdi.
Bilirdi zirvələr düşmən əlində,
Qisas almaq üçün Murovu seçdi.

İqbal Nəhmətə görə, şəhid əbədiyyətin ölməz oğludur, bu dünya durduqca üzündən, gözündən nur yağan şəhidin haqqı ödənməz.

Əlirza Həsrət şəhid Əkbər Hüseynlinin ruhuna iki şeir həsr edib. "Qənirsiz ölüm" adlı şeirində şəhid ruhunu "Tanrı elçisi" adlandıran Ə.Həsrət "Bayrağa bükülüb Vətənə dönən" igidi elin sevdası sayır:

Şəhidlik-döyüşdən üzüağ çıxmaq,
Şəhidlik-qənirsiz ölüm sevdası.
Başqadır hər şəhid qanından bitən
Çiçəyin sevdası, gülün sevdası.

Hər şəhid bir ovuc Vətən şəklidir,
Ruh Tanrı elçisi, bədən şəklidir.
Tabut-şəhidlərin gedən şəklidir,
Ana laylası da dilin sevdası.

Əlirza Həsrətin Əkbər Hüseynliyə həsr etdiyi ikinci şeir də obrazlı ifadələrlə zəngindir. O, Əkbər Hüseynli kimi şəhidlərin məzarını yurda sipər sayır:

Yarıruh, yarıbədən,
Bitib göyərdi bu dən.
Köz götürüb Vətəndən, –
Bayraq-bayraqdır Əkbər.

Məzarı yurda sipər,
Qız-gəlin çiçək səpər.
Gəl oxu, a bəxtəvər –
Varaq-varaqdır Əkbər.

Əhməd Qala Vəlizadə Əkbər Hüseyinlinin əziz xatirəsinə həsr etdiyi "Özüm qurban oldum Azərbaycana!" adlı şeirində şəhidin adından danışır, onun arzularını dilə gətirir:

Ata, səbir et, ölməmişəm, diriyəm,
Ölməz şəhidlərin mən də biriyəm.
Anam adlı Vətənimə gərəyəm,
Başını uca tut, ağlama, ata.

Yeniyetmə şair *Bilal Hüseynbəyli* şəhid anasına təsəlli verir:

Şəhid anası, başını uca tut,
Dərdini, qəmini, kədəri unut.
Şəhid adı şərəfli, şanlı addır,
Vətən yolunda can vermiş övladdır.
Ağlama, saxla gözünün yaşını,
Özü şəhid olan oğlun
Ucaldıb sənin başını,
Ucaldıb Vətənin başını.

Fuad Biləsuvarlı şəhid Əkbərin Vətən yolunda canından keçib, igidlik dastanı yazdığını bildirir:

Doyunca almadı həyatdan kamı,
Çox məyus elədi hər bir insanı.
On doqquz yaşında tapşırdı canı,
Şəhidlik şərbətin daddı igidim!

Murovda şəhadətə yetmiş Əkbər Hüseynlinin məzarını Tanrı əmanəti adlandıran *Şakir Xanhüseynli* yaratdığı obraza ənənəvi prizmadan deyil, fərqli tərəfdən baxır. Şair belə hesab edir ki, ananın qucağı da, ölümün də qucağı birdi. Ananın şəhid oğlu üçün söylədikləri ürək dağlayır:

Harda, nə vaxt canından keçdin, Əkbər?!
Ana qoynundan rahat, ya istiydimi
ölüm "beşiyi?"
O tabut ki,
düşmədin ondan.

...Baxdım uzaqdan,
gördüm yaxından;
rahat yat, bala, rahat yat,
olma şirin yuxundan...

"Artıq arxadadır o qanlı günlər" deyən *İltimas Səmimi* haqq savaşlarının sonunun qələbə olduğunu bildirir. Vətən uğrunda qəhrəmancasına şəhid olmuş əsgər Əkbər Hüseynlinin poetik obrazını silsilə şeirlərdə yaradır. Üç şeirdən ibarət olan bu silsilənin ilk bəndi qəhrəmanın dilindən söylənilir, ikinci şeirdə isə şücaəti təsvir olunur:

Bu da Murov dağı, ər oğulların
Ömrünə yazılmış bir ağır sınaq.
Silaha sarılan hər əsgərim də
Deyir, qoy yaşasın bu ana torpaq.

Əsgər Əkbərim də bir igid kimi,
Qəlbində yurd eşqi, əlində silah.
İçində nə qorxu, nə bir talaş var,
Açılır gözündə işıqlı sabah.

Silsilənin üçüncü bəndi elimizə və şəhidin ailəsinə olan təsəlli misraları üzərində qurulub:

Torpağın qoynunda uyuyan igid,
Torpağın rahatdır, sən də rahat ol.
Vətənə çevrilən qəhrəmanlarım,
Bir ulu tarixdir bu müqəddəs yol.

Hüseyn Hüseynli "Əkbər" şeirində şəhidin ailəsi üçün artıq ayrılıq ifadəsi olan şəklə dönməsini ürək ağrısı ilə poetikləşdirir:

Daha şəkillərə dönmüsən, Əkbər,
Qəlbi ovutmağa şəkil bəs etmir.
Gecələr gündüzə qarışıb artıq,
Dan yeri sökülmür, gün sona yetmir!

Ağlayan yağışlar, əsən küləklər
İntizar sözüymüş, həsrət səsiymiş.
Biz səni doyunca yaşamadıq heç,
Şəkillər ayrılıq ifadəsiymiş...

Vüsalə Vətənxan Mehri mərdliyi, qeyrəti tarix yazan, gənc yaşında başdaşı qoyulan şəhidin məzarının ana ürəyində qazıldığını bildirir:

Atalar fəxr edər oğul gücünə,
Mərdliyi, qeyrəti tarix yazıbdır.
Gənc yaşda başdaşı qoyulan şəhid,
Ana ürəyində məzar qazıbdır...

Sən idin Vətəni qoruyan mələk,
Vətənə sinəni sipər edərək...
Xain ayaqlardan azad etdiyin
Torpağa sarıldı anan, öpərək.

Xalid Mahmud "Zəfər marşı" şeirində Əkbər Hüseynlinin dilindən şəhidin ata-anasına təsəlli verir. Doğrudan da, üçrəngli bayrağa bürünüb çiyinlərdə evinə dönən şəhidin dəfn mərasimində deyilən ağının özü də zəfər marşıdır:

Canımı yolunda qurban vermişəm,
Nə son mənzilimdi, nə son səfərim.
Üçrəngli bayrağa bürünən ruhum,
Mənim qələbəmdi, mənim zəfərim…

İndi Vətənimin səması aydın,
Çəkilib üstündən ölüm qorxusu.
Çöküb sinəsinə ana torpağın
Qələbə qoxusu, hünər qoxusu...

Anam, saçlarını ağartmasın qəm,
Atam, əyilməsin sinənə başın.
Hələ çox Əkbərlər doğulacaqdır,
İgidlər yetirər torpağın, daşın...

Mehri Mikayılova yazır ki, şəhidin başına mələklər dönər, bu millət Əkbər adını öz yaddaşına yazar, bu Vətən şəhidini unutmaz. Əkbər Hüseynli cavan yaşında tarixdə iz qoydu:

"Vətən, vətən!" dedin, getdin irəli,
Bezmədin keçilməz dağlar aşanda.
Cəmi on doqquz il həyatda qaldın,
Tapşırdın canını Suqovuşanda.

Dayana bilmədi o yağı düşmən,
Dayana bilmədi sənin önündə.
Vətən torpağına şəhid qanınla
Yazdırdın adını öz ad günündə.

Ənvər Məsud Şəhid Əkbər Hüseynlinin əziz xatirəsinə həsr etdiyi şeirdə qolunda qeyrəti güc olan Vətən igidini özəl obrazlı ifadələrlə təsvir edir. Sən demə, şəhidin qanı Vətən azadlığı üçün məlhəm imiş, canını fəda elədi, yurddan axan qan kəsildi:

"Can Azərbaycan!" dedilər,
Hər saat, hər an dedilər.
"Can sənə qurban!" dedilər,
Can dedilər, can kəsildi.

Bir ruh gəzir fəzada, bax,
Əkbərdir, o azada bax!
Ay Allahım, təzada bax,
Qurbana qurban kəsildi.

Allahşükür Ağa "Şəhidlər ölməzdir, vətən bölünməz!" – deyir, Əkbərin də bu nida adıyla ucaldığını yazır. İndi şəhid Əkbərin adı Qarabağla bir çəkilir:

Günəşi parladı Murov dağının
Əkbərin ayağı dəydiyi gündən.
Düşmən tab gətirə bilmədi daha
Böyük Türk oğlunun haqqı önündə!

Bəhruz Xəlil, Əkbərin öz şəhadəti ilə əbədi alov saçan tonqal qaladığını yazır:

Vətən uğrunda axan
qanına qurban olum.
Bir gün mən də gələcəyəm
yanına... qurban olum!

İşıqlı sabahlarımızı əməlləri ilə nurlandıran, başımızı dik tutmağa səbəbkar olan Əkbər Hüseynli kimi şəhid balalar canlarını qurban verib tarix yazdılar. Onların haqqında yazılan şeir, hekayə, oçerklər gələcək nəsillər üçün ibrət dərsidir. Bu cür nümunələr dərsliklərə daxil edilməli, kiçik və orta yaşlı məktəblilərə mübarizə örnəyinə çevrilməlidir.

Mən bir şəhid haqqında olan şeirlərdən söhbət açdım. Yüzlərlə şəhidin belə poetik obrazları yaradılıb və yaradılmaqdadır. Tarix bu zəfər anlarını əbədiləşdirəcək, ən gözəl bədii əsərlər hələ bundan sonra yazılacaq. Ancaq isti-isti yazılan şeirlər, müharibə gedə-gedə xalqımızı, ordumuzu qələbəyə ruhlandıran bədii nümunələr əvəzedilməzdir. Elşad Baratın şəhidlər haqqında silsilə şeirlər yazıb "Ədəbiyyat qəzeti"ndə müntəzəm çap etdirməsi, Şahanə Müşfiqin şəhidlər və qazilər haqqında "525-ci qəzet"ə ayaq açan kimlik oçerkləri fədakarlıq nümunələridir. Əslində, onlar əməlləri ilə tarix yaradanlar haqqında tarix yazırlar. Bu cür yazıları və bu yazıların obrazlarını yaratdığı insanları unutmağa haqqımız yoxdur.

Şəhidlərimizə ucaldılan söz abidələri nəsillərə bir örnəkdir.

Aləmzər SADIQQIZI

HƏR BAHAR

Sevgi nəğmələri pıçıldar bahar,
Çiçəklər söyləyər nəğmələrini.
Ürəyim, bilsəniz, nələr arzular,
Durnalar gətirə sevdiklərimi.

Öpə saçlarımdan, telim oxşaya,
Sığınam köksünə körpələr kimi.
Həsrət dənizinə qoşulub gələ,
Dərdimi soruşa ləpələr kimi.

Hər bahar gələndə çiçəyə dönər,
Qoşular buluda, yağar gözümə.
Çiçəklər min nağıl, hekayə söylər,
Bir kövrək qəm yağar, dolar sözümə.

Darıxar cənnətdə ata qucağı,
Durnaya, çiçəyə, yağışa dönər.
Götürüb getdiyi ata payımı
Yağmurla, çiçəklə geri göndərər.

Mənim ümidimin qapılarına
Papaqlar atılmaz, xonçalar gəlməz.
Atalar qapıdan çıxdığı gündən
Heç qardaş payı da qapıdan girməz.

Aləmin ürəyi yara yeridi,
Hər bahar sızlayar, yeri göynəyər.
Mənim həsrətimin qəm dastanını
Əlim yazsa belə, gözüm söyləyər.

VƏ SƏNİN ÜÇÜN...

Qırx ildi, hər bayram səhər gedirsən,
Qırx ildi, hər axşam ölüb gəlirsən!
A.S.

Heç vaxt səməni göyərtmədim.
Qorxdum ayrılıqlardan.
Anam atamı itirdiyim il ilk dəfə qoymuşdu səmənini.
Ömrü boyu atamın ölümünü yıxdı səmənin üstünə.
Nə özümə, nə anama deyə bilmədim,
Atamı Allah apardı.

Bir dəfə dava eləmişdilər.
Anam bizi yığıb başına,
olmayan anasına pənah aparmışdı.
Tez-tez bizi öyrədirdi:
– Məhkəmədə: “Anamıznan qalırıq”, deyin!
Amma mən ürəyimdə "Atamnan qalacam", – deyirdim.
Atam anamdan daha doğmadı.

Sevə bildiklərimin atasını sevmədim.
Sevmədiklərimin atasını…
Mən özümə sevda deyil, ata axtarırmışam, demə.
Amma bir gün nə özünü, nə atasını sevdiyim gəldi ömrümə.
O vaxtdan təzədən öldü atam.
Mən də qırmızı almaların üstünə atdım

Atamın qırmızı alma söz verib,
gedib gəlmədiyini.
Mənə aldığı qırmızı paltar və almalar
qırmızı qanına boyandı deyə, əynim qırmızıya,
balalarım qırmızı almaya həsrət böyüdü.

Sözüm ona,
uşaqlar atalarını sevəndə
bir az dözün haqsızlıqlara.
Yenilin uşaqların arzularına.
Ayrılıq atasını sevməyən uşaqların haqqıdı,
səməni bayramların,
almalar xonçaların.
Səməni göyərtməyən əllərim
yüz ağrı böyütdü.
Qırmızılar küsüb getdi isti ölkələrə.
Mən indi üşüyürəm bu bahar axşamında
səməni üçün,
qırmızı üçün,
və sənin üçün...

GƏLƏCƏYƏM

Qızıma

Bəlkə, çiçək kimi, bəlkə, quş kimi
Yenidən dünyaya qayıdacağam.
Yaşaya bilmədim adam dilində,
Sənlə quş dilində danışacağam.

Bəlkə, çiçək kimi, bəlkə, gül kimi
Evində sənincün çiçəkləyərəm.
Qonub pəncərənə göyərçin kimi
Ruhumla qapını döyəcləyərəm.

Məni yaşamağa səsləyən quzum,
Ömrümü nə qədər baltalayan var!
Çəkdiyim zəhməti, verdiyim haqqı
Hər gün neçə dəfə tapdalayan var.

Bilmirəm, qədərmi, yoxsa cəzamı,
Təpədən-dırnağa bu yanmaq nədir?!
Mən ki Tanrı üçün ölürəm hər gün,
Bu qədər yanğıda bu donmaq nədir?!

Bəlkə də, sənincün yaşadım ömrü,
Bəlkə, sənin üçün dözürəm hələ.
Tanrının verdiyi ağrılarımı
Bəlkə, Tanrı üçün yazıram elə?!

Sən mənim nəfəsim, sən mənim canım,
Mən axı canımdan necə ayrılım?!
Hər gün kərpic-kərpic sökülən ömrü
Təzədən ömrümə necə qaytarım?!

Yaşayım mən necə, ölüm mən necə
Bu qədər yoxluğun, varın içində?!
Aləmin ömrünü necə uzadım
Bu qədər düşmənin, xarın içində?!

ÜÇ NÖQTƏLƏRİM

Mənə üç nöqtəni irad tutan dost,
Ömrüm üç nöqtədən asılı qalıb.
Qırx ildi bir adam çıxıb qapıdan,
O vaxtdan nöqtələr canımı alıb.

Suallar, nidalar kəsib qapımı,
Bir gözüm ağlayıb, bir gözüm gülüb.
Necə yaşamışam, hələ bilmirəm,
Mənim arzularım o gündən ölüb.

O üç nöqtələrdə o qədər sirr var,
Yağıblar ruhuma qar, yağış kimi.
O gündən ömrümə nələr toxuyur
Ağrı ilmə-ilmə, qəm naxış kimi.

Ömrüm də kəsişir üçbucaq kimi,
Bu kəsir taledən çıxa bilmirəm.
Mənim tənliklərim həll ola bilmir,
Ondan üç nöqtəni hələ silmirəm.

Nöqtələr danışır bitməyənləri,
Bitib-tükənməyən dərd-sərimi.
Nəsimi bir dəfə soyulub, dostum,
Hər gün həyat soyur mənim dərimi!

Həyat başdan-başa sözdü, nağıldı,
Nə yaşayan bilər, nə ölən bilər.
Hələ danışıram öz nağılımı,
Mən ölüb gedəndə nöqtələr bitər.

Nöqtələr Aləmi bitirsə bir gün,
Tanrı özü gələr məzarı üstə.
Bir yaşıl, bir bəyaz örtüyü çəkər
Bir qəmli nağılın yazarı üstə.

KİMİ

Azca darıxmışam, azca sənincün,
Arı gül-çiçəkcün darıxan kimi.
Bir dilim çörəyə, bir içim suya,
Bir udum havaya yaxılan kimi.

Hər tərəf ayrılıq, hər tərəf kədər,
Sinəmdə düyündü udduğum qəhər.
Adını bilmirəm, duyğular bilər,
Sevən sevdiyiçün sıxılan kimi.

Qorxuram özümü ələ verərəm,
Ya dəli küləyə, yelə verərəm.
Bir özgə çiçəyə, gülə verərəm
Bu ömür yolunda soluxan kimi.

Baxışım titrəyər, gözüm utanar,
Sənə demədiyim sözüm utanar,
Payız gözlərimdə yazım utanar
Dolan gözlərimə baxılan kimi.

Bir qəmli nəğmədi, çiçəkdi ömrüm,
Bir sirli romandı, mələkdi ömrüm.
Min dərdə, kədərə pətəkdi ömrüm,
Duyarsan Aləmi oxunan kimi.

BOYDADIR

Mənim əllərimin çiçəyi yasda,
Mənim güllərimin gözü yoldadır.
Mənim əzabımın yaşı çox qoca,
Gülməyən könlümün özü boydadır.

Hər bayram könlümə bir nağıl yazar,
Olanlar – olmazlar min məzar qazar.
Tapdığım hər ümid fikrimdə azar,
Sevincim ümidin izi boydadır.

Nə işvə yaşadı, nə də naz bildi,
Nə çəkdi həyatda, onu yaz bildi.
Harda tar ağladı, harda saz dindi,
Külləri könlünün közü boydadır.

Bilməz ki dərdini kimə söyləyə,
Kimi yoldan edə, kimi əyləyə.
Çevirib üzünü indi qibləyə,
Ən gözəl dünyası sözü boydadır.

SABAHIN XEYİR

Bu gecədən sağ çıxan,
Canım, sabahın xeyir!
Güzgüdən mənə baxan
Xanım, sabahın xeyir!

Kirpiyindən qan sızan,
Gözlərindən qəm süzən,
Atəşi məni üzən
Yanım, sabahın xeyir!

Ey dərdi sorulmayan!
Əzabdan yorulmayan.
Heç rəngi durulmayan
Qanım, sabahın xeyir!

Ay dünyası qarışan,
Öz-özüylə danışan!
Hər tərəfi pərişan
Şanım, sabahın xeyir!

Açılmaz ki sandığım,
Səhərədək yandığım.
Diri gözlü dandığım
Danım, sabahın xeyir!

İlləri ötürdüyüm,
Ayları bitirdiyim,
Qənimət götürdüyüm
Anım, sabahın xeyir!

Aləm ilə yol gələn,
Hər gün dirilən, ölən.
Tanrı payı verilən
Canım, sabahın xeyir!



Nizami TAĞISOY

ABAY YARADICILIĞI DÜNYA ƏDƏBİYYATŞÜNASLIĞINDA VƏ BAŞQA DİLLƏRƏ TƏRCÜMƏ MÜSTƏVİSİNDƏ

Böyük qazax mütəfəkkiri, qazax ədəbi dilinin banisi, qazax realizminin əsasını qoyan Abay Kunanbayevin anadan olmasının 175 illiyi bütün dünyada geniş çevrədə qeyd olunur. Abayın qazax mədəniyyəti qarşısında müstəsna xidmətlərini nəzərə alaraq onun yaradıcı irsinə bir qədər fərqli rakursdan – Abay irsinin dünya ədəbiyyatşünaslığında və dünyanın başqa dillərinə tərcümə olunması kontekstində nəzər salmağı məqsədə-uyğun hesab edirik. O cümlədən Azərbaycan ədəbiyyatşünaslığında qazax bədii təfəkkür sahiblərindən əsərləri dilimizə tərcümə olunan və haqqında çeşidli fikirlər söylənilən təfəkkür sahibi olan Abayın yaradıcılığına baxış olduqca zəruridir.

Qazax ədəbiyyatının dünya ədəbi-mədəni prosesinə uğurlu inteqrasiyasında Abay Kunanbayev yaradıcılığının rolu müstəsnadır. Məhz onun yaradıcılığından sonra qazax yazıçı və şairləri dünya çapında daha çox tanınmağa başladı, qazax ədəbiyyatının xarici ölkə ədəbiyyatları ilə münasibətləri fəallaşdı. 1995-ci ildə çinli yazıçı, tədqiqatçı və mütərcim Su Şjou Syunun Pekində nəşr olunmuş "Çingiz dağlarının üç zirvəsi – Şakərim, Abay və Muxtar" mövzulu monoqrafiyası işıq üzü gördü. Bundan bir qədər sonra isə türkiyəli alim Əli Abbas Çinarın "Qazax mədəniyyəti və ədəbiyyatı araşdırmaları" adlı monoqrafiyası türk oxucularına təqdim olundu.

Adlarını çəkdiyimiz müəllifləri qazax ədəbiyyatının Qazaxıstandan kənarda fəaliyyət göstərən tədqiqatçıları hesab etmək olar. Lakin bu heç də o demək deyil ki, qazax yazıçılarının, xüsusən Abay Kunanbayevin yaradıcılığı xarici ölkə müəlliflərinin nəzər-diqqətini həmin dövrə qədər cəlb etməmişdir.

1971-ci ildə Alma-Atada "Qazax ədəbiyyatı xarici tənqidin dəyərləndirməsində" adlı kitabı Qazaxıstan SSR Elmlər Akademiyasının M.O.Auezov adına Ədəbiyyat və İncəsənət İnstitutu tərəfindən nəşr edilmişdir. Bu kitabda xarici ölkə müəlliflərinin qazax folkloru, Cambul Cabayev, Muxtar Auezov, Sabit Mukanov, Qabit Musrepov, Qabiden Mustafin, digər qazax yazıçıları ilə yanaşı, Abay Kunanbayev yaradıcılığı ilə bağlı mülahizələri də təqdim olunmuşdur. Almaniyalı müəllif Q.Ştern, çexiyalılar F.Soukup, L.Qrajbiçek və A.Kostan, macarıstanlı İmre Trençeni – Valdapfel və Y.Fexer Palın da bu kitabda böyük klassikə həsr etdikləri müşahidələri ilə tanış oluruq.

Almaniyalı QeyntsŞtern məqaləsində qeyd edir ki, Abay qazax maarifçilərinin arasında mühüm şəxsiyyət olmaqla ərəb dünyasının poeziya və mədəniyyətini daha dərindən bilsə də, öz xalqını rus mədəniyyəti ilə yaxınlaşmasına istiqamətləndirirdi.

Çexiyalı Frantişek Soukup "Abay – öz xalqının şairi və müəllimi haqqında" məqaləsində Abayın keçdiyi tarixi yola nəzər salmaqla onun yüksək intellektindən, feodal-patriarxal şəraitdə dünyagörüşünün formalaşmasından, qazaxlarda poeziyanın insanları anadan olandan məzara qədər müşayiət etməsindən, onların xalq poeziyasına məhəbbətindən və Avropa trubadurlarının rekordlarını xalq akınlarının öz sənəti ilə üstələməsindən, akınların yarışmasında aytısın rolundan, xalq poeziyasının yerindən ağızdolusu danışır. Frantişek Soukup yazır ki, Abayın xidmətləri özünü iki güclü mürtəce cərəyana qarşı qoyub dini fanatizmin əvəzinə insanı dərk etməyə can atmaqla millətçilik əvəzinə xalqlar dostluğunu ön plana çəkməsindədir. Böyük humanist və demokratın fikri və düşüncəsi ilə klassik Şərq poeziyası üstalığı vahid harmonik yaradıcı ruhla qaynayıb-qarışmışdı.

Digər çexiyalı tədqiqatçı A.Kostansa bu böyük maarifçi haqqında yazırdı: "Abay öz xalqının və şəxsiyyətin azadlıq carçısı, insanların həyat hüququnun və özünəməxsusluğunun qoruyucusu oldu".

Abayın baxış və hərəkətlərində ciddi dönüş onun rus siyasi sürgünündə olan (Y.P.Müxaelis və başqaları), Çernışevski və Dobrolyubovun ardıcılları ilə yaxınlaşmasından sonra baş verdi.

Qeyd edək ki, alman, çex və macar alimləri xarici ölkə tədqiqatçılarından birincilər sırasında Abay yaradıcılığına nəzər salmışdılar. Belə ki, Q.Ştern Abayla bağlı mülahizələrini 1957-ci ildə, F.Soukup 1959-cu ildə Abayın Praqada nəşr olunan "Həyat və insanlar haqqında qırx düşüncə" kitabına yazdığı müqəddimədə, macarıstanlı tədqiqatçı İ.T.Valdapfel 1958-ci və 1960-cı illərdə onun haqqında yazdığı məqalələrində, A.Kostan isə hələ onlara qədər – 1956-cı ildə "Zemledelski novini" nəşrində ortaya qoymuşlar. Ümumiyyətlə, əcnəbi tədqiqatçılardan Abay yaradıcılığının müxtəlif məsələlərini təhlil edənlər sırasında ilk növbədə çex, alman və macar müəlliflərinin adları çəkilməlidir.

Abay yaradıcılığına xüsusi münasibət, heç sübhəsiz ki, onun poeziyasındakı ümumbəşəri notlarla bağlı olmuşdur. Bundan başqa, fəlsəfi esse və poemalarının da tərcüməsi bu kontekstdə müstəsnalıq təşkil etmirdi. Burada qazax və digər xalqların ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsində çalışan tənqidçilərinin də fəaliyyəti qeyd edilməlidir. Ümumiyyətlə götürdükdə, qazax ədəbiyyatının xarici ölkələrdə və ədəbiyyatlarda mənimsənilməsində Abay, yuxarıda dediyimiz kimi, ön mövqedə dayanır.

Burada Abay əsərlərinin müqəddiməsinə nəzər salmaq da zəruridir. Sovet dövründəki Abaya müraciətlərin bir sırasına diqqət yetirdikdə (onların sayı o qədər çox olmasa da), böyük ədibin üç poeması Pekində çin dilində 1958-ci ildə nəşr olunarkən Xa Xuançjanın müqəddiməsi ilə işıq üzü görmüşdü, 1959-cu ildə isə "Qara sözlər" məhz

yuxarıda adını çəkdiyimiz Frantişek Soukupun nüqəddiməsi ilə Çexiyada nəşr olunmuşdur.

Bununla belə, Abay yaradıcılığına və şəxsiyyətinə xüsusi maraq onun YUNESKO tərəfindən 150 illiyinin bayram edilməsi ilə daha çox bağlı olmuşdur. Həmin dövrdə İranda "Abayın əsərləri və fikirləri" və Pakistanda "Abay Kunanbayevin seçilmiş şeirləri" nəşr üzü görmüşdür.

İranda Abay irsinə müraciət İran və Qazaxıstan həyatında mühüm mədəni hadisə idi. Çünki həmin vaxta qədər İran oxucuları Abay yaradıcılığı ilə tanış olmaq imkanı tapmamışdılar. Abayın əsərləri həmin vaxt İranın Qazaxıstandakı səfiri Rəsul İslaminin ön sözü və yaxından dəstəyi ilə çap olunmuşdu. Nəşrə giriş məqaləsi isə İran ədəbiyyatşünası Əli Əsgər Şirdust tərəfindən yazılmışdı. Pakistanda çıxan "Abay Kunanbayevin seçilmiş şeirləri"ni isə tanınmış mütərcim Xalid İqbal Yasir urdu dilinə çevirmişdi. Onun özü də kitaba "Abay – dövrün məğrurudur" adlı müqəddimə yazmışdı.

Monqolustanın paytaxtı Ulan-Batorda Abay Kunanbayevin "Seçilmiş əsərləri"nin nəşri də burada nəzərdən qaçmamalıdır. "Asiyanın dahi şairi" adlı müqəddimənin müəllifi yazıçı-dramaturq Xabişüysyn İslamın Abay haqqında yazdığı fikirləri də maraq doğurur.

Fransız dilində Kristian Visantinin yazdığı "Doğrudan da, Abay torpağı gözəldir" adlı sözardı Abayın seçilmiş əsərlərinə həsr olunmaqla 1995-ci ildə nəşr olunub. Bundan başqa, "Abayın seçilmiş əsərləri" Türkiyə türkcəsində Ziya Yılmazərin müqəddiməsi ilə yenə də həmin 1995-ci ildə işıq üzü görmüşdür.

Abayın irsinin xarici dillərə tərcüməsi sonralar da davam etdirilir. Belə ki, 2000-ci ildə alman dilində üç kitab tərcümə olunaraq əncəbi oxuculara təqdim olunur. 2001-ci ildə Almaniya Federativ Respublikasının Qazaxıstandakı səfiri Andreas Kertinqin müqəddiməsi ilə alman dilində, 2007-ci ildə yenə də Almaniyanın Köln şəhərində ədəbiyyatşünas Leo Koşutun tərcüməsində və "Mənim Abay tərəfə yolum və onun şeirlərinin tərcüməsi problemi" adı altında müqəddiməsi, 2010-cu ildə isə Qazaxıstanda Almaniya ili keçirilən zaman Abayın şərəfinə alman dilində "Abay. Poeziya və Nəsr. Qara sözlər" Almaniyanın Qazaxıstandakı səfiri Rayner Şlageterın müqəddiməsi ilə işıq üzü görür.

2006-cı ildə bolqar dilində "Əqliyyələr" və "İskəndər və Masqud" məcmuəsi nəşr olunur. Nəşrin ön sözünün müəllifi şair-mütərcim İvan İvanovdur. 2013-cü ildə isə Varşavada "Abay Kunanbayev. Sözlər" kitabının polyak dilində təqdimat mərasimi keçirilir.

Burada bir məsələni də qeyd etmək vacibdir. Qazaxıstanda yaşayan ziyalı və yazıçı Gerold Belgerin (milliyyətcə alman) Abay yaradıcılığının Qazaxıstanda və onun hüdudlarından kənarda rus və alman dillərində təblığində zəhmətindən danışmalıyıq. Belger, məqalələrindən birində İ.V.Hötenin "Vəsiyyət"i ilə Abayın "Ölüm dalınca gələndə" şeirlərini bir-biri ilə müqayisə etmiş və hər iki şairin yaradıcılığı ilə bağlı düşüncələrini vermişdir. Öz müqayisəli təhlillərini o, minilliklərin köməyi ilə ənənələrə söykənərək aparmışdır. Qeyd edək ki, bu tipli paralelləri aparmaq heç də asan məsələ deyildir. Məsələ onda idi ki, o, burada Abay şeirinin strofasını, şairin və şairliyin mahiyyətini, onun gələcək qarşısında məsuliyyətini dərk etmədən incələmək istəməmiş, varlığın qanunlarına daxil olmağı daha mühüm hesab etmişdi. Höte və Abayın adlarını çəkdiyimiz şeirləri "Rusiya almanlarının bədii ədəbiyyat və publisistika almanaxı"nda 1995-ci ildə çap olunmuşdur. Gerold Belger Abay yaradıcılığının mahiyyətini dərindən dərk etdiyindən ayrıca olaraq "Alman Abayı yollarında" mövzulu bir məqalə də yazmışdır. Belgerin bu məqaləsi "Amanat" jurnalında nəşr olunduqdan sonra alman dilində çıxan başqa bir jurnalda "Abay və Höte – mənəvi səsləşmə" adlı essesi də işıq üzü görmüşdü.

Məlumat üçün qeyd edək ki, Gerold Belger hərtərəfli inkişaf etmiş yaradıcı şəxsiyyət olmaqla özündə üç mədəniyyətin xüsusiyyətlərini – qazax, alman və rus xalqının düşüncə tərzini son nəfəsinə qədər qoruyub saxlaya bilmiş, Qazaxıstanı və qazaxları, onların mənəviyyatını, əxlaqını və

mədəniyyətini Almaniyaya və almanlara yaxından mənimsətməyi bacaran ziyalılardan olmuşdur. Qazax yazıçılarının əsərlərinin alman dilinə tərcüməsi ilə məşğul olan G.Berger həm də olduqca maraqlı "Səfilin evi" romanını da qələmə almışdır ki, orada alman xalqının faciəvi taleyi öz əksini tapmışdır.

XX əsrin 70-ci illərində Abayın bir sıra şeirləri ingilis, alman, ərəb dillərində nəşr olunsa da, onun yaradıcılığının mahiyyətini təşkil edən poemaları və fundamental nəsr nümuməsi hesab olunan "Qara sözlər"i indiyədək mütərcimlərin diqqətini cəlb etməmişdir.

Ümumiyyətlə, bildirək ki, XXI əsrin əvvəllərindən daha çox Abay Kunanbayev ədəbi-fəlsəfi irsinin dünya miqyasında yenidən dərk olunması getmişdir. Çünki Abayın qazax, türk, Şərq və dünya ədəbiyyatı, fəlsəfi-estetik fikrində fenomenal hadisə kimi yenidən daha dərin kontekstdə öyrənilməsinə ehtiyac duyulmuşdur. Yada salaq ki, Abay rus, polyak, alman və ingilis klassikasından etdiyi uğurlu poetik tərcümələri ilə qazax – Avropa ədəbi-mədəni münasibətlərində yeni səhifə açmış sənətkar kimi tanınır. Onun yaradıcı şəkildə ortaya qoyduğu tərcümələrdə bəzi hallarda ölkənin obrazı, lirik qəhrəman özünə uyğun əks olunmasa da, reallığa müvafiq olmaqla "özünün spesifikasına uyğun quruluş qanunları və inkişafına malikdir".

Abayın şairlik istedadında M.Y.Lermontovun incə lirizmi, M.F.Axundzadənin dramatizmi, Q.Zakirin qrotesk və satirası, A.S.Puşkinin, V.Jukovskinin, K.Batyuşkovun elegikliyini görmək mümkündür. Çünki Abayın dünyaduyumu o qədər geniş və çoxşaxəli idi ki, onu qazax xalqının öncülü hesab edənlər heç də yanılmırdılar. Abayın bədii-poetik yaradıcılığının orijinallığı onun əsərlərinin rus dilinə və digər dillərə çevrilməsində mühüm rol oynadı. Rus poetik fikrinin ən yüksək və əzəmətli simaları – D.Brodski, V.Buqayevski, A.Qatov, L.Dliqaç, M.Dudin, V.Zvyagintşeva, P.Karaban, Y.Kuznetsov, M.Lukonin, Y.Neyman, M.Neçay, M.Petrovskix, Vs.Rojdestvenski, L.Rust, M.Tarlovski, A.Ulyanov, A.Şteynberq və başqa bu kimi poetik təfəkkür daşıyıcıları onun şeirlərini böyük məhəbbətlə rus ictimaiyyətinə təqdim etmişdilər.

Abay yaradıcılığına belarus mütərcimləri də kənar müşahidəçi kimi qalmamışlar. Belə ki, Minskdəki "Literatura i Mastatstva" nəşriyyatı "Abay. Stepavı prastor. Nubranıya verşi" (Abay. "Səhra ənginlikləri. Seçilmiş şeirlər") adı ilə Abay yaradıcılığını belarus mütərcimlərinin köməyi ilə oxucu ictimayyyətinə çatdırdı. Kitabın nəşrində Qazaxıstanın Belarusdakı səfərliyinin fəaliyyəti xüsusi ilə qeyd edilməklə bu mənbə iki xaqlın səmərəli və çoxşaxəli əməkdaşlığının nəticəsi kimi ortaya qoyulmuşdur.

Belarus tədqiqatçısı A.N.Karlyukeviç "Syabrına" jurnalında 2009-cu ildə "Abay və Kupalanın günəsi" adlı məqalə nəşr etdirir. Eyni zamanda burada o, qazaxlarla belaruslar arasında olan qarışlıqlı əlaqələri şərh edir. Bütün bunların işığında belarus oxucusu Abay poeziyası ilə yaxından tanış olmaq imkanı əldə edir.

Belarus alimlərinin və mütərcimlərinin yanaşmalarında Abay poetik obrazları ilə Yanki Kupala obrazları arasında, gözəlləri hər iki şairin vəsfi, şeir mətnlərinin dinamizmində "yay" obrazının yaradılması, eyni zamanda Abayın "Qara sözlər"i ("Nəsihətlər"i) ilə Yakub Kolasın müdirik "Həyat nağılları" məcmuələri, Abay maarifçiliyi ilə Frantişek Boquşeviçin maarifçiliyi arasında çoxsaylı paralellər və oxşarlıqlar izlənilməkdədir. Abayın əsərlərini belarus dilinə tərcümə edən şair Nikolay Metlitski aşağıdakıları etiraf edirdi: "Mən tərcümə ilə bağlı iş prosesi haqqında heç kimə heç nə demirdim, öz-özümə tərcümə edirdim, iş masamın arxasında, ya ezamiyyətdə olarkən yavaş-yavaş tərcümə edib bu müdrikin poeziyasının mühüm mahiyyətinə daxil olmaq istəyirdim. Tərcümə zamanı gördüm ki, Abay şeirlərinin tarixi bizim klassiklərimiz Yanka Kupala və Yakub Kolasın doğum və şeir tarixi ilə üst-üstə düşür. Bu isə XIX yüzilliyin 80-ci illərinin şeirləridir. Bu məni yeni yaradıcılığa ilhamlandırdı və istiqamətləndirdi...".

Abayın "Səhra ənginliyi" poetik məcmunəsi A.Smirnovun oxucuya ünvanlanmış "Mütəfəkkür,

maarifçi, humanist" adlı ön sözü ilə açılır. Kitab Abay yaradıcılığına sonsuz sevgi ifadə etməkdədir. Təsadüfi deyil ki, elə buna görə də bu poetik məcmuənin əks-sədası da geniş olmuşdu.

Qazax-Koreya ədəbi əlaqələri ilə bağlı bəzi fikirlərimizi də məhz Abay yaradıcılığı kontekstində şərh etməyimiz burada mövzuya uyğundur. Belə ki, ilk dəfə olaraq Abay poeziyası həm də Koreya dilinə tərcümə olunmuşdur. Qazaxıstanda əsərlərin tərcüməsi 20 ilə yaxın yaşamış Kim Byön Hak tərəfindən həyata keçirilmişdir. Kim Byön Hak özü hüquqşünas olsa da, Koreya qəzeti "Kore İlbo" qəzetinin müxbiri və Qazaxıstanda Koreya Mədəniyyəti Mərkəzinin direktoru kimi fəaliyyət göstərmişdir. "Abay. Qızıl yurtanın nəğmələri" adlı bu kitabda qazax şairinin 100-dən artıq şeiri təqdim olunmuşdur. Burada şairin qısa bioqrafiyası ilə yanaşı, həm də bəzi izahlar da verilmişdir. Koreyalıların könlünü oxşayan bu kitabla bağlı "Deməli, Qazaxıstan səhralarında Konfutsiyə tay filosof yaşamışdır?" tipli fikirlər səsləndirilmişdir.

Peyzaj lirikası, sevgi, kədər lirikası daxil edilmiş bu məcmuədə həm də Abayın səkkizlikləri və satirik poeziyası da yer almışdır. Həmin nümunələr professor Sung Sil, professor Co Qyu İka və digərlərinin nəzər-diqqətini yetərincə cəlb etdiyindən onlar bu şeirlərlə bağlı yüksək fikirlər bildirməyi özlərinə borc bilmişlər.



Bütün söylədiklərimiz onu göstərir ki, Abay yaradıcılığı xarici ölkə oxucularının qavrayışında yetərincə mənimsənilərək özünə möhtəşəm mövqe qazanmışdır. Qeyd edək ki, mənimsənilmə problemi reseptiv olub ədəbi tənqiddə və ədəbiyyatşünaslıqda estetikanın mühüm anlayış aparatı olaraq nəzərdən keçirilir və bu ideyadan çıxış edərək bildirək ki, əsər öz potensialını yalnız ədəbi mətnin oxucu ilə qarşılıqlı münasibətində əldə edir. Yəni reseptiv estetikanın başlıca postulatı kimi ön plana oxucunun mətnlə kommunikativ əlaqələrinin qurulması çıxır. Resepsiya (mənimsənilmə) prosesində bir milli ədəbiyyatın nümunələri digərinin prizmasından başqa bir ədəbiyyatın resepsiya olunması ilə ortaya gəlir. Bu kontekstdə Abayın əsərlərinin xarici ölkələrdə nəşri və oxuculara çatdırılması həmin sənətkarın yaradıcılığının dünya ədəbiyyatının tərkib hissəsinə çevrilməsi ilə özünəməxsus mövqe qazanır.

Abay yaradıcılığının xarici ölkə ədəbiyyatları tərəfindən mənimsənilməsi onun əsərlərinin dünya çapında qəbul edilməsi ilə bu gün də uğurla davam etməkdədir. Bu isə ümumilikdə qazax klassikasının mənimsənilməsi ilə bağlıdır. Abayın əsərlərinin xarici ölkə ədəbiyyatları tərəfindən mənimsənilməsində, yuxarıda qeyd etdiyimiz kimi, alman, çex, macar, türk, çin, monqol, koreya, urdu, fars və başqa ədəbiyyatların nümayəndələrinin, mütərcimlərinin və ədəbiyyatşünaslarının rolu böyük olmuşdur. Bu ölkələrin tənqidçi, ədəbiyyatşünas və mütərcimləri Abay yaradıcılığını milli mədəniyyətləri mövqeyindən dəyərləndirib müqayisələr aparmaqla öz milli əsərləri ilə Abay əsərləri arasında olan spesifik və ümumi xüsusiyyətləri fərqləndirməyə çalışaraq qazax mütəfəkkirinin yaradıcılığının unikallığını göstərmişlər. Qeyd etdiyimiz ədəbiyyatlarda qazax ədəbiyyatı və onun XIX əsrdəki ən əzəmətli nümayəndəsinin yaradıcılığı dünya ədəbiyyatının bərabərhüquqlu və orqanik hissəsi kimi nəzərdən keçirilir. Abay yaradıcılığının dünya ədəbi məkanına inteqrasiyası bu gün də uğurla davam etməkdədir.



Orxan YAŞAR

YORĞUNLUQ

Elə bil yorulub, yorulub hamı,
Yorulub insanlar biri-birindən.
Dost dostdan yorulub, qardaş qardaşdan,
Rəfiqə yorulub rəfiqəsindən.
İnsanlar yorulub insan olmaqdan,
İnsan olmamaqdan insan yorulub.
Hər şey də insandan yorulub sanki...
Bazarlar küçəyə atıb insanı,
Dükanlar yorulub dükan olmaqdan,
Gəlimli-gedimli məkan olmaqdan.
Şəyirdsiz, ustadsız qalıb məktəblər,
Bezib öyrətməyən məktəb olmaqdan –
İnsan ürətməyən məktəb olmaqdan.
Belə var olmaqdan yorulub məktəb,
Dörd divar olmaqdan yorulub məktəb...
Məbədlər qapadıb qapılarını,
Münafiq qəlblərin ziyarətinə
Yorulub kəlisa da, bütxanə də.
Kəbə də yenilib yorğunluğuna,
Saxta ibadətə darğınlığına...
Yorulubdur bütün münasibətlər
İflah ola çətin münasibətlər.
Sevgisiz nikaha məhkum o bağlar
Hər dəm qırılanda mələklər ağlar...
"O məsum günlərə qayıda biləm,
Bircə gün yaşayıb, ertəsi öləm".
Söyləyən o qadın yorulub, demək,
Yorulub o qadın qədim peşədən,
Bir parça çörəyə möhtac buraxıb,
Onu vadar edən hər fahişədən!
Baxma o zorbanın yüksək səsinə,
Qarğış eşitməkdən qulağı batıb.
Vicdanın səsini yatırmaq üçün
Özü də özündən yorulub, yatıb.
Yorulub həkimlər yalan deməkdən,
Saxta əlac satıb, haram yeməkdən...
Sorursan, nəhayət, bütün bunların
İçində mən özüm necə yorğunam?
Kimədir sitəmim, kimə sualım,
Kimdən incikliyim, kimə qırğınam?
– Mənəm o fahişə, mənəm o zorba,
Məzlumun evini yıxan da mənəm,
Zülmə uğrayanda min fəryad edib
Göyləri ahımla yaxan da mənəm!
İbadəti saxta o möminəm mən,
Gəncləri tükədən o ağsaqqalam.
Özüm də bələdəm əməllərimə,
Ki, mən necə tülkü, necə çaqqalam!
Həm də ki günahsız, o məsum pəri,
O duru ürəyi dillər əzbəri,
Qanqallar içində açan bir çiçək,
Ətrinə bürüyən bütün elləri!
Bildiyin kəslərin tamamı mənəm,

Bütün nəbilərin imamı mənəm!
Daha nə sanayam, daha nə sanam?
Nə qədər ucalsa, yenə toz olan,
Tozdan yaratdığın həmin insanam!
Sitəmim sənədir, Ulu Yaradan,
Bir az ədalətsiz oyun qurmusan,
Necə yorulmayım mən bu oyundan?
Deyirsən, az qalıb, qurtarır vaxtın,
Sən insan yaratmaq seçdin özünə,
Allah yaratmağı mənə buraxdın...

RƏSSAMIN MÜŞFİQƏ CAVABI

İndi gözəl çəkmək zamanı deyil,
Rəssamdan incimə, incimə, şair,
İndi bir mücərrəd lövhə yaraşır
İllərlə boğulmuş hıncıma, şair!

İndi hər mövzudan əzəldi Vətən,
Əydilər, sınmadı, düzəldi Vətən,
Sənin gözəlindən gözəldi Vətən,
Onun hər yanını qoy özüm çəkim!

Seyr edim yenə də Cıdır düzünü,
Öpüm Kəlbəcərin gülən gözünü,
Qərənfil aşiqi o Xan qızının
Lətif lisanını mən özüm çəkim!

Maviyə boyanıb yenə göy üzü,
Yarım qalıb yaşıl düzlərin sözü,
Qırmızı boya ver mənə, qırmızı,
Şəhidin qanını mən özüm çəkim!

O qanda bərq vursun hilalım mənim,
Görünsün Təbrizim – yaralım mənim,
Birləşsin oralım-buralım mənim,
O vüsal anını mən özüm çəkim!

Yaddaşı sönməsin bu qutsal qanın,
Bidayəti olsun yeni dastanın,
Oyatsın ruhunu Alp-ər Tonqanın,
Turanın şanını mən özüm çəkim!

Bax belə mücərrəd lövhə yaraşır
İllərlə boğulmuş hıncıma, şair,
İndi gözəl çəkmək zamanı deyil,
Rəssamdan incimə, incimə, şair!

ƏNCİR AĞACI

Çiçək açmamısan ətirdən yana,
Kölgən bizə yetdi çətirdən yana,
Orxan söz deməz ki, sətirdən yana,
Kimi sözlə çəkdim dara, bilmədim...

Sən məni bağışla, əncir ağacı,
Mən sənin haqqını verə bilmədim,
Çürüdü nübarın, zay oldu barın,
Dərmək istəsəm də, dərə bilmədim!

Ətrafım yan-yörən kimi hasarlı,
Ömrüm budaqların kimi qubarlı,
Ruhum bəhərintək olsa da barlı,
Xiridar əlinə vara bilmədim!

Olanlar boş yerə olmur, şəcərəm,
Kökü olmayanı çətin becərəm!
Yazılan yazıdan hara qaçaram?
Həyat kağız deyil – cıra bilmədim!

Bu nəyin sevdası, bu nəyin dəmi?
Ağacdan olarmı könül həmdəmi?
Yuxuma gəl, söylə, günah məndəmi?
Ayıq gözlərimlə görə bilmədim!

Haqq məni imtahan etdi ağacla,
Tək necə bacarım yeddi ağacla,
Kəsdim, haqq-hesabım bitdi ağacla,
Məhəbbəti başa vura bilmədim!

Bəlkə də, bu məşum sənələr bitər,
Kökündən yepyeni pöhrələr bitər,
Ah, nələr yaşanar, ah, nələr bitər,
Deməzsən yaramı sara bilmədim!!!

Gülnar SƏMA

AYSEL XANLARQIZININ "DARIXAN ŞEİRLƏR"İ

"Bir şeirin könlün alıb, heca-heca sevdim səni" – misralarının müəllifi Aysel Xanlarqızının "Darıxan şeirlər" kitabından söhbət açmaq istəyirəm. Kitabın bir şeirindəki "bir tabutluq çiyin, bir kəndirlik boyun, bir dözümlük can, bir qismətsiz yazı" kimi tapıntılar əksər şeirlərdə nəzərə çarpır:

Çiçəklər arıların dodaqlarında
bal daddıqca
yarpaqlar xəfif təbəssümlə qımışır burda,
hörümçəklər yuva arzusuyla
tər tökürlər torda...

Arılar və çiçəklər, hörümçək və tor sözün bütün mənalarında ədəbiyyatın hədəfinə tuş gəlib. Ayselin təqdimatında isə balın çiçəklərdən başlayan ömrünün arının dodaqlarından keçən həyat yolu yarpaqların xəfif təbəssümlə qımışmasına səbəb olub. Eləcə də hörümçək torunun yuva qurmaq arzusundan başlayaraq tər tökməyin bəhrəsi kimi hörgüsü şairanə təqdimatdır.

Qolları eşq döngəsi,
Ömürdür hər nəfəsi...
Gedişi mərmi səsi,
Həsrəti savaş adam.

Qolların eşq döngəsinə bənzədilməsi çarəsizliyin fərqli təqdimidir. Hərəsi bir tərəfimizdə yerləşən qollarımızı üfüqi istiqamətdə və ya başımız üzərinə qaldırsaq, hərəsi bir tərəfə baş götürüb gedər. Paralel tutsaq, həndəsənin aksiomları öz hökmünü verər: paralel düz xətlər kəsişməz. Həmin paralel qollarımızı kəsişdirib özümüzə tərəf əysək, özümüzü qucaqlamalı olarıq. Əgər bizi başqası qucaqlamırsa, qollarımız eşqin özümüzə sarılan eşq döngəsidir. Şeirdə isə söhbət ONUN qollarından gedir. Eləcə də, onun nəfəsindən, onun gedişindən, onun həsrətindən. O nəfəs ki, sənincün ömür deməkdir. O gediş ki, ancaq mərmi səsiylə müqayisə oluna bilər və düşdüyü, ya da dayandığı yerdə faciələr yaradar. O həsrət ki, onu duymaq özünü savaşda hiss etmək kimidir.

"Dünya Tovuz boydaydı bu gecə, /Bütün manşetlər boyu/ Güllələnirdi xəbərlər..." – misraları Tovuz döyüşlərinin qəhrəmanlarından olan general Polad Həşimovun xatirəsinə həsr olunmuş şeirdəndir. 30 il torpaqlarının 20 faizi işğal altında qalmış bir dövlətin yenidən başqa bir bölgəsinə düşmən göz dikərsə, o zaman o xalq üçün bu boyda dünya kiçilib bir rayon boyda olar. O millətə elə gələr ki, bütün dünya ilə mübarizə aparmaq, sadəcə, bir rayonu müdafiə etmək qədər mümkündür. Düşmənin üzü dönərsə, millətin də gözü dönər. Dünyanın hər yerində etiraz dalğaları baş qaldırar. Bütün manşetlərin xəbərlərini güllə səsinə məhkum edər:

"Sus, danışma" bağırır bütün atəşkəslərə,
Son damla qanınadək tarix yazır oğullar...
Qarabağa duatək səslənir güllə səsi,
Qələbə arzusuyla gerçək olur nağıllar,
Hücum əmri şığıyır...

Bu bənddə Vətən müharibəsinin bütün gəlmişini-getmişini sezmək olur. Son damla qanınadək tarix yazan oğulların atəşkəs qərarlarını susdurmaq əmri verməsinə alqış duyulur. Xalqımızın müharibə dövründə atəşkəs müqavilələrinə olan etirazından tutmuş, güllə səsini duatək qəbul etməsi, qələbəyə inamı, nağılları gerçəkləşdirmək əzminədək təqdir edilir.

Sən zindan aşiqisən, mən azadlıq yanğılı,
Qoşulmağa gücüm yox içimdəki haraya...
Rəngli-rəngli baxsaq da bu sevginin gözünə,
Kefin istəməyəndə deyəcəksən qaraya boz...

Ayselin bu kitabında nümunə gətirdiyimiz bəndin formasına oxşar bir neçə eksperiment şeir var. Mənə elə gəlir ki, bu eksperimetlər uğurlu alınıb. Belə ki, hecada yazılmış hər dörd misranın sonuna ya bir söz, ya da bir söz birləşməsi əlavə edilib ki, bu da mənaca əvvəlki misralarla bağlanır. Həmin qanunauyğunluq digər şeirlərində də mükəmməllik yaradıb. "Darıxan şeirlər"in məxsusi cəhətlərindən biri xoşagəlimli qafiyələrin varlığıdır:

Gözündən yuxu tökülən
Gecəm yellənir beşikdə.
Həsrət evimin içində,
Sevinc buzlayır eşikdə...

Bəndində işlədilmiş beşikdə və eşikdə tam qafiyələri ilə yanaşı, "qarmağı sevən balığa", "səndən qalan tək qalıq", "şüa kimi sevməyə" "dua kimi sevmək" qafiyəsinin tapılması mətn daxilində çox yerinə düşür. "Günəşi alovlandırasan qoynunda//Öpüşləri boyunbağı edəsən boynunda..." – misraları isə yalnız qafiyələrinin gözəlliyi ilə deyil, mənasının özəlliyi ilə də fərqlənir.

Aysel Xanlarqızının bu kitabında "İnsan adlı oyuncağam", "Dərviş ömrü", "Qonaq görüşlər" və başqa bir neçə heca vəznində yazılmış şeirlərinin bütün misralarını poetik örtüyə qərq olmuş görürük**.** Bu cür şeirlər müəllifinin ani səhlənkarlığı olmasa, daha yaxşı olardı. Məsələn:

Həyat çılğın dalğaların gətirdiyi çöpləri
Yığsa da sahilim boyu,
Zamanı sevgiyə boğmağı sevdim...

misralarında ilk baxışdan hər şey qaydasındaır. Lakin SEVGİYƏ sözü Azərbaycan dilinin qrammatik qaydalarını pozub. Fikrimcə, bu söz ya "ilə" qoşması və ya -da, -də şəkilçisi ilə işlənməli idi. Sözün yönlük halda işlənməsi heç bir məna kəsb etməsi ilə yanaşı, həm də dil qüsuru yaradır. Heç sevgiyə qərq etmək anlamı da vermir. Bundan başqa "əgər gedərsəm, mənimçün darıxma" – şərt budaq cümləsində də "getmək" feilinə şəkilçilər düzgün ardıcıllıqla qoşulmayıb. Normaya əsasən, zaman şəkilçisindən sonra şəxs, sonra şərt şəkilçisi gəlməlidir və söz "gedərəmsə" olmalıdır. Nümunənin sərbəst şeirdən olduğunu nəzərə alaraq, heç bir poetik məcburiyyət qarşısında qalmadan dil qaydalarını pozmağa haqq qazandırmaq olmur. Ona görə ki, Aysel istəyəndə dil və ədəbiyyatın iş birliyindən öz xeyrinə yararlana bilir: "sevgim həsrətinə əsir qurtuldu", "ayrılığın fəryadında səadətə kar olmuşam", "xoşbəxtlik alın yazımda qəza enişi eyləyir", "sürət həddini aşmış mənim şikəst həyatım" – misraları sözün ən gözəl halındadır. Eyni zamanda "yarpaqtək yaşadı ruhum xəzəli", göz dəyməsin təkliyimə, bir sıldırım qaya kimi..." təşbehi, "məni yoxluğuna alışdırma gəl, yolları götürrəm ayağın altdan..." mübaliğəsi müəllifinə əhsən dedizdirir.

Nazilə GÜLTAC

MƏNİ İTİRDİN

Ömrün daş qəsrində
gəzirəm...
Qulağımda həzin nəğmə –
keçmişin
daşa dönən səsində.
Ürəyinə ilişib
yıxılan ürəyim yaralı.
Göynəyən qəlbimi
gözümə sıxmışam,
heykəlləşib göz yaşım.
Məni uzaqlara aparıb,
yorğundu ayaqlarım.
Səni itirməkdən qorxurdum,
daş ürəklim.

HİSSİN ODU

Günlər keçib gedir
Bir şirin təbəssümdə,
Gah göz yaşında.
Acı qəhqəhədə,
Bir xoş baxışda.
Əşyalar arasında,
Dodaq pıçıltısında.
Bizdən bir toz qonur
havaya –
Havadakı damlaya.
Büdrəyirik, sürüşürük
Qəlbimizin buzunda.
Yana-yana sönürük
Hissimizin odunda.
Fəsillər üzü yaza,
Uçur qaranquş kimi.
Bizsə üzü payıza
durna qatarlarında.

ADIN

Adını buludlara yazdım,
Hərf-hərf, heca-heca.
Yağdı damla-damla,
Axdı üzümə-gözümə.
Ovuclayıb içdim,
Adın da özüntək acı.
Kaş bu yağış yağmayaydı...
Adın pozulmayaydı.
Ürəyimin səmasında
Adının yeri boş qaldı.

DÖNMƏ

Ömür pillə-pillə sökülüb gedir,
Ürəyin zərləri tökülüb gedir,
Hər gələn həyatda seçilib gedir,
Gedirsən, indi get, bir daha dönmə.

Hər sonda bir əvvəl, əvvəldə son var,
Zülmət gecənin də sonunda dan var.
Təklik doqquzacan, yanında on var,
Gedirsən, indi get, bir daha dönmə.

Uğurlu, uğursuz qismət mənimki,
Dağın döşündəki yollar çəninki,
Gələn yollar deyil, gedən səninki,
Gedirsən, indi get, bir daha dönmə.

Baxma sən Gültacın sözünə qərib,
Bir gözü ağlayıb, bir gözü gülüb,
Sevgi budağından hicranı dərib
Gedirsən, indi get, bir daha dönmə...

NOTLAR

Görürsənmi?
Təpələr Do,
Yollar Re,
İzlər Mi,
O tənha ev Lya.
Gündüzümüz Sol,
Gecəmiz Fa.
Həyat – dağılıb
Səpələnmiş mahnı notları,
Sİ-dən başlayır nəqaratı...

SEVGİNƏ QURBAN

İlahi, nə yaxşı közü yaratdın,
Cahanı yaratdın, bizi yaratdın.
Gözəlliyə baxan gözü yaratdın,
Aynadan boylanan sevginə qurban.

Arpa bitirdin ki, göy atlar yesin,
Buğdanı bitirdin, insanlar yesin,
Canlı yaratdın ki, canlılar yesin,
Torpaqdan boy atan sevginə qurban.

Səmanı quşlara ərmağan etdin,
Suyunu balığa ərmağan etdin,
Varını yoxuna ərmağan etdin,
Yoxundan var olan sevginə qurban.

GÖYÇƏK ADAMLAR

Əvvəlki arzular çoxdan saralıb,
Təzə arzularım hələ tumurcuq.
Qəlbiməsə fəslin baharı gəlib,
Ay göyçək adamlar,
Çiçək adamlar!
Yazılıb adınız
Yaddaşımın bahar yerinə.
Yaxşı ki, varsınız.
Siz də baharsınız!

YAŞAYIRIQ

Mənim dünyam –
sənin dünyan, deyirdin.
Sənin dünyan –
mənim dünyam deyirdin.
Sən dünyamı alıb getdin,
Sənli nə var, yıxıb getdin.
Öz dünyanla
mənim dünyam sənindir,
Yox olanlar,
yıxılanlar mənimlədir.
Yaşayırıq ömrümüzü
iki dünya arasında.
Sən yalnızsan,
mən də sənsiz.

HƏSRƏT DAĞLARI

Dağların yarısı üşüyür bizdən uzaqda:
Yollarında xəndək qazılıb,
İkiayaqlılar durub pusquda.
Dağların yarısında bahar üşüyür,
Qışı bitmir, qarı ərimir
Dağlara getməyən yollar üşüyür,
Ürəyimdə sıra dağlar qatar-qatar,
Ürəyimin həsrət dağları qubar-qubar.

AĞLADIM

Günəşi nar kimi sıxdım,
şüası qan kimi
axdı barmaqlarımdan.
Hirsimdən gecənin
üzünü cırdım,
ayın yanağı qopdu,
gözlərimi
buludlara dikib
doyunca ağladım.
Şəhidini qucaqla,
səbrin kəsilsin, Vətən!

Vaqif YUSİFLİ

ƏDƏBİ FRAQMENTLƏR: ZƏRDÜŞT ŞƏFİNİ OXUYANDAN SONRA

"Ulduz" jurnalının builki aprel sayında Zərdüşt Şəfinin şeirlərini oxudum, artıq dünyasını dəyişmiş bu şairin fiziki ölümünə inansam da, nə özünün, nə də şeirlərinin ölümünə inanıram. Jurnalda çap olunan 17 şeir (2009-2010-cu illərdə yazılanlar) dünyadan nakam gedən bir cavan oğlanı deyil, artıq poeziyasının kamillik dövrünü yaşayan bir şairi tanıtdı. Görünür, kamillik insana əlli-altmış yaşında deyil, cavanlığında da nəsib olurmış. "Dünyaya gəlmək getmək üçündür, bu nə qəmdir" (S.Ə.Şirvani), amma, bəlkə, bir Müşfiq ömrünü yaşayan Zərdüştün şeirləri mənə anlatdı ki, ölüm nə qədər güclü olsa da, istedadların qarşısında acizdir. Ölüm onların yaşamaq vaxtını qısalda bilər, amma bundan sonra yaşayacağının haqqına girə bilməz.

Mən Zərdüştlə tanış deyildim, bəlkə, cavan şairlərin tədbirlərində görmüşəm, bəlkə, heç görməmişəm, amma atası, tanınmış ədəbiyyatşünas Baloğlan Şəfizadə ilə illər boyu ünsiyyətimiz olub. Professor Baloğlan Şəfizadə hazırda Ədəbiyyat institutunda çalışır, onun elmi tədqiqatları Zərdüşt-Avesta-Azərbaycan mövzusunu əhatə edir və Azərbaycan ədəbiyyatşünaslığında bu problemin ən mükəmməl və dolğun elmi izahlarını Baloğlan müəllim verib. Zərdüştə – o dahi şəxsiyyətə olan sonsuz ehtiramıdır ki, oğluna onun adını verəndə tərəddüd etməyib.

Deyə bilərdim ki, Zərdüşt Şəfinin şeirləri mənə gizli bir potensialı açıqladı, amma yox, onun şairlik potensialı heç bir gizlinə işarə eləmir, nə varsa, üzdədir, bəlkə, yaşasaydı, daha üstün, daha dolğun, daha mükəmməl bir yaradıcılıq prosesi keçərdi, amma bu 17 şeir Zərdüşt Şəfini istedadlı bir şair kimi səciyyələndirir. Mən deyə bilmərəm, o, yaradıcılığa haçan başlayıb, nə yazıb, ilk şeiri nə vaxt – hansı jurnalda, ya qəzetdə dərc edilib, "Ulduz" jurnalının 2000-2011 saylı bütün nömrələrini vərəqlədim, şeirlərinə rast gəlmədim, iki hekayə Zərdüşt imzası ilə çap olunub, bu odurmu, bunu da deyə bilmərəm, amma 17 şeir kifayət edir ki, mən ondan bir şair kimi söz açım.

Sən bir yaz günəşi başımın üstə,
mənsə dağ başına sığınmış qaram –
nə qədər isinsəm məhəbbətinə,
o qədər əriyib yoxa çıxaram.

sonra dağ selisən, mənsə körpüyəm –
hücum çəkəcəksən dayaqlarıma…
Sən ki bu körpüdən keçməyəcəksən,
özüm yıxılacam ayaqlarına.

Belə qucaqlaşdıq biz iki düşmən:
nifrət və məhəbbət, barış və savaş…
Sən günəşə döndün buxarlanaraq,
mən torpaq oluram, bax, yavaş-yavaş.

Bu şeirin bədii təzadlar üzərində qurulduğu göz önündədir. Günəş-qar, dağ seli-körpü, nifrət və məhəbbət, barış və savaş, günəş və torpaq-bir-birinə zidd olan bu anlayışlar "mən" və "sən" arasındakı uçurumu, yadlaşmanı ifadə etmək üçün ən münasib antonimlərdir. Bu gün şairlərdən oxuduğum sevgi şeirlərində ayrılıqdan doğan üzüntüləri təsvir etmək üçün istifadə olunan antonim sözlərin sayı o qədər də çox deyil, sadəcə, termometr şkalasında olduğu kimi dövr edir, yəni sevənlər arasında istilik yox olub, soyuqlar başlayıb. Amma misal gətirdiyim şeirdə kontrastlar bir sevginin süqutunu şiddətə çatdırır.

Zərdüşt Şəfi müasir poeziyamızda yaranan, deyək ki, isbatına yetən yeniliklərə və keyfiyyət dəyişikliklərinə hazır görünürdü... Sözə, ifadəyə adi leksik yanaşma deyil, poetik məna yaratmaq, sözün, ifadənin nəyə qadir olduğunu üzə çıxarmaq onun şeirlərində nəzərə çarpan xüsusiyyətlərdən birincisidir.

Onun şeirlərində irreal görünüşlərlə reallıq arasında məsafəni ayırd eləmək mümkünsüz görünür. Bəzən bu məsafələr bir-birinə yaxınlaşır, bəzən elə uzaqlaşır ki, onu izləyə də bilmirsən. Sənə elə gəlir ki, Zərdüşt Şəfi buludlardan çox-çox yuxarıda, göy üzündə yaşayır, amma bu təsəvvür aldadıcıdır, çünki göy üzü xəyalları yerdə, torpaqda yaranır:

Adamlar yollara sıxılıb qalıb,
Yollar sərilibdi Yer kürəsinə.
Tanrı göy üzünə ağ xalça salıb,
Ağlayır asfaltın hər zərrəsinə.

Ağaclar parklara yığılıb burda,
Göydə nə şair var, doğulub burda.
Cazibə qüvvəsi yox olub burda-
Burda hər kəs dönür öz dövrəsinə.

"Meqapolis" adlanan bu şeirdə Zərdüşt Yer-Göy-Tanrı uzaqlığından bir şəhərin ağaclar dolusu parkına enir. Və sonra cazibə qüvvəsinin itdiyini, hər kəsin yalnız öz dövrəsinə dönüb-dolandığını müşahidə edir. Bu iki bənd hələ heç nə demir, fikri ifadə baxımından yarımçıqdır. Amma…

Şəhərdə işıq var, işıqda div var,
Harda div yaşayır, orda bir ev var.
O evin içində bir tənha zəvvar
Hər sabah ağlayır azan səsinə.

Bu bənddə miflə reallıq, keçmişlə müasirlik çulğaşıb. "İşıqda div", divin yaşadığı ev və o evin içində bir zəvvar. Sonra da azan səsi. Qəribə deyilmi? Amma Zərdüşt Şəfi şeirlərinin içinə belə

qəribəlikləri sığışdırmağı sevirdi. Dünyanın və yaşadığımız mühitin xaotik mənzərələri fonunda müxtəlif nəsnələri, təbiət hadisələrini, insanların daxilindəki ziddiyyətləri bir-birilə əks qütblər halında təqdim etmək təzə deyildi, amma bu yanaşmada tamam fərqli bir görüntü yaratmaq lazım idi:

Bulud enibdi aşağı,
adın duman qoyubdular…
düzlər əyriylə kəsişib –
adın yaman qoyubdular.

Addım-addım biz gedirik,
qorxa-qorxa az gedirik…
Biri bizi gəlib keçir –
adın zaman qoyubdular.

Günah dolu içimizdə,
batdım artıq bu dənizdə.
Xilas çöpü önümüzdə –
Tanrı enibdi aşağı.
Xilas olaq özümüzdən-
Adın saman qoyubdular.

Bu şeirin mənasına varsaq, sanki bir-birilə heç bir əlaqəsi olmayan məfhumların bir araya necə gəlməsinə təəccüblənmiş olarıq. Fikirləşərik ki, dumanla düzlərin-əyrilərin kəsişməsi, yolda birisinin bizi ötüb keçməsi arasında nə əlaqə? Amma hara gedirik? Dənizdə batırıq, xilas çöpü önümüzdədir-samandan yapışıb qurtulmaq olar (xalqdan gələn bir inanc). Bu şeir assosiativ təfəkkürdən doğub, assosiativ təfəkkür obrazlı təfəkkürün davamı sayıla bilər. Bir-birilə real və məntiqi mənada heç bir əlaqəsi, bağlılığı olmayan müxtəlif əşyalar, hadisələr, onların ifadə etdiyi məfhumlar bir şeir daxilində birləşir:

Hər küçənin tinində
bir evin divarı var.
Hər divarın dibində
Bir adam məzarı var.
Hər məzarın içində
sümüklər varaq-varaq.
Həyatını saçında
saxlayıb daraq-daraq.
Daraq-daraq darayıb
küləklər sünbülləri.
Qəbrin üstə sünbüllər –
açıb ölüm gülləri.
Ot basır, yağış yuyur
evə söykənmiş qəbri.
Çölündə xarabalıq,
içində ölü səbri.

Küçənin tini, evin divarı, adam məzarı, sümüklər, daraqlar, küləklər, ölüm gülləri... baxın, bu məfhumların ifadə etdiyi reallıqlar ayrı-ayrılıqda bir-birindən asılı deyillər, amma onları birləşdirən qəbirdəki ölüdür, o ölü dişlərini qıcayıb gülmək istəyir, amma həyat qapısı onun üzünə bağlıdır və o, bu divarın dibində adi bir ölü olaraq qalacaq. Bu da assosiativ şeirdir, amma hər hansı şeirin hansı tövrlə, hansı istiqamətdə yazılmasından asılı olmayaraq, o şeirdə konkret bir fikir varsa, bu fikir poetik ifadəsini tapırsa, o şeiri təqdir etmək olar. Zərdüşt Şəfinin şeirlərində hansısa bir xarici ədəbi cərəyanın təsirini hiss eləmədim, çünki müasir dünya şeirinin mənzərəsində yeni meyillər artıq bir ədəbi cərəyana aid olmur. Zərdüşt Şəfi müasir şeirin altmışıncı illərdən üzü bəri yeniləşən, novatorlaşan axınlarına üz tuturdu. Heyif ki, ömrü az oldu, yoxsa o, şeiriyyət aləmində "pəhləvanlar kimi badpalar səyridərdi" (Füzuli).



Mütalib TAHİROĞLU

GECƏLƏRİ BAĞIŞLAYIRAM

Sənə nə bəxş edim, nə bağışlayım?
İçində eşq nalə, eşq haray olsun.
Bəlkə, öz gecəmi mən bağışlayım,
Mənə də vüsalım şirin pay olsun.

Sənə gecələri bağışlayıram,
Gecələr büsbütün susur kainat.
Sənə gecələri bağışlayıram,
Gecələr bambaşqa yaşanır həyat.

Bütün ulduzları yığıb ovcuma,
Gecə köynəyinin qoynuna düzüm.
Ay da qoy bənzəsin zərif bir şama,
Səni xəyalımın gözündən süzüm.

Qızarsın yanağın, titrəsin əlin,
Tutum əllərini ay işığında.
Sənin topuq çalıb dolaşsın dilin,
Öpüm tellərini ay işığında.

Yetişsin vüsala dodaqlarımız,
Əlimiz, telimiz, qoxularımız.
Birlikdə qızarsın yanaqlarımız,
Çin olsun vüsallı yuxularımız.

Sənsiz gecələrin yoxluğu nə qəm,
Sənsiz gecələri yaşayım necə?
Elə bu gecəmdi sənə hədiyyəm,
Məni gecələrsiz qoyma bu gecə.

GEDƏK BURALARDAN

Gəl verək əl-ələ, baş alıb gedək,
Gedək "ümidsizlik məmləkəti"ndən.
Burda eşqin ömrü gödəkdi, gödək
Dünyanın əbədi məhəbbətindən.

Əzizim, yurd seçək elə bir yeri,
İztirab olmasın, zülm olmasın.
Olmasın sərhədi, topu, əsgəri,
Ayrılıq olmasın, ölüm olmasın.

Açılsın eşq ilə güllər, çiçəklər,
Yağışdan sevgimin qoxusu gəlsin.
Uçsun kəpənəklər, gəzsin böcəklər,
Baxdıqca adamın yuxusu gəlsin.

Bu yerdə can verən sevgimiz ki var,
O yerin Tanrısı, Allahı olsun.
Orda sevgi olsun ən ali şüar,
Sevənlər sevginin məddahı olsun.

Qalsın bu yerlərin adamı burda,
Dövlət arzulayan, ev güdən olsun.
Gedək o yerə ki, sevgilim, orda
Evlərin təməli sevgidən olsun.

Gəl gedək, nə qədər sağdır məhəbbət,
Onu öldürəcək bu "qatil ölkə".
Bəlkə də, arzular oldu həqiqət,
Mənim xəyal dünyam tapıldı, bəlkə.

GÖR

Dərdini ver ki mənə, dərman olum dərdinə, gör
Dərdini dərdim edim, qurban olum dərdinə, gör.

Dərdi sevdir mənə sən hüsnü camalın qədəri,
Dərdini sənlə sevim, heyran olum dərdinə, gör.

Dərdini gül düşünüm, bağı-gülüstan yaradım,
Göz yaşımla sulayım, bağban olum dərdinə, gör.

Mən kiməm, mən nəçiyəm
– dərd xəbərsizdi hələ;
Keçə bir xeyli zaman, əyan olum dərdinə, gör.

Tərk edə cismi Mütalib, girə dərdin içinə,
Ey pərim, ruhum ilə mehman olum dərdinə, gör.

ALLAH

Qolları qandallı, məhbus olunmuş,
Arzumu yuxuda bitirdim, Allah.
Bir tikə çörəyə başım qarışdı,
Özümü içimdə itirdim, Allah.

Tale ağacından qüssəni dərdim,
Kədəri qollarım üstünə sərdim,
Gördüm ayağıma dolaşan dərdi,
Əyilib çiynimə götürdüm, Allah.

Elə bil düşmüşəm şeytan şərinə,
Yetişim dərdlərin hansı birinə,
İllərin sürətli axar yerinə
Ömrümü beləcə ötürdüm, Allah.

Nəfsimi bir anda çarmıxa çəkib,
Bu zalım dünyaya arzular əkib,
Verdiyin saf eşqi qəlbimə büküb
Olduğun haqq yerə gətirdim, Allah.

KEÇMİŞDƏN GƏLƏN ADAM

İllərin ardından qonaq gələrəm,
Gələrəm, bir daha görərəm səni.
İsti nəfəsimlə bənövşə kimi
Soyuq yatağından dərərəm səni.

Bir gecə yuxuna qonaq olaram,
Onda görərsən ki, sənsiz betərəm.
Kabus qış yuxunu bir gəlişimlə
Bahara çevirib, çıxıb gedərəm.

Bir gecə yuxuna qonaq gələrəm
Ölmüş arzulara son naxış kimi.
Heyran nəzərlərlə əzizləyərəm
Çöhrəni oxşayan xoş baxış kimi.

Sənli hisslərimi qucaqlayaram,
Bu eşqin əlində elə kövrəyəm...
Ayılıb yuxudan görəcəksən ki,
Mən yuxu deyiləm, elə gerçəyəm...

BAXIŞININ İZİ İLƏ…

Bundan sonra baxmağını istəmirəm!
Baxma mənə!
Təsadüfən yolum düşsə küçənizdən,
Ya da başqa bir ünvanda qarşılaşsaq...
Baxma mənə!..
Pəncərənin qollarını
Acsan xəyalına tərəf,
Göz yaşının üzərində
Gülüşüylə körpən qaçar –
Baxma mənə!
Addım səsinə diksinər xəyalların,
Baxışların oğrun-oğrun
Köks ötürərsə,
Onda yadına düşəcək…
O baxışlar mənim ücün doğmalardan əziz idi...
Yadındami?
O baxışlar mənim üçün mavi rəngli dəniz idi.
İndi daha baxışların mənim üçün
Yaddan da yad...
İndi daha bu ayrılıq yolumuzda
Haqlı inad...
İndi daha baxışların
Ləkə salar taleyimə,
İndi daha
Gözlərinin aynasında
Bir başqası güzgülənər…
Bir qurtumluq göz yaşımsan
Boğazımda düyünlənən...
Qəhər deyib içsəm səni,
Ürəyimin göynəyində
Yara olub qalasısan...
Sən dünənimin memarı,
Bugünümun evin yıxan bəlasısan...

DƏRGİDƏ KİTAB

Ələmdar CABBARLI

Mirzə əfsanəsi

Onu çoxunuz tanıyırsınız. Kiminiz iş yoldaşı kimi, kiminiz yazı-pozu adamı kimi, bəzilərinizə orta məktəbdə dərs deyib, bəzilərinizə Müəllimlər İnstitutunda, hansınızasa APİ-nin Şamaxı filialında elmin sirlərini öydədib, hələ üstəlik şairliyi də var dostumun. Aranızda orta məktəbi Bakıətrafı kəndlərdə bitirənlər təxmin elədilər kimdən danışıram. Ayy sağ ol – düz tapdın! Yadındadır, bir dəfə kağızı yumrulayıb qabaqkı partada oturan yoldaşına tulladın, o da gəlib sol qulağının dibinə yaxşı bir şillə tutuzdurdu. Deyəsən, yadına düşür. Sonra da yumrulanmış kağızı açdı ki, hələ içinə söyüş də yazmısan – sağ qulağının da dibini isitdi. Bu əhvalatdan sonra sənin kimi şagirdlərin dərsini vermək üçün yanında daima şlanq gəzdirən Mirzənin məşhur ifadəsi də, yəqin, yadındadır: "Əsl pedaqoqluq şlanqdan başlayır". Aranızda Mirzəni sex müdiri kimi tanıyanlar da az deyil. Yox, əşşi, nə ayaqqabı sexi.Yox,çörək sexi də deyil. Düzdür, bunun da axırı gedib bir loxma çörəyə çıxır – amma bu, tamam ayrı sexdi. Mirzə düz otuz ildir ki, ciddi yazı-pozu işləri ilə məşğuldur. Həm də dostum nəinki özü üçün, başqaları üçün də yazı-pozu qaralayır. Yəni ki, bu bazarın əsas oyunçularındandır – yazı-pozu sexini işlədənlərdən biridir. Özü də monopolistin yekəsidir. İmkan verməz bir adam lisenziyasız onun bazarına girə, ya da köhnə bazara təzə nırx qoya. Neçə illərdir ki, bu bazarda nırx elə Mirzənin qoyduğu nırxdır. Yaxşı tutdum, bu cümlələri oxuyub yaman qımışırsan deyəsən, səninkini də o yazıb. Əşşi, nəyimə lazımdır, özünüz bilərsiniz – imkan verin, söhbətimi eləyim. Hə, onu deyirdim axı, Mirzəni hərə bir cür tanıyır. Biri deyir, yaman diribaşdır, biri deyir, ə kişi, nə danışırsan – Mirzə fağırın biridir. Biri deyir, kobud adamdır, biri deyir, ipək kimi yumşaqdır. Açığı, mən də Mirzəni yaxşı tanımırdım. Elə sizin kimi, bəlkə, sizdən də az tanıyırdım. Yəqin ki, indi danışacağım əhvalat baş verməsəydi, elə bu cür də tanımağa davam edəcəkdim. Söz vaxtına çəkər – doxsan səkkizinci ilin elə bu vaxtları Mirzə ilə Səməd Vurğun bağında gəzişirdik. Hələ onda indiki kimi ürək dostu deyildik, bir-birimizə isinişməmişdik – elə ordan-burdan, dağdan-arandan danışırdıq. Birdən Mirzənin telefonuna zəng gəldi. Xəttin o başındakı kövrək səs dedi:

– A Mirzə, biz sənə neyləmişik, niyə bizi atıb getmisən? Bizim günahımız nədir axı?

Söhbət uzandıqca hiss eləyirdim ki, Mirzə də kövrəlir. Amma qayıdıb bir kəlmə də demirdi. Eləcə qulaq asırdı. Xəttin o başındakı səs bir az da yazıqlaşdı:

Mirzə, başına dönüm, bəlkə, xətrinə dəymişik, bəlkə, bizdən küsmüsən?

Mirzə, – Sizdən küsməmişəm eyy, sizdən iyrənmişəm! – deyib, telefonu qapadı.

Mən Mirzənin indi, bəlkə də, çoxunuza gülməli gələn bu cavabının arxasında böyük bir kədər, ağrı gördüm. Həmin gündən onu addım-addım izlədim, özüylə yoldaşlıq elədim, səfərə çıxdım. İndi Mirzəni mənim kimi heç kim tanıya bilməz. Mirzə bir başqa aləmdir. Həm dərin adamdır, həm güclü yumoru var, amma içindəki kədər daha dərindir, daha güclüdür. İnsafən, Mirzənin yazısı-pozusu da pis deyil, müəllimliyinə də söz tapa bilməzsiniz. Yenə doxsanıncı illlərin əvvəlləri idi – soruşdum ki, Mirzə, indiyə kimi təxminən neçə nəfərə yazı-pozu qaralamısan? Dedi, ortaya çıxanları soruşursan, yoxsa, ümumiyyətlə, sexə girənləri? Dedim: – Elə ortaya çıxanları desən, bəsdi.

– Yazdıqlarımdan otuza yaxın yazı-pozu adamı bu saat sənətin çətin yollarında külüng vurur.

Onda soruşdum ki, yaxşı, otuz ildir gecə-gündüz qələmin işləyir, bəs özünə niyə bir iş qaralamırsan?

– Pul verən var? Sən öl ikicə min verən olsa, yazaram, niyə yazmıram?!

– Mirzə ilə yoldaşlıq elədikcə gördüm ki, dostum bütün bunları kefindən eləmir. Bu qədər qara-qura, əyri-doğru işlərlə məşğul olmağı həyat onun qarşısına şərt kimi qoyur. Amma dərd orasıdır ki, bu boyda həngamə dostumun güzəranına bir qram da təsir eləmir. Mirzə neçə illərdir, özünün dediyi kimi, səfil, lələyün günündə dolanır.

İndi gördünüzmü, mən deyəndir – Mirzə çox orijinal adamdır. Belə kişiylə yoldaşlıq eləməyə

dəyər. Yol demişkən, Mirzə ilə birinci yoldaşlığımız Şəkiyə gedəndə oldu. Həmkarların hesabına iki günlük Şəkiyə gedirdik. Yolda bir daha vuruldum bu kişiyə. Elə avtobusa minən kimi Həmkarların sədrinə dedi ki, sən Allah, hara səfər olsa, mənə xəbər elə. Fərqi yoxdur, lap yayın cırhacırında Kürdəmirə səfər olsun. Təki evdən uzaq olum. Avtobusda yanımda oturan Mirzənin yaxın dostu Mikayıl müəllim yavaşca dedi:

– Görürsən də, bu adam evini, uşağını bir qram da istəmir.

Səməd Vurğun bağındakı söhbəti yadıma salıb Mikayıl müəllimin dediklərini başımla təsdiqlədim. Yolda sözarası dostumdan soruşdum ki, niyə ev-eşikdən bu qədər dad döyürsən? Dedi, vallah, heç özüm də dəqiq bilmirəm, nə isə məni səfər daha çox özünə çəkir, nəinki ev-eşik. Bir də ki, ailə səngər kimi bir şeydir, girdin, çıxa bilməzsən, gərək axıra kimi döyüşəsən. Düz iyirmi ildir ki, evdə mövqe döyüşləri gedir. Ona görə fürsət tapdıqca aradan çıxıram – mən də yaşamaq istəyirəm. Dostum ona diqqətlə qulaq asdığımı görüb fikirlərini bir az da inkişaf elətdirdi: – Bilirsən, ailə minalanmış ərazi kimi bir şeydir, hər an partlayış baş verə bilər. Hələ üstəlik mənə məsləhət verdi: Arada evdən çıx, qoy evdəkilər də sevinsin.

Şəkidə əvvəlcə Molla Cümənin məzarını ziyarət elədik. Dostum da məzarın başında çıxış elədi, hələ bir az da guya ki, kövrəldi. Ertəsi gün bir-iki yerə də dəydik. Axşam rayon rəhbərliyi bizə yaxşı ziyafət verdi. Əlbəttə ki, mən Mirzənin yanında oturmuşdum, elə indi oxuduğunuz hekayəni yazmaq üçün material yığırdım. Dostum da sağ olsun, tez-tez yaxşı "pas" ötürürdü. Arada baxdım ki, Mirzə turşuya, istiota yaman girişib. Yadıma keçən ay onu yaxın qohumumun baş həkim işlədiyi klinikadakı böyrək həkiminin yanına aparmağım düşdü. Həkim dostumu müayinə edəndən sonra dedi ki, uzağı bir ay ərzində böyrəyinin heç olmasa biri əməliyyat olunmalıdır. Mirzə o saat əməliyyatın necə keçəcəyi, nə ilə nəticələnəcəyi ilə deyil, qiyməti ilə maraqlandı. Həkim dedi, 300 narkoza, 1000 əməliyyat həkiminə, iki tibb bacısının hərəsinə ayrı-ayrı 100 manat, birinci gecə reanimasiyaya 300, sonrakı günlər gecəsinə 150 manat palataya, 100 ora, 50 bura – nə isə, hesab gəlib üç mini keçəndə dostum havalandı:

– Mən şaxta baba-zadam burda, hədiyyə paylayıram?! Yox, əşşi! Bir böyrəyə üç min pul verəcəyəm. Sən bu dəqiqə mənə yüz manat ver, adam öldürüm.

Həkim gördü ki, bu qan-qan deyir, dedi, vallah, mən qiymətləri dedim, ta özünüz bilərsiniz. Açığı, mən də bir az pis oldum, çünki məni klinikada qohumuma görə tanıyırdılar. Amma Mirzə ilə aramızda olan dostluq mənim üçün daha vacib olduğuna görə həkimdən soruşdum ki, yaxşı, bəs bu binəva neyləsin, başına haranın daşını töksün? Həkim dedi:

– Bunun ta ayrı yolu yoxdur, bu gərək özünü pəhrizə-zada tuta.

Görüşüb ayrılanda da dostuma möhkəm-möhkəm tapşırdı ki, yaşamaq istəyirsənsə, turşudan, istiotdan uzaq durmalısan:

– Turşunu, istiotu nəinki yemə, heç onlar olan süfrədə oturma.

Mən Mirzəni dümsüklədim ki, bəs keçən ay həkimin dedikləri nə tez yadından çıxdı, axı istiot, turşu sənə ziyandır. Dostum yenə özünəməxsus cavab verdi:

– Mirzə nə vaxt öz xeyirini güdüb?!

Açığı, mən özüm də turşu xoşlayanam, ona görə çox da dərinə getmədim, başladım dostumla həmrəylik nümayiş elətdirməyə. İşdə də, səfərdə də bütün günü Mirzənin yanını kəsdirən Mikayıl müəllim də bizimlə, daha doğrusu, Mirzə ilə yanaşı oturmuşdu. Öd kisəsini təzəlikcə çıxartdıran Mikayıla həkim nə təhər göz ağartmışdısa, yazıq kişi, demək olar ki, heç nə yemirdi. Arabir pendirdən, salatdan götürüb başını qatırdı. Mən yenə Mirzəni dümsüklədim: – pəhrizə belə əməl eləyərlər. Dostum başladı Mikayıl müəllimi məzəmmət eləməyə:

– Ay oğul, ye də, min il yaşamaq istəyirsən? Dövran sənin ətini yeyir, sən də bir şey ye də.

Mikayıl müəllim istədi cavab versin, Mirzə aman vermədi:

– Ye, dinmə, ye, dinmə.

Bir az yeyib özümüzü toxtadandan sonra məclisin bədii hissəsi başladı. Nümayəndə heyətimizin üzvlərindən kimi mahnı oxuyur, kimi şeir deyir, rəqs etmək məharəti olanlar rəqs edir –

bir sözlə, hərə özünü bir tərəfdən nümayiş etdirirdi. Xanımlardan biri Musa Yaqubdan şeir oxudu:

Əlimi saçına öyrətmə belə,
Gözümü gözünə öyrətmə belə,
Üzümü üzünə öyrətmə belə.

Mən bir az baharlı budaq kimiyəm,
Bir az da sadəlövh uşaq kimiyəm.
Bala anasına qovuşan kimi,
Leylək yuvasına yovuşan kimi,
Arı gül-çiçəyə uyuşan kimi,
Eh, mən də adama tez yovuşanam,
Sevgi atəşində tez alışanam.

Mirzə şeiri oxuyan – əllini çoxdan aşırıb yüzə nə qaldı deyən, amma hələ də ailə qurmayan xanıma tərs-tərs baxıb çoxunun eşidəcəyi səslə dedi:

– Yaman da tez alışansan – altmış yaşın var eyy, ay oğul! (o hamıya – cinsindən, dinindən, dilindən, irqindən, yaşından asılı olmayaraq hər kəsə *ay oğul* deyə müraciət edir). Bundan sonra sənin üstünə bir çən benzin də töksəm, alışası deyilsən.

Nümayəndə heyətimizdə 9 feysbuk profili, 11 feysbuk və instaqram səhifəsi olan, 52 şeir kitabının, özü haqqında yazdığı (əlbəttə ki, ayrı-ayrı imzalarla) 13 monoqrafiyanın müəllifi, yeriyəndə yerə naz eləyən, göyə minnət qoyan, adamların hamısını özünə borclu sayan, Yazıçılar Birliyinin, Jurnalistlər Birliyinin, Aşıqlar Birliyinin, Rəssamlar İttifaqının, Bəstəkarlar İttifaqının, Əli Qələm Tutanlar İttifaqının – bir sözlə, ölkədə fəaliyyət göstərən bütün birliklərin və ittifaqların üzvü olan, indiyə kimi 6 partiya dəyişən, "Qızıl qələm", "Gümüş karandaş", "Bürünc pero", "Taxta medal" və sairə və ilaxır saysız-hesabsız yerli və beynəlxalq mükafatlara layiq görülmüş, hamınızın yaxşı tanıdığı şair də var idi. İşin onqadlığından həmin gün "görkəmli" şairin ad gününə təsadüf eləmişdi. Məclisi yüksək yaltaqlıq məharəti ilə idarə edən rayonun ştatnı tamadası "görkəmli" şairə söz verməmişdən əvvəl onu rayonun rəhbərliyi və ziyalıları adından təbrik elədi, icra hakimiyyəti adından onun çoxminli diplomlar kolleksiyasına bir dənə də həşəmətli diplomun əlavə olunduğunu bildirdi və xahiş etdi ki, şair özünün məşhur şeirlərindən oxumamışdan qabaq onun şərəfinə hazırlanmış tortu kəssin. Özünün sanbalı ilə (çəki baxımından deyirəm) hamıdan seçilən şair ağır-ağır torta yanaşdı, tortdan bir dilim kəsəndən sonra ha istədi tortun üstündəki şamların heç olmasa birini üfürüb söndürsün, nə illah elədi, nəfəsi çatmadı. Bu acınacaqlı mənzərəni seyr edən Mirzə şairə hamının eşidəcəyi səslə replika atdı:

– Poetik nəfəsin də belə zəifdir!

Mən Mirzənin dizindən basıb dedim ki, yaxşı eləmirsən, ağsaqqal adamdır, metrnən titulları var, işin olmasın, qoy şeirini oxusun. Dostum qayıtdı ki, mən nə deyirəm, oxusun: – biabır olmaq üçün növbəti dəfə yaxşı şans yaranıb, qoy bütün miqyası ilə özünü biabır eləsin.

Mirzənin dediyi kimi də oldu. Şair düz yarım saat özünü bütün miqyası ilə biabır eləyib bizi də tamam əldən saldı. Bu arada ara qarışdı, məzhəb itdi – mən Mirzədən göz oğurlayıb rayonun ştatnı tamadasının qulağına pıçıldadım: Məclisdə Mirzə adında çox istedadlı bir şair oturub, ona söz ver. Tamadanın təntənəli elanından sonra fakt qarşısında qalan dostumun səhnəyə çıxmaqdan başqa çarəsi qalmadı. Açığı, bu, Bakıdan gedənlərin ürəyincə oldu. Mirzəni o qədər alqışladılar, özü də, deyəsən, inandı ki, bəs ciddi şairdir. Yerdən hamı bir ağızdan dedi: – Mirzə, "Pul" şeirini de, "Pul" şeirini de. Mirzə pul haqqında klassiklərin şeirlərindən bir-iki ustadnamə ərz elədikdən sonra keçdi özünün məşhur pul şeirinə:

Dünyanın əzəldən bir qanunu var:
Kimi pul itirər, kim tapar pulu.
Kasıb tapanacan dəridən çıxar,
Amma ki, harınlar tez qapar pulu.

Mənə bu didarda kim durar yaxın,
Dərd qoşun-qoşundu, qəm yığın-yığın.
Uşaq başın tutur, arvad ayağın-
Bu dərman puludu, bu azar pulu.

Kasıb asılmaqçün gedib ip alır,
Harın "Mersedes"i satıb "Cip" alır.
Hər cür əbləh alır, hər cür tip alır –
Məxluq hardan tapır bu qədər pulu?

Qış sovuşur, yaz tələsir, yay gəlir,
İllər nəhs gətirir, aylar zay gəlir.
Gör neçə ölkədən mənə pay gəlir –
Bu yapon puludu, bu Qətər pulu.

Fələk də bu işə duruş gətirməz,
Arvad-uşaq evə quruş gətirməz.
Bir işə başlasam, o iş gətirməz –
Kasıbın cibində tez batar pulu.

Rüşvətə dəstək ol, rüşvətə qulp sal,
Gözdən tük çəkərlər, gözünü qırpsan.
Üzünə tüpürüb başına çırpsan,
Deməz lazım deyil, al, apar pulu.

Mirzə 56 bəndlik "Pul" şeirini, axır ki, bitirdi. Şeir hamının, xüsusilə də əli pulnan oynayan rayon rəhbərliyinin çox xoşuna gəldi. Hətta məclisdə oturan rayonun ən böyük adamı Mirzəyə belə bir təklif də elədi: Sən pul haqqında olan şeirləri toplayıb kitab kimi çap elə. Mirzə dedi:

– Mən toplamağına toplayaram, amma bütün işlərim kimi, bu işim də mübarək olmayacaq. Bu işdə də bir nömrəli problem puldur, kitabı çap eləməyə pul tapılmayacaq.

Axşam oteldə üçümüz – mən, Mirzə, şair Mikayıl bir nömrədə qaldıq. Mirzə səhərə kimi o qədər maraqlı əhvalat danışdı ki, uğunub getdik. İstəyirsinizsə, birini sizə danışım. Bilirəm, ürəyinizdəndir. Yaxşı, danışıram. Deyir, şəhərə təzə köçmüşdüm, yerə-göyə sığmırdım. Kəndimizə gedəndə elə forslu-forslu gəzirdim, elə bilirdilər, Bakının yiyəsi mənəm. Hərə bir iş tapşırırdı, mən də basıb-bağlayırdım. Uşaqlıq dostumun oğlu da bir il idi ki, əsgərlikdən gəlmişdi, işsiz-gücsüz bütün günü kənd aşağı, kənd yuxarı gəzib it döyürdü. Dostum dedi ki, bəs hamıya iş düzəldirsən (guya ki, söz verdiklərimin hamısının işini düzəltmişdim, qalmışdı bu. İş düzəldən olsaydım, elə özümə fərlibaşlı bir iş tapardım), bizim uşaq qalıb qıraqda. Əvvəlcə uşağı başımdan eləmək üçün dostuma məsləhət verdim: – neçə ki boşdur, işsiz-gücsüzdür, evləndir, başı qarışsın. Dedi, nə danışırsan, bu deyir ki, ayrıca evim olmasa, evlənəsi deyiləm. Bu dəfə guya ki, daha yaxşı məsləhət verdim: əyə, evlənmək üçün evi neyniyir, yanında iki metr yer yoxdur bəyəm? Gördüm ki, dediklərim həng almır, təslim oldum: gələn həftənin birinci günü göndər yanıma, bir iş düz-qoş eləyəcəm... Nə isə... (mən qısa danışıram ki, çox başınızı ağrıtmayım, Mirzə bunu bir sicilləmə danışdı) əziz dostumun oğlunu yanıma salıb getdim əvvəlcədən manşırladığım zavoda. Əlimdə su içmək kimi asan olan fəndlərdən birini işə salıb girdim direktorun yanına – bu binəva da böyrümdə. Yolda da özünə söz vermişəm ki, narahat olma, səni işə "oformit" elətdirməyincə direktorun otağından çıxası deyiləm. Ara-sıra qəzetlərdə yazılarım çıxırdı – həmin qəzetlərdən bir-ikisini də vurmuşam qoltuğuma – dərdimi zavodun direktoruna izhar eləyəndən sonra qəzetləri göstərib dedim ki, müəllim, biz də borclu qalan adam deyilik, işimizi həll eləyin, hər ay sizdən bir məqalə yazacağam. Direktor dedi, bizdə iş-zad yoxdur, bu ay hələ ixtisar olacaq, heç cürə götürə bilmərəm, məqalən-zadın da lazım deyil. Bir xahiş elədim, iki xahiş elədim, gördüm, direktor haqq aşığı kimi dirənib, başladım bunu hədələməyə:

– Elə bilirsiniz, xəbərimiz yoxdur burda nə işlərlə məşğulsunuz?

Yalandan bir-iki fakta oxşayan şey də dedim. Gördüm alınası iş deyil. Bu dəm elə bil Allahdan olan kimi gözümə direktorun stolunun üstündə açıq vəziyyətdə qoyulmuş Fridrix Engelsin "*Meymunun insana çevrilməsi prosesində əməyin rolu"* kitabı sataşdı. Uşağa göz vurdum ki, işimiz düzəldi. Əlimi Engelsin kitabına uzadıb dedim:

– Sən bu kişinin dediklərinə əməl eləyirsən?

Direktor tutuldu. Yəqin, fikirləşdi ki, gedib qəzetdə-zadda nəsə yazaram – Marksı, Engelsi saymır-filan, möhkəm qorxdu. Qayıtdı ki, nəyə görə soruşursan? Dedim:

– A kişi, (bu dəfə müəllim-zad demədim) suala cavab ver, əməl edirsən, ya etmirsən, özü də xahiş edirəm, səmimi ifadə ver – lap müstəntiq kimi danışdım.

Yazıq təlaş içində dili söz tutar-tutmaz dedi:

– Əlbəttə, əməl edirəm, mən nə karəyəm ki, Engelsin dediklərinə əməl eləmiyəm. Edirəm, özü də can-başla.

Mənə də elə bu lazım idi. Dostumun oğluna bir dənə də göz vurub dedim:

– Yaxşı, o stolunun üstündəki kitabda Engels nə yazıb? Deməyib ki, əmək meymunu insana çevirir? Elə bil ki, bu da meymundu – əlimi dostumun oğluna uzatdım – bir iş ver, əməklə məşğul olub adama çevrilsin də.

Quşu gözündən vurmuşdum. Direktor o saat düyməni basıb üç çay sifariş elədi, ardınca da "otdel kadr"ı çağırıb uşağı dünəndən işə "oformit" eləmək üçün tapşırıq verdi...

Görürsünüz də, dostum iş düzəltməyin ustasıdır. Bir işi həll eləməyi boynuna götürdüsə, əvvəl-axır həmin işin axırına çıxacaq. Mirzənin iş düzəltməklə yanaşı, iş pozmağı da var. Yəni ki, mərdüməzarlığı. Amma gərək düz danışasan – nə eləyir, haqqına eləyir. Belə bir əhvalat da baş verib. Baş verib deyəndə ki, özüm şahidi olmuşam. Bir nəfərin işi müzakirə olunurdu. Homerin "İliada"sından yazmışdı. Dostum həmişəki kimi yanımda oturmuşdu. Müəllif danışdıqca qulağıma pıçıldayırdı: danışdığının hamısı sudur. Çıxışçı sözünü bitirəndə iclasın sədri auditoriyadan soruşdu ki, kimin sualı var? Dostum əlinin ikisini birdən qaldırdı:

– Mənim sualım yoxdur, etirazım var. Bu nə cəfəngiyyatdı yazıb, hələ utanmır, gəlib özündən razı-razı danışır da.

Mirzə hər yerdə sözü üzə deyəndir. Özü də ağına-bozuna baxmaz – qarşısındakı kimdir, nəçidir. Qohum-əqrəbasıdır, ya müdiridir. Fərq eləməz, Mirzə sözünü deyəsidir. Qohumlardan biri Həcc ziyarətinə gedəsiymiş. Evində ziyafət təşkil eləyir. Mirzəni də çağırır. Məclis əhli zəvvarı tərifləyib qaldırır göyə. Bir ağızdan deyirlər ki, sən bu yola layiqsən, çoxdan getməliydin, hələ bir az da geçikmisən. Növbə Mirzəyə çatanda deyir:

– Mən qəti surətdə etiraz eləyirəm sənin ziyarətə getməyinə. Başqasını deyə bilmərəm, mənim özümlə indiyə kimi iki sistern araq içmisən.

Gələcəyin hacısı əvvəlcə özünü itirir, sonra bir az toparlanıb guya ki, Mirzənin cavabını verir:

– Get, bu məsləhəti atova ver.

Mirzə söz altında qalmır:

– Həccə gedən sənsən, atam deyil ki.

Şəkidən qayıdanda yolda bir maraqlı hadisə də oldu. Yadımdan çıxmamış danışım. Demək, bizimlə səfərə çıxan xanımlardan birinin 10-12 yaşlı uşağı da yanında idi. Bakıdan Şəkiyə kimi uşaq baş-beynimizi apardı. Gah ağladı, gah çığırdı, böyründə oturanları təpikləyib üst-başlarını çirkləndirdi. Bir sözlə, yüz oyundan çıxdı. Mirzə arada tərs-tərs gah uşağa, gah anasına baxdı, amma birtəhər hövsələsini basdı. Qayıdanbaş Şəkidə uşaq ayağını avtobusa basan kimi yenə başladı zırıldamağa. Mirzənin daha dözmək fikri yox idi. Əvvəlcə uşağın anasına məsələhət verdi: – uşağı ver polisə, tutdur. Gördü təklifi etirazla qarşılanır, bu dəfə də irad tutdu ki, a bala, uşaq istehsal eləyəndə keyfiyyətə də fikir verin. Sonra Mirzə lap qızışdı:

– Əşşi, uşaqda heç bir günah yoxdur, sən özün taraz deyilsən. Saxlaya bilmirsən, ver qatım sürüyə, 10 ildən sonra ya gəl özününkünü apar, ya da seç, içindən hansını istəyirsən, götür.

Soruşdum ki, Mirzə, həqiqətən, evdə uşaq çoxdur? Dedi, ev doludur. Dedim: – özün də deyirsən kasıbçılıqdı, saxlamaq olmur, bəs neyləyirsən bir belə uşağı? Dedi, kasıbçılıq olmağına kasıbçılıqdı, özü də kasıblıq yeganə şeydir ki, ömür boyu mənə sədaqət göstərib, anadan olandan yanımdadır. Amma bunun məsələyə dəxli yoxdur, uşağı gərək seçmə üsulu ilə çoxaldasan ki, axırda heç olmasa içindən bir fərlisi çıxsın. Xanımlardan biri söhbətə qoşuldu:

– Nədənsə son vaxtlar kişilər ailə həyatlarından yaman narazıdırlar, bilmirəm nə məsələdi?

Mirzə əvvəlcə dedi ki, birincisi, mən ailə həyatı sözünü qəbul eləmirəm. Nə həyat, orda həyat var? Özü də indiki arvadlarda təzə bir xüsusiyyət əmələ gəlib, qabaq küsəndə yenə çıxıb gedirdilər dədələrinin xarabasına, sən də rahat nəfəs alırdın, indikilər küsüb otururlar evdə. Di gəl bu dərdə döz, görüm, necə dözürsən. Sonra Mirzənin dərdi bir az da açıldı. Dedi ki, əslində, mənim də dərdim-sərim çoxdu, bəxtim çoxdan vəfat eləyib. Amma bilmirəm nə bəladırsa, ciddi işlərim də lağlağıya çevrilir, heç kəs də mənə inanmır. Sonra bir xeyli də problemlərindən danışdı və üzünü avtobusdakılara tutdu:

– Sizin problemləriniz mənimkindən də çoxdur, amma demirsiniz.

Dostum giley və şikayət üstündə köklənmiş uzun-uzadı çıxışını bu sözlərlə bitirdi: Ailəsi olmayanlar idealımdır!

Avtobusda Mirzədən bir sıra arxada oturan 55-60 yaşlarındakı Səməd müəllim himə bənd imiş kimi Mirzənin – sizin problemləriniz də çoxdur, amma demirsiniz – sözlərindən həvəsləndi, başladı avtobioqrafiyasını danışmağa. Söhbətin ümumi məğzini mən belə başa düşdüm ki, bunun ölkə qulağına qoyulası olmayan bir oğlu var, arvadı da oğlunun tərəfini tutur. Bir sözlə, kişini təkləyib gününü qara eləyiblər. Səməd müəllim dərdini danışıb qurtarandan sonra guya ki, bu sahə üzrə

mütəxəssis olan Mirzədən məsləhət istədi. Və elə bildi ki, dostumdan nəsə ciddi bir söz çıxacaq. Mirzə yenə öz ampluasında idi:

– Səməd müəllim, bilirsən də, belə yerdə Aşıq Ələsgər nə deyib:

Bu dünyada üç şey başa bəladı:
Yaman oğul, yaman arvad, yaman at.
İstəyirsən qurtarasan əlindən,
Birin boşla, birin boşa, birin sat.

Mirzənin hələ də nə isə ciddi bir məsləhət verəcəyinə ümid eləyən Səməd müəllim soruşdu ki, yaxşı, indi mənə sözün nədir? Mirzə dedi:

– İndi mən sənə Aşıq Ələsgərin dediyi kimi məsləhət verə bilərəm ki, arvadı boşa, oğulu boşla, amma səni yaxşı tanıyıram, o bəxt ki səndədir, atı alan olmayacaq, qalacaq əlində, ona görə də ən yaxşısı odur ki, birtəhər dözəsən.

Hamımız gülüşdük. Səməd müəllim gördü ki, dostum bunu dolayır, nə qədər and-aman elədik, mümkün olmadı, avtobusu saxladıb düşdü və yəqin ki, yol maşını ilə Bakıya gəldi. Avtobus əhli belə güman elədik ki, yəqin, Mirzə hadisəyə səbəbkar kimi səmimi peşmançılıq hissi keçirər. Amma dostum Bakıya kimi şuxluğunu əldən vermədi.

Bakıya yaxınlaşdıqca sürücü kimi harada düşürəcəyini planlaşdırırdı və hamıdan bir-bir şəhərin harasında yaşadığını soruşurdu. Növbə Mirzəyə çatanda dostum mənimlə şirin-şirin söhbət eləyirdi. Ona görə sürücü Mirzədən məxsusi soruşmalı oldu:

– Müəllim, siz harda yaşayırsınız?

Dostumun cavabı yenə orijinal idi:

– Mən son vaxtlar yaşamıram!

Ardınca – ev adlı əzaba doğru gedirik – cümləsini də əlavə etdi və başladı Rəşid Behbudovun məşhur mahnısını zümzümə eləməyə:

– Qəm-qüssə görməyə gecikin bir az...

***

Adətən, mən Mirzəyə zəng eləyirəm görüşmək üçün. O da sağ olsun, heç vaxt sözümü qırmır, harda olsa, o saat gəlir. Dağdan-arandan danışıb dərdimizi dağıdırıq. Şənbə günü tezdən telefonum zəng çaldı. Mirzə idi:

– Gəl görüşək, yaman darıxıram, bu saat "pasadka" eləyə bilməyən təyyarə kimiyəm – bilmirəm, neyləyim.

Fikirləşdim birdən dostuma pul-zad lazım olar, arvaddan gizli saxladığım 30 "şirvan"dan (o vaxtlar pul bu cür adlanırdı) onunu gizlincə cibimə qoyub vədə yerinə gəldim. Mən "İzmir" parkına çatanda dostum sağa-sola var-gəl eləyirdi. Yaxınlaşıb hal-əhval tutdum. Dedim, Mirzə, sən birdən-ikiyə zəng eləyən deyilsən, bir hadisə olmayıb, bəlkə, pul-zad lazımdır, tez cibimdən 10 "şirvan"ı çıxartdım. Dostum dedi ki, yox, pula ehtiyacım yoxdur, təzəlikcə çal-çap eləmişəm. (Mirzə yazı-pozu işlərinin müqabilində aldığı pula "çal-çap" deyir) Amma dost sözünə, dost qayğısına ehtiyacım var. Sonra da əlavə elədi:

– Çal-çapım çoxdu eyy, köpəkuşağı gətirmir. Gətirmir ki, verək qoşun-qoşun dərdimizə, odumuza.

Mirzəni əlimin içi kimi tanıyıram. Bilirəm ki, acından ölsə də, özünü tox göstərər. Cibində qəpiyi olmayanda da özünü ağayana aparır. Görkəmli alimlərdən biri "Ədəbiyyat qəzeti"ndə Mirzə haqqında yazmışdı: "Mirzə pulu qul kimi qazanıb, bəy kimi xərcləyənlərdəndir". Amma bu dəfə gördüm ki, xına o xınadan deyil, zəmanə bəyi yaman sıxıb. Şair də yaxşı deyib: Ehtiyac qul eylər qəhrəmanı da. Başladı yaşayışından gileylənməyə. Dedi, gərək biz də vaxtında yaltaq olaydıq – indi ailəmizi əməlli-başlı dolandırırdıq. Sonra bir az da dərinə getdi:

– Ailələrinə, uşaqlarına yaratdıqları şəraiti gördükcə yaltaq adamlara hörmətim artır. Axırıncı dəfə evə ət aldığım yadımdan çıxıb – kartof yeməkdən kartof üzrə mütəxəssis olmuşam.

Ucuz aşxanaların birində adama yarım pors borş, üstündən də yenə adama yarım qreçka yeyə-yeyə böyük gələcəkdən-zaddan danışırdıq. Mirzə məni dümsüklədi: – Eldara fikir ver! Baxdım ki, 70 yaşını bu günlərdə kirayə mənzildə qarşılayan Eldar müəllim qabağına iki növ yemək, meyvə şirəsi, salat, turşu düzüb xımır-xımır yeyir. Eldarın oturduğu tərəfə dübarə boylanıb Mirzəyə dedim: – Nə məsələdi? Dostum dedi, bu da taraz deyil, özgə vaxt deyir, kirayədə qalıram, acından ölürəm, lələyünəm, sən onun stolundakı dəm-dəsgaha, növbənöv yeməklərə bax, o cür adam gərək bu saat

əlində dürmək dəli kimi buraları dolaşsın. Eldar müəllim yemək dəsgahını bitirəndən sonra adəti üzrə bizim masaya yaxınlaşdı və məndən eyni xahişi, bəlkə də, mininci dəfə elədi:

– Sən o müəllimlə məni görüşdürsən, qiyamət olar ey.

Eldar düz dörd il idi ki, mənim yüksək vəzifədə işləyən qohumumla görüşmək üçün əldən-ayaqdan gedirdi. Mən də hər dəfə bir dastan danışıb yaxamı əlindən qurtarırdım. Amma deyəsən, Mirzə bu dəfə canımı biryolluq qurtardı:

– Ay oğul, əl çək də uşaqdan. Sən yaşaya bilmirsən, bu yazıq neyləsin?!

Həmin gündən sonra Eldar bir də mənə səmt gəlmədi.

Mirzənin qadınlara meyilli olmağını çoxu bilir. Yanından münasib bir xanım keçən kimi deyir: – adam az qalır arvadı boşaya, bunu ala. Bir dəfə dedim: – Mirzə, sənə evdə yaxşı baxmırlar? Dedi, yox, sən öl, lap yaxşı baxırlar. Düz dörd evdə hər axşam adıma qazan asılır. Dedim, yaxşı, bəs onda bəy dediyin nədir, bəyənmədiyin nə? Dedi:

– Qardaş, mən həyatıma gələn qadınları həyətimə gələn toyuq-cücə kimi qova bilmərəm ki?!

Dostum bu məsələlərdə bəzən, həqiqətən də, yerini bilmir və özünü hara gəldi, pərçim eləyir. Bir gün tanışı olan ahıl qadınlardan biri sözarası deyir ki, bəs qızım evdə qalıb, oxumuş, ağlı özündə, huşu özündə qızdır, qohumda-əqrəbada münasib adam olsa, sən Allah, deyərsən, savabdır. Mirzə qayıdıb nə desə, yaxşıdır:

– Mən heç kəsə məcburi qaydada deyə bilmərəm ki, gəlib sənin qızını alsın. Mənim gücüm ancaq özümə çatır, ona görə də ancaq öz namizədliyimi irəli sürə bilərəm, bir dənə boş ştatım da var.

Mirzədən belə söz eşidəcəyini unamayan qadın mərəkə qoparır. Mirzə yenə dediyindən dönmür:

– Mən istədim, sənə yaxşılıq eləyim. Yaxşı, qoy qızın heç kəsi bəyənməyib otursun evdə, görək nə vaxt bu mübarizənin Klara Setkini olacaq.

Bir dəfə dostumdan soruşdum: – Elə kimi görürsən, deyirsən, ürəyimdə yerin brondu, bir dənə boş ştatım var, ürəyində bu qədər yeri necə tapırsan? Dedi, əsas odur, cibində yer olsun, ürəkdə yer tapmağa nə var ki? Sonra əlavə elədi:

– Fikir vermirsən, mən bu cür sözləri ancaq "krupnu" çal-çap eləyəndə deyirəm.

Mirzənin xanımlara biganə olmadığını bilən dostları arada onun adına əfsanələr uydururlar: filankəslə gördük, bəhmənkəslə gördük, ordan gəldi, burdan getdi. Bir gün mən də belə bir dastan quraşdırdım: – deyəsən, indi də təzə-təzə filankəslə görüşüb-eləyirsən. Birinci dəfə idi ki, dostumu özündən çıxan görürdüm:

– Sən Allah, adıma növbəti uydurma əfsanə yaratma – özü də böhtan janrında!

Eşq-məhəbbət məsələlərində zəngin təcrübəsi olan, bu yolda, necə deyərlər, saç ağartmış Mirzə arada başqalarına bu kimi işlərdə məsləhət verib yol göstərir. İşdən evə gedirmiş. Avtobusda görür, onunla eyni idarədə çalışan qız yenə onunla eyni idarədə işləyən oğlanla yanaşı oturub. Oğlan basıb-bağlayır ki, səni belə xoşbəxt eləyəcəm, elə xoşbəxt eləyəcəm. Səhəri gün işdə oğlanı qırağa çəkib deyir:

– Ay oğul, sən özün ac-yalavac, səfil günündəsən. Sən kimsən ki, kimisə xoşbəxt eləyəsən...

***

Dostumla axırıncı dəfə dünən görüşmüşük – Tofiq Bəhramov stadionunun aşağısındakı "Orman" restoranında. Açığı, biz "Orman"a tez-tez yığışırıq. Amma Mirzəni bu siyahıya son vaxtlar əlavə eləmişik və bundan da çox məmnunuq.

Vədələşdiymiz kimi, bir saat əvvəlcədən Cavid bağında görüşdük. Özüm qəsdən tez çağırmışdım ki, haqqında yazacağım hekayə üçün bir az da material yığım. Material yığmaq deyəndə ki, ayrı heç nə lazım deyil, eləcə sən hal-xoş elə, ümumi şeylərdən, gündəlik hamı ilə danışdığın mövzulardan danış – Mirzə bütün məsələlərə o qədər orijinal yanaşacaq ki, məəttəl qalacaqsan, material da gəlib duracaq böyründə. Məni görən kimi adəti üzrə təzə xəbər soruşdu. Mirzənin bəxtindəndir – onunla nə vaxt görüşürəmsə, təzə xəbər özü peyda olur, özümə əziyyət verib axtarıb eləmirəm. Yenə əliboş deyildim:

– Bəs xəbərin olmadı, dünən Ramizi kafedra müdiri vəzifəsindən çıxartdılar.

Ramiz institutda Mirzə ilə bir qrupda oxumuşdu, hələ aralarında dostluq münasibətləri

də vardı. Mirzənin dediyinə görə, cavanlıqda bir yerdə ora-bura da gediblər. Bir sözlə, Ramiz Mirzə üçün doğma adam sayılırdı, mənə görə. Elə bildim, dilxor olacaq. Amma reaksiyası yenə özünəxas oldu:

– İşdən çıxarıblar? Əşşi, o da taraz deyildi, yaxşı eləyiblər. Tamamilə layiqdir işdən çıxarılmağa.

Niyəsini soruşmadım. Mirzəni yaxşı tanıyıram, bilirəm ki, sözü havaya deməz. Bu dəfə mən soruşdum, bəs Mirzə, sizdə nə var, nə yox, dünən haralarda idin, otağınıza gəldim, səni tapmadım. Dedi:

– O Səməd müəllim var idi ey, Şəkidən gələndə Ələsgərdən şeir dedim, acıq eləyib özünü avtobusdan atırdı – yadında olar.

Dedim, hə, yadımdadır. Qayıtdı ki, bəs onun qayınatası ölmüşdü, onun yerinə getmişdim. Soruşdum, bəs küsülü deyildiniz? Dedi, əşşi, mən cəhənnəm, bu, bütün respublikayla küsülüdür. Qayınatası ilə də küsülü imiş, arvadı mənə yalvardı ki, sən Allah, birtəhər razı sal, gətir, məclisdə görünsün, yoxsa qohum-əqrəba yanında biabır olarıq. Mən də kişini tutub məcburi qaydada apardım qayınatasının yasına.

Gördüm Mirzə maraqlı söhbətlər eləyir, təklif elədim ki, gəl "Orman"a piyada gedək. Dostum həmişəki kimi yenə mənimlə razılaşdı:

– Yaxşı, gedək deyirsən, gedək. Onsuz da bütün günü bu küçələri ac-susuz, lələyün gəzib-dolaşıram.

Biz restorana çatanda məclis əhli yaxşıca yeyib-içirdi. Yerimizi rahatlayan kimi mən də girişdim yeməklərə. Süfrədə nə desən, varıydı: çəpiş buğlaması, basdırma, kabablar... Aclıq məni nə cür fənikdirmişdisə, yalnız özüm toxtayandan sonra düz böyrümdə oturan Mirzəni görə bildim. Və görməyimlə də yerimdə donub qalmağım bir oldu. Adətən, bu cür məclislərdə öz fəallığı ilə seçilən dostum boşqabındakı yeməklərə əl vurmamışdı. Buğlamanın yağı çoxdan donmuşdu, kabablar da, yəqin, buz kimi idi. Arabir könülsüz-könülsüz salatdan, göy-göyərtidən yeyirdi. Sonra ofisiantı çağırıb qulağına nəsə dedi. Ofisiant da o dəqiqə gəlib Mirzənin boşqabında nə vardısa, hamısını yığıb-yığışdırıb apardı. Mən heyrətlə soruşdum:

– Mirzə, nə iş görürsən? Olmaya yeməklər xoşuna gəlmədi – bəs özün demirdin "Orman"ın yeməklərindən yeyən ölməz.

Dedi ki, məsələ sən düşündüyün kimi deyil. Dedim, əşi, məni çatlatma, de görüm, nə deyirsən. Dostumun gözləri doldu:

– Mən burda basdırma, kabab, buğlama yeyim, evdəkilər də qalsınlar İran kartofunun umuduna?! Allah bunu götürər?! Payımı ofisianta verdim ki, qablaşdırsın, aparım evdə arvad-uşaq yesin.

Adətən, Mirzənin sözlərinə şaqqanaq çəkib gülürəm, ya da yavaşdan gülürəm, ən azı qımışıram. Birinci dəfə idi ki, Mirzənin sözü məni ağladırdı. Mən onsuz da bilirdim ki, Mirzənin ən lağlağı söhbəti, ən şit yumoru da, əslində, kədərlə yoğrulub. Bilirdim ki, bu lağlağı söhbətlərin alt qatı ağrı-acıyla doludur. Bu gün bildiyimə lap əmin oldum. Əmin oldum ki, Mirzə ağrısına-acısına yumorla, lağlağı ilə meydan oxuyur, yaxasını namərd əlinə vermir, kürəyini yerə qoymur – hər şeyə gülüb keçir. Elə yaxşı da eləyir. Belə də lazımdı – həyatı çox ciddiyə almağın özü də bir qeyri-ciddilikdir. Mən gözümü sildim və həmişəki kimi yenə bizimlə yanaşı oturan dostumuz şair Mikayılı dümsüklədim:

– Bəs deyirdin, Mirzə ailəsini, uşağını bir qram da istəmir?..

Günel Səfərova













ISNN 0134-522
İNDEKS AZ 1000 2 AZN

ulduz_ayliq_edebiyyat_derqisi